www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 noyabr 2014-cü il Çərşənbə № 272 (5981) Qiymәti 40 qәpik

**Xəbər**

## Bakıda dəm qazı daha bir can aldı

yazısı səh.14-də

**Gündəm**

### Ramil Usubov Bakı polisinin rəhbərini dəyişdi - başqa təyinatlar da var




Paytaxt polisinə rəhbərlik Mirqafar Seyidova həvalə edildi, Rafiq Abbasov isə DİN-də yüksək vəzifəyə təyinat aldı

yazısı səh.3-də

### Azərbaycan Aşuranı qeyd etdi

yazısı səh.4-də

### Müxalifətin 2015 hədəfi - inqilab, yoxsa anlaşma?

yazısı səh.12-də

### Əli Nağıyevdən təhsilin vəziyyəti haqda şok açıqlamalar

yazısı səh.10-da

### Putin Ukraynada Qərbə qarşı son və qəti savaşa başlayır

yazısı səh.9-da

### "Qasid" redaksiyaların borcunu necə qaytaracaq...

yazısı səh.11-də

### Eldar Namazov David Şahnazaryanla birgə bəyanat verdi

yazısı səh.13-də

### Banklarda problemli kreditlər artır, kredit qoyuluşu isə azalır...

yazısı səh.10-da

### Azərbaycana şimaldan sürünən işğal təhlükəsi

yazısı səh.13-də

### Professor Nəsib Nəsibli Müsavatdan niyə getdi

yazısı səh.6-da

### Nazirlik Bakıdakı məşhur klinikanı bağladı

yazısı səh.14-də

### "Goranboy qatili"nin ailəsində dəhşətli faciənin təfərrüatları

yazısı səh.14-də

## Keçmiş vergi müfəttişinin viran qoyduğu rayon

# XALƏDDİN İSGƏNDƏROVUN YALANI VƏ TALANI NECƏ İFŞA OLUNDU

İcra başçısının "Təmiz Binəqədi" layihəsini və bu layihənin altında gizlədilən biabırçılığı təbiət asanlıqla üzə çıxardı; paytaxta yağan bir neçə saatlıq yağış Binəqədinin "islahatçı" rəhbərini "islatdı" və onun yol verdiyi korrupsiyanı küçələrdə göllәndirdi; dövlətdən oğurlanan milyonlar qazon əkilməsinə, hasar tikilməsinə və rəngsazlıq işlərinə həsr olunubmuş




yazısı səh.5-də

## Xətaidəki "yaşıl soyqırım"ın arxasındakı məmurların adları çəkildi - özəl mənbə

Prosesin əsas baş rol aktyoru icra başçısı Razim Məmmədovdur; İnqilab İsmayılov küçəsində 60 sot ərazinin 4.5 milyona satıldığı, bu məbləğdən daha üç yüksək mənsəbli məmurun pay götürdüyü haqda iddialar var

yazısı səh.11-də



Nicat Quliyev

### Vasif Talıbovun həbsdəki qohumu prezidentdən kömək istədi

yazısı səh.5-də



Azər Əsgərov

### AXCP-nin sökülən qərargahının sahibindən Əli Kərimliyə heyrətamiz ittihamlar

yazısı səh.7-də



### Əli Həsənov Yaqlanda cavab verdi

yazısı səh.8-də

MÜSAVAT
N 272 (5981) 5 noyabr 2014



# İlham Əliyev pensiya sisteminin islahatına dair sərəncam imzaladı

**Prezident İlham Əliyev "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.**

ANS PRESS-in məlumatına görə, dövlət başçısı Azərbaycan Respublikasında pensiya təminatı sisteminin formalaşmasında beynəlxalq inkişaf tendensiyalarının nəzərə alınması və pensiya təminatının daim yenilənən müasir tələblərə uyğunlaşdırılması, inkişaf etmiş ölkələrin bu sahədə təcrübəsindən istifadə edilməklə uzunmüddətli dövr üçün pensiyaçıların etibarlı sosial müdafiəsinə nail olmaq məqsədi ilə qərara alır ki, "2014-2020-ci illərdə Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatı Konsepsiyası" təsdiq edilsin.

Nazirlər Kabinetinə tapşırılıb ki, bu sərəncamda qeyd olunan Konsepsiyanın yerinə yetirilməsinə nəzarəti həyata keçirsin və bu barədə mütəmadi olaraq Azərbaycan Prezidentinə məlumat versin; bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

# Bu gün Əlayıf Həsənovun məhkəməsidir

**Noyabrın 5-i saat 11-də Yasamal Rayon Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə vəkil Əlayıf Həsənova Nuriyyə Hüseynovanın şikayəti əsasında xüsusi ittiham qaydasında qaldırılmış işə baxılacaq.**

Yada salaq ki, Nuriyyə Hüseynova Sülh və Demokratiya İnstitutunun həbsdə olan rəhbəri Leyla Yunusla eyni kamerada saxlanılır. Əlayıf Həsənov Bakı İstintaq Təcridxanasında müvəkkili ilə görüşəndən sonra bildirmişdi ki, Leyla Yunus Nuriyyə Hüseynovanın ona qarşı təxribat hazırladığından şübhələnir. Nuriyyə Hüseynova məhkəməyə Əlayıf Həsənovun bu açıqlamasından şikayət edib.

# Azay Quliyev Avronest PA-nın iclasına qatıldı

**Noyabrın 4-də və 5-də Avronest Parlament Assambleyasının Siyasi işlər, insan hüquqları və demokratiya, iqtisadi inteqrasiya, enerji təhlükəsizliyi, sosial məsələlər, təhsil, mədəniyyət və vətəndaş cəmiyyəti komitələrinin iclasları keçirilir. İclaslarda Milli Məclisin deputatları Elxan Süleymanov, Azər Kərimli, Rasim Musabəyov və Azay Quliyev iştirak edirlər.**

Komitələrdə demokratiya, yaxşı idarəetmə və sabitlik, Şərqi Ukraynada münaqişə və Avropada təhlükəsizliyə dair təhdidlər, Avropa İttifaqı ilə iqtisadi inteqrasiya və yaxınlaşma, Avropa İttifaqı və Şərq Tərəfdaşlığı ölkələri arasında birgə nəqliyyat layihələri sahəsində əməkdaşlıq, enerji təhlükəsizliyi, Şərq Tərəfdaşlığı çərçivəsində mədəniyyətlərarası dialoq və digər mövzularda fikir mübadiləsi aparılır.

Deputatlarımız müzakirə olunacaq məsələlərlə bağlı çıxış edərək, fikirlərini bildirirlər.

Millət vəkili Azay Quliyev Avronestin sessiyasından sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə həsr olunan konfransda iştirak etmək üçün Berlinə yola düşəcək. Səfər 9 noyabr tarixində başa çatacaq.

**Başsağlığı**

**Müsavat Partiyasının başqanı Arif Hacılı və partiyanın Divanı Bahar Qambaya atasının vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Qubad İbadoğlu tərəfdarları ilə ikinci böyük görüşünü keçirəcək

## Gülağa Aslanlı: "Bunu rəsmiləşdirmək üçün partiyanın başqanına müraciət olunmalıdır"

**Başqanlığa keçmiş namizəd Qubad İbadoğlunun noyabrın 8-də saat 17:00-da Müsavat qərargahında tərəfdarları ilə görüşü keçiriləcək. Bu, iqtisadçı alimin qurultaydan sonra tərəfdarları ilə geniş tərkibdə ikinci böyük görüşü olacaq.**



Məlumata görə, belə bir görüşün keçirilməsində əsas məqsəd Q. İbadoğlunun qurultayla bağlı MNTK-ya verdiyi şikayətin cavablandırılmasına münasibət bildirmək və bundan sonrakı fəaliyyət istiqaməti ilə bağlı irəli sürüləcək təkliflərin təqdimatıdır. Bundan əlavə, görüşdə yaxın zamanlarda yaradılması gündəmdə olan fraksiya məsələsinin də müzakirə ediləcəyi gözlənilir.

Əsas maraqlı tərəflərdən biri görüşə partiyanın münasibəti və yer məsələsidir.

**Qubad İbadoğlu** musavat.com-a açıqlamasında görüş barədə bunları deyib: "Mən rəsmi olaraq, Gülağa bəyin e-mail-nə məktub yazıb, məlumat vermişəm ki, ayın 8-də qərargahda görüşüm olacaq. Hələ də mənə cavab verilməyib. Görüşdə MNTK-nın rəyinə cavab təqdim olunacaq. Daha sonra fraksiya və digər məsələlərlə bağlı təkliflər müzakirə olunacaq. Önəmli qərarlar qəbul ediləcək".

**Müsavat başqanının müavini Gülağa Aslanlı Qubad İbadoğlunun görüşlə bağlı ona məlumat verməsini təsdiqlədi:** "Qubad bəy görüş barədə məlumatı mənim e-mail ünvanıma göndərib. Bu məlumat xarakterli yazını oxumuşam. Müsavatın başqanı var. Bunu rəsmiləşdirmək üçün partiyanın başqanına müraciət olunmalıdır".

**Müsavat Divanının üzvü Vəfa Cümşüdlü son iclasda görüş barədə müzakirələrin aparılmadığını qeyd etdi:** "Müsavatın ümumi bir nizamnaməsi var. Buna əsasən də partiyada hər hansı bir fraksiya yaratmaq məsələsi yoxdur. Divanda sözsüz ki, qarşı tərəflə birgə işləmək üçün edilən müraciətlərlə bağlı müzakirələr oldu. Lakin qarşı tərəfin imtina etməsi məsələsinə də toxunuldu. Amma konkret ayın 8-i ilə bağlı müzakirə aparılmadı. Əsas zona müşavirələrindən söhbət getdi".

❑ Cavanşir ABBASLI

MÜSAVAT

# Siyasi partiyalar Müsavata toplaşır

**Oktyabrın 5-də, saat 12:00-da Müsavat Partiyasının qərargahında Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzi Milli Məclisə seçkilərdə proporsional seçki sisteminin tərtib edilməsinə dair referendum keçirilməsi təşəbbüsünə həsr edilən dəyirmi masa keçirir. Siyasi partiyalar, ekspertlər, KİV nümayəndələri dəvətlidir.**

❑ Musavat.com

# Vəzifəli şəxsin cinayət işi məhkəməyə göndərilib

**Bakı şəhər sakinlərinin "Repair House" MMC-nin vəzifəli şəxsi Məhəmməd Alməmmədov tərəfindən onlara qarşı yol verilmiş qanunsuz hərəkətləri barədə müraciətlərinə dair toplanmış material üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin istintaqı yekunlaşıb.**

Baş Prokurorluqdan musavat.com-a verilən məlumata görə, istintaqla M.Alməmmədovun qulluq mövqeyindən istifadə edib özgənin əmlakını ələ keçirmək məqsədilə Bakı şəhər sakinlərini özünün biznes fəaliyyətinə şərik edəcəyini yalandan vəd edib onlardan ümumilikdə 218 min manat pulu alıb dələduzluq etməsində, bundan başqa, ona müraciət etmiş paytaxt sakinlərinin mənzillərinin təmiri ilə əlaqədar podrat müqavilələri bağlamaqla sonuncuları məxsus ümumilikdə 137 min manat məbləğində vəsaiti mənimsəməsində, həmçinin sərhəd keçməsinə məhdudiyyət qoyulduğu halda törətdiyi cinayət əməlləri ilə əlaqədar məsuliyyətdən yayınmaq üçün Azərbaycan Respublikasının dövlət sərhədini müvafiq sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda olmaqla qanunsuz olaraq keçməsində şübhələr üçün əsaslar olduğundan ona Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq), 179.3.2 (mənimsəmə) və 318.1-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham elan edilib.

Cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.



# Əli Ömərovun YAP-a üzv olmaq istəyinə partiyadan reaksiya

**Azərbaycanın sabiq baş prokuroru Əli Ömərov hakim Yeni Azərbaycan Partiyasına (YAP) üzv olmaq istədiyini açıqlayıb. Keçmiş baş prokuror publika.az-a açıqlamasında YAP-dan dəvət olarsa, bunu qəbul etməyə hazır olduğunu vurğulayıb:**

"Ümumiyyətlə, mənim bir siyasi mövqeyim var. Mən Heydər Əliyev adına və şəxsiyyətinə hər zaman hörmət etmişəm. Bu gün də bu ada böyük hörmətim var. 20 ildir ki, işsizəm. Ancaq heç yerdə bir kəlmə də olsun indiki hakimiyyətin əleyhinə söz deməmişəm. Heç zaman da demərəm. Çünki Heydər Əliyev böyük şəxsiyyət idi. Mənim ona və onun adı ilə bağlı olan hər bir şeyə böyük hörmətim var. YAP deyəndə, mən Heydər Əliyevi düşünürəm. İndi də onun davamçısı olan prezident İlham Əliyevə xüsusi hörmət bəsləyirəm".

**Ə.Ömərov müxalifətlə münasibətlərindən də danışıb:** "Mənim müxalifətlə heç bir əlaqəm mövcud deyil, onlara qarşı heç bir simpatiyam yoxdur. Nə Müsavat, nə AXCP, nə də digər müxalifət partiyaları ilə heç bir əlaqəm olmayıb, bundan sonra da olmayacaq".

Xatırladaq ki, Əli Ömərov 1991-ci ildə Azərbaycan Ali Sovetinin deputatı seçilib, 1993-1995-i illərdə isə Azərbaycanın baş prokuroru olub.

**YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov bildirdi ki, partiyaya qəbul olmanın mexanizmi var:** "Partiyaya müraciət olunmalıdır. Partiyanın hansı instansiyasına istəsə, müraciət edə bilər. Partiya sədrinə, Siyasi Şurasına, İdarə Heyətinə, yaxud rayon təşkilatına müraciət etmək mümkündür. Bu da müvafiq qurumda baxılır və qərar verilir". **S.Novruzov xatırlatdı ki, Ə.Ömərov "91-lər"dən biridir:** "Yəni YAP-ın yaranması üçün imza atıb, bunun özü də bir göstəricidir. Uzun müddət Azərbaycanın baş prokuroru vəzifəsində çalışıb, Milli Məclisin deputatı olub. Müraciət olunandan sonra partiya hansı qərar verəcəksə, bu barədə də məlumat veriləр".

❑ ELŞAD

# Vəkil həbsdəki qardaşlarla görüşüb

## Sirac Kərimlinin səhhətində ciddi problemlər yaranıb; qardaşların işi Avropa Məhkəməsinə göndərilir

**Noyabrın 4-də vəkil Nemət Kərimli Müsavat başqanının həbsdə olan müavini Fərəc Kərimli və onun qardaşı Sirac Kərimli ilə görüşüb. Görüşdən sonra musavat.com-a açıqlamasında vəkil S. Kərimlinin səhhətində ciddi problemlər yarandığını deyib:**

"Sirac bəy ürək ağrısından və qan təzyiqindən şikayət edir. Ona təcridxanada dərmanlar verilsə də, müsbət dəyişiklik yoxdur. Nəticədə daha ağır dərəcəli dərmanlar qəbul edir. Bununla bağlı təcridxananın rəisinə müraciət etdim. Qanuna görə, səhhəti pisləşən məhbuslar başqa tibb müəssisələrinə köçürülə bilərlər. Dəftərxana rəisi məktubu qəbul etmədi. Poçt vasitəsilə göndərdim. Mən müvafiq qurumlar qarşısında məsələ qaldıracam. Sirac hər gün qan təzyiqi ilə bağlı 3-4 dəfə dərman qəbul edir. Ürək ağrıları isə sakitləşmir. Vəziyyəti ürəkaçan deyil. Bu onun xarici görkəmindən də aydın hiss olunur".

**Vəkil Fərəc Kərimlinin səhhətinin normal olduğunu bildirdi:** "Fərəc normaldır. Saxlanma şəraitindən şikayəti yoxdur. Sadəcə, əvvəllər müalicə etdirdiyi qaraciyərində yaranan problemlər davam edir. İstilik sisteminin olmamasından əziyyət çəkirdilər. O da noyabrın 4-də verilib".

**N. Kərimli qardaşların məhkəmə prosesləri ilə bağlı da danışdı:** "Keçən həftə apelyasiya şikayətləri oldu. Həbs müddətinin uzadılmasından şikayət vermişdim. Qərar qüvvədə saxlanıldı. Hazırda Avropa Məhkəməsinə göndəriləcək işlərini hazırlayıram. Bu həftənin sonu göndərəcəm".

Xatırladaq ki, Fərəc və Sirac Kərimli qardaşları bu ilin iyulunda həbs ediliblər. Hər iki qardaşa qarşı Cinayət Məcəlləsinin 234.4.3 maddələri ilə( kütləvi narkotik maddələri əldə etmə, saxlama və satma) ittiham irəli sürülüb. İrəli sürülən maddə üzrə onları 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir.

❑ Cavanşir ABBASLI


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 272 (5981) 5 noyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Kənddə qəzet məsələsi

## (Oxucunun qəzet haqda köşəsi)

**İl 1990 . Yer- Ordubad rayon Mədəniyyət Evi. Tədbirdəyik. Fasilədə foyeyə çıxıram. Rayonun qəzetsatanı Leysan dayı qaranəfəs yetirir özünü əlində qəzetlər. Şirin Ordubad ləhcəsi ilə təklif edir:**

**Çingiz ÖZGÜR**



- Cəvan oğlan, bir dənə "Müsavat" verim. Şenolun qəzetidi. Əla qəzetdi !

Qara, əyri- üyrü şriftlər, indiki ölçünün dörddə biri qədər səhifələr. Mənim bu qəzetlə ilk tanışlığımdan yadımda qalanlar bunlardı. O vaxtlar arabir gəlib çıxırdı, əldən-ələ də olsa. Tələbəlik illərimdə gündəlik oxuyurdum. Kənddə yaşadığım vaxtlar da, necə olsa, xahiş-minnətlə aldırıb gətizdirirdik.

Son illərsə müşkülə çevrilib. Nəinki kənddə, heç rayon mərkəzində də tapmaq olmur. Kəndə istirahətə getdinmi, vəssalam, qəzetsiz qalacaqsan. Səhəri qəzetlə açmağa alışmış adama, çox çətin gəlir qəzetsizlik.

3-4 ilin söhbətidi, kəndin meydanında oturmuşdum ki, gördüm taksi dayandı. Kəndçim Vahid düşdü. Bakıdan gəlirdi. Çiynində yol çantası. Əlində də, qəzet. Bay... Allah hardan yetirdi bunu... Gözucu baxan kimi gördüm ki, Vahidin əlindəki qəzet həmin qəzetdi...

- Qəzeti gətir bura, sən qəzet oxuyansan?

- Dədəm canımı alar, tapşırıb dönə-dönə...

Düz deyirdi, özü qəzeti ancaq krossvord üçün alsa da, dədəsi oxuyan idi, uşaqları kəndə gələndə həmişə qəzet gətirirdi kişiyə.

- Yaxşı, gəl bir siqaret çək gedərsən.

Bir siqaret çəkincə, nə yolnan olsa, alacaqdım qəzeti, sadəcə vaxt lazım idi. Gəlib siqaretini yandırdı. Alışqanla sanki beynimdəki qığılcıma da od vurdu.

- Vahid , gəl bir oyun oynayaq. Sən o qəzeti aç, yazıdan bir cümlə oxu, mən onun müəllifini deyəcəyəm. Deyə bilsəm, qəzet mənimdi, deyəmməsəm, götür apar.

- Bah! Sən nə bilirsən, hansı yazını kim yazıb, bugünkü qəzetdi ey...

- Bilmərəm , lap yaxşı , götür apar qəzeti. Heç dədən oxuyandan sonra da istəməyəcəm. Amma belə elə, 14-cü səhifəni açma, bu gün beşinci gündü, orda dini yazı olacaq. 7-ci səhifədə bir partiya şəkil, yazı-zad yerləşdirir, onu da keç. Bir səhifə də, adətən Qarabağ problemi ilə bağlı yazı olur, KİVDF-nin səhifəsidir. Onnan qalan nə var, aç bircə kəlmə məlumat ver, vəssalam.

Kəndçim azacıq duruxmuşdu, amma sındırmadı özünü. Qəzetin orta bir səhifəsini açdı.

- Müsahibədi. Sirus Təbrizliynən.

- Aydındı, Elşad Paşasoy alıb müsahibəni. Nətər ki, hər şey kiminsə monopoliyasındadı, bu qəzetdə də deputatlar, vəzifəlilər Elşad bəyin monopoliyasındadı. Parlament müxbiridi. Bir layihəsi vardı "Bir bazar günü" , axırda onu yığıb kitab da eləmişdi. Amma yaxşı köşə yazıları da olur. Çox millətçi oğlandı, çoxdanın jurnalistidi. Hə, de gəlsin.

Vahid üzünü turşudub səhifələri axıra doğru açdı:

- Böyük yazıdı, adı da "Dünyada ən çox..."

Sözünü bitirməyə qoymadım:

- Sevinc Telmanqızıdı. Yanında bir köşə yazısı da olmamış olmaz. Proje desən, proje, reportaj desən reportaj eləsin, müsahibələri də əla olur . Di gəl dayanmır, bir şey oldumu, sabahısı o hadisənin dünya üzrə harda, necə, nə vaxt olması haqda yazısı hazırdı. Çox qoçaq qızdı... Oxu gəlsin .

Qəzeti bir də başa səhifələdi.

- Türkiyədə...

- Aygün Muradxanlının yazısıdı. Nədən desən yazar, amma Türkiyə, türkçülük mövzusu yaralı yeridi. Qəzetin "ağır abla" larındandı. Qorxu - hürkü də bilən deyil. Od -alovdu ...

- Dədəm canımı alacaq... xeyli yazı qalsa da, Vahid məğlubiyyətə hazır idi.

- Oxuyum, gətirim verim də. Əziyyətə salma özünü. İqtisadi yazı olsa, Qadir İbrahimlidi, arada riyazi səhvlər etsə də, əla iqtisadçı jurnalistdi. Siyasi təhlil olsa, Azər Rəşidoğludu, yarıyacan heç nə başa düşməsən də yarıdan sonra hər şey aydın olur yazılarında. Kriminal yazı olsa Elşən Balaxanskidi, kriminalın atasıdı kişi, harda hadisə var, ordadı. Dindən yazırsa, Kənan Rövşənoğludu, özü də mütləq qeyd edəcək ki, filan hadisəni İslama bağlamaq düzgün deyil, əsil İslam bu deyil. Dava - şava mövzularıdırsa Röya Rəfiyevadı, təbiəti ilə yazıları düz mütənasibdi. Hansı yazıdan bir cümlə oxusan, biləcəm. Qəzeti ver!

- Yox e, tək sən deyənlər deyil axı. Köşə yazıları da var.

- Məni incitmə a kişi, 8-ci səhifə, daimi, dönməz və əbədi olaraq Zamin Hacındı. Heç kəsə güzəştə getməz, getsə nə olacaq e. Yenə o yeyib, doyub, yerinə gələn ondan da pis olacaq. Bir də iki imzaynan yazan Xalid Kazımlıdı, onu da nəinki bu qəzetdə, xaricdə də çap olunsa tanıyaram. Düzdü, hərdən özü də çaşır, imzaları qarışdırır, amma eybi yox. Hər gün yazmaq hər kişinin işi deyil axı... Yazı səni keçmişlərə aparırsa, Mahal İsmayıloğludu. Oxudun, bir şey başa düşmədinsə, Elşad Məmmədlidi. Bir az qəliz yazır, bir-iki dəfə oxumaq lazımdı. Hə, bir də Azər Ayxandı, o da son vaxtlar hirslənəndə yazır. Onun da nəyə hirsləndiyini bilirəm, bir kəlmə bəs edir. Qalan da bayaq adlarını çəkdiklərimdi, hərə öz üslubunda yazır, bir söz də oxusan tanıyacam.

- Bir söz belə?

Bir az böyük danışmışdım, amma ta qayıtmaq olmazdı, yoxsa cığallıq eliyib qəzeti verməyəcəkdi.

- Həəə, lap bir söz belə...

Başladı qəzeti ələk -vələk eləməyə, sifətinin ifadəsindən gördüm ki, sevinir, nəsə tapmışdı. Beynində oxudu -oxudu, axırda bir söz tapıb, ucadan dedi:

- "İlginc"

Qalxıb qəzeti əlindən aldım:

- Ver görüm bura. Söz tapdın oxumağa. Rauf Arifoğludu, çox az yazır son vaxtlar, ver görüm nə məsələdi?

Siqaretini əlində söndürdü. Sonra yerə atdı, əvvəlcə ayaqqabısının burnu ilə, sora dabanı ilə xeyli əzdi. Sonra da götürüb aparıb zibil qabına atdı. Qayıtdı gəldi, sakitcə üzümə baxdı:

- Dədəmə nə deyim, nə vaxt göndərəcəksən?

- İki saata göndərirəm, amma getmə. Gəl sənə bir az əvvəllərdən də danışım. Qabil Abbasoğlunun redaktor olduğu vaxtlardan. Kişi təcili yardım maşınından idarə edirdi bir ara qəzeti. Böyükkişi Heydərlinin "Yazıçı Qor" vaxtlarından. Qəzetin "dərin dövləti" idi Böyükkişi bəy. Elbəyi Həsənlinin Naxçıvan reportajından. İstəmişdi reportaja azca "duz qatsın", məlum kənddən bir lətifə yazmışdı, o duz daşa dönüb, Bakıda redaksiyaya yağdı, kişi özü də 3-4 gün itkin düşdü, gördüm deyən olmadı. Şahin Cəfərlidən, gəlmiş-keçmiş ən "delavoy" Yeni Müsavatçılardan olan Səbinə Əvəzqızının dava-şavalıq, məhkəməlik yazılarından. Aynur İmranova qələmindən, Könül Şamilqızı imzasından. Azər Qaraçənlini minlərlə oxucunu ağladan "Ay Laçın"ından, "siyasi skandalların ustası" Esmira Namiqqızından. İdman səhifəsi olan vaxtlardan, Anar Natiqoğludan, rəhmətlik Adil Qaçayoğlunun hissiyyatsız oxunmayan futbol yazılarından. Lap belə, Rauf Arifoğlunun "pamflet" janrındakı yazısından. Yaxşı, bunları tanımırsan bildik, bəs öz yerlimiz Cavid Cabbaroğlunu da tanımırsan? Baxma, burda yaşamayıb, yazılarından Ordubad iyi gəlir, nədən yazır-yazsın... Ta mən sənə nə deyim. Dədənin xətri olmasa, sənə qəzet verməzdim.

- Yaxşı, ta sən bilirsən də orda nə yazılıb. Neynirsən daha oxuyub?

- Hardan bilirəm e, indi səndən almadım qəzeti? Mən kimin necə yazdığını bilirəm.

Sakitcənə çantasını götürüb çiyninə atdı. Evlərinə yox, əks tərəfə getdi. Döngəni burulanda arxaya döndü:

- Gedirəm əmimgilə, onlara dəyim, iki saata gələcəm. Evə gedə bilmərəm. Dədəm canımı alar...

İndi 25 illiklərini qeyd edəcəklər. Dildə demək asan gəlir. Gör nə qədər zaman keçib. Qəzet üçün az sayıla bilər, amma öz yaşımdan baxanda hiss edirəm, əməllicə yaşlanmağa bəs edən bir zamandı. Biz yaşlanırıq, qəzet üçünsə cavanlıq yaşıdı bu.

**Biz qocaldıqca cavanlaşan "Yeni Müsavat", ad günün mübarək!!! Neçə 25 illərə!!! Bizli ya bizsiz, fərqi yoxdu, amma oxucun bol olsun!!! Nə yaxşı ki, çap olundun!!!**

# Ramil Usubov Bakı polisinin rəhbərini dəyişdi - başqa təyinatlar da var

## Paytaxt polisinə rəhbərlik Mirqafar Seyidova həvalə edildi, Rafiq Abbasov isə DİN-də yüksək vəzifəyə təyinat aldı



Mirqafar Seyidov



Rafiq Abbasov

**Son günlər daxili işlər naziri Ramil Usubov rəhbərlik etdiyi strukturda ciddi kadr dəyişikliklərinə başlayıb. Ötən həftə 2001-ci ildən daxili işlər nazirinin müavini olan polis general-leytenantı Əsgər Ələkbərov xidmətdə olmanın son yaş həddinə çatdığına görə təqaüdə göndərilib. Əsgər Ələkbərovun yerinə isə polis general-mayoru İsmət Əliyev təyin edilib. İsmət Əliyev 2009-cu ilədək DİN Baş Dövlət Yol Polisi İdarəsinin rəis müavini vəzifəsində çalışıb. Həmin ilin mayında Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinin rəisi vəzifəsinə gətirilib.**

Noyabrın 4-də isə nazir daha bir neçə təyinata imza atıb. Belə ki, Bakı Şəhər Baş Polis İdarəsinin rəisi general-mayor Rafiq Abbasov vəzifəsindən azad edilib. Nazirin digər əmri ilə R. Abbasov DİN-in vakant qalmış Baş Kadrlar İdarəsinin rəisi vəzifəsinə təyin edilib. Bakı polisinə rəhbərlik isə Baş Cinayətkarlıqla Mübarizə İdarəsinin (BCQMİ) rəisi general-mayor Mirqafar Seyidova həvalə edilib. Quba Rayon Polis Şöbəsinin rəisi Seyfulla Əzimov isə Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin rəisi təyin olunub.

Nazirin təyinatında xüsusilə diqqət çəkən şəhər polis rəisinin dəyişdirilməsidir. R. Abbasov 1985-ci ildən daxili işlər orqanlarında xidmət edir. O, 2002-2004-cü illərdə Zaqatala RPŞ-nin, 2004-2006-cı illərdə Lənkəran ŞRPŞ-nin rəisi, 2006-2007-ci illərdə DİN-in İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin rəisi vəzifələrində çalışıb. R.Abbasov 2007-ci ilin noyabrından Bakı Şəhər Baş Polis İdarəsinin rəisi vəzifəsində işləyirdi. Məlumatlara görə, R.Abbasov Milli Məclisin vitse-spikeri Ziyafət Əsgərovun bacanağıdır.

Mirqafar Seyidov isə 1989-cu ilin oktyabr ayından daxili işlər orqanlarında xidmətə başlayıb. 54 yaşlı M.Seyidov hüquq-mühafizə sisteminin ən təcrübəli kadrlarından sayılır.

Qeyd edək ki, bir neçə gün əvvəl Ramil Usubov polis idarə və şöbə rəislərinin iştirakı ilə geniş tərkibli iclas keçirib. KİV-lərdə yayılan xəbərlərə görə, iclasda əsas mövzu ölkə ərazisində cinayətkarlığa qarşı mübarizənin aparılması, mülkiyyət əleyhinə və narkotiklərlə bağlı cinayətlərin açılması olub. Hesabatları dinləyən və incələmələr aparan nazir bəzi polis idarə və şöbələrinin fəaliyyətindən razı qalmadığını ən sərt şəkildə ifadə edib (axar.az). Daha sonra isə işinin öhdəsindən layiqincə gəlməyənlər barədə nazir əmr imzalayıb. Nazirin müvafiq əmri ilə cinayətkarlığa qarşı mübarizədə peşəkarlıq baxımından qaneedici olmayan vəzifəli şəxslər ağır şəkildə cəzalandırılıb, onlardan bəziləri vəzifədən azad edilib, bəzilərinə isə töhmət və şiddətli töhmət verilib.

Nazirin təyinatlarının təhlili onu göstərir ki, DİN rəhbəri kadr siyasətinə ciddi önəm verir. Əsgər Ələkbərovun yerinə DİN-in Kadrlar İdarəsinin rəisinin təyin edilməsi də buna sübut ola bilər. Rafiq Abbasov polisdə peşəkarlardan sayılır və onun DİN-də əhəmiyyətli postlardan olan Kadrlar İdarəsinə rəis aparılması vəzifə yüksəlişidir.

M.Seyidov daxili işlər nazirinin ən inanılmış kadrlarından biridir. Sərt idarəçiliyi ilə tanınan M.Seyidovun Bakı polisinə gətirilməsi paytaxtda cinayətkarlıqla mübarizənin səviyyəsinin arzuedilən olmadığı barədə məlumatları təsdiqləyir. Görünür, nazir indiki vəziyyətdə paytaxta daha sərt nizam-intizama malik bir generalın təyinatını daha məqsədəuyğun hesab edib.

Yazıdakı məlumatlar DİN mətbuat xidməti tərəfindən təsdiqlənib.

❑ **Xəbər xidməti**

YENİ MÜSAVAT
N 272 (5981) 5 noyabr 2014

# Azərbaycan Aşuranı qeyd etdi

## Kərbəla olaylarının növbəti ildönümü münasibətilə minlərlə insan məscidlərə və ziyarətgahlara axışdı; qanvermə aksiyasına qoşuldu





**Noyabrın 4-də Azərbaycanda Aşura qeyd olunub. Aşura - Hicri təqviminin ilk ayı olan Məhərrəm ayının 10-cu günüdür. Hicri təqvimi ilə 61-ci ilin həmin günündə (miladi təqvimlə 680-ci il) Həzrət Məhəmməd Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseyn (ə) öz yaxın qohumları və silahdaşları ilə Kərbəla səhrasında faciəli surətdə qətlə yetirilib. Bu münasibətlə hər il dünya müsəlmanları, Aşura günü matəm mərasimi keçirir, Kərbəla şəhidlərini yad edirlər.**

Azərbaycanda da hər il olduğu kimi bu il də Aşura mərasimi qeyd olunub. Ölkənin əksər bölgələrində, o cümlədən paytaxt Bakının məscidlərində əzadarlıq mərasimləri ilə yanaşı, ənənəvi olaraq, qanvermə aksiyaları da təşkil olunub.

Son illərin ənənəsinə uyğun olaraq Aşura günü qanvermə aksiyası keçirilib. Səhiyyə Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsi qana ehtiyacı olan xəstələrə yardım məqsədi ilə könüllü qanvermə aksiyası keçirib. Daha əvvəldən də elan olunduğu kimi, Bakıda "Təzəpir", "Bibiheybət", "Mir-Möhsüm ağa", "Qaraçuxur", "İçərişəhər Cümə", "Hacı Soltanəli", "Əjdərbəy", Keşlə qəsəbə məscidlərində, həmçinin Sumqayıt şəhər "Cümə" məscidində, Gəncə şəhər "İmamzadə" məscidində, Lənkəran şəhər "Böyükbazar" məscidində, Mingəçevir şəhər "Heydər" məscidində, Şəki şəhər məscidində və Bərdə şəhər Cümə məscidində qanvermə təşkil olunub. Tədarük olunan qan hemofiliyalı və talassemiyalı, həmçinin digər xəstələrin müalicəsində istifadə ediləcəkdir.

**Hər il olduğu kimi, bu ildə "Təzəpir" məscidində təşkil olunan qanvermə aksiyasında Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadə də iştirak edib, qan verib. İmam Hüseyninin (ə) şəhadəti münasibəti ilə müsəlmanlara başsağlığı verən Şeyxülislam dindarlara çağırış edərək radikal dini qruplara qarşı mübarizədə dövlətə dəstək verməyə çağırıb:** "Bu gün Azərbaycanda din xadimləri ölkəni ekstremistlərdən, radikal qüvvələrdən qorumaq üçün dövlətlə əməkdaşlıq etməli, dəstək verməlidirlər".

**O qeyd edib ki, din xadimləri bu yolda ictimaiyyətlə birgə hərəkət etməlidirlər:** "Din xadimləri olaraq biz ictimaiyyətlə bahəm dövlətimizin siyasətinə dəstək verməli, radikalizmə qarşı mübarizə aparmalıyıq".

Şeyx ermənilər tərəfindən girov götürülmüş azərbaycanlılar Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunması bağlı məsələni qaldıracağını deyib. QMİ sədri bildirib ki, bu yaxınlarda Moskvada Rusiyanın patriarxı ilə görüşündə də bu məsələ müzakirə olunub və yaxın zamanlarda gözlənilən erməni katolikosu II Qareginlə görüşündə bu, birinci məsələ kimi qaldırılacaq.

**A.Paşazadə qeyd edib ki, bu məsələ ilə bağlı ən düzgün addımları müdafiə və hüquq-mühafizə orqanları ata bilər:** "Biz daima dövlətin yanındayıq və bu məsələdə nə lazımdırsa, o addımı ata bilərik. İmkan daxilində də əlimizdən gələni edəcəyik".





Qeyd edək ki, Aşura münasibətilə "Təzəpir" məscidində təşkil olunan qanvermə aksiyasında Dini Qurumlarla İş üzə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Yeni Azərbaycan Partiyasının funksioneri Siyavuş Novruzov da iştirak edib.

Şeyxülislam Aşura günü bəzi məscidlərdə zəncir vurulmasına da münasibət bildirib. APA-nın məlumatına görə, Şeyxülislam bildirib ki, bu məsələ ilə bağlı fətva əmr deyil, tövsiyə xarakterlidir və əgər kimsə yenə özünü zəncirlə döyürsə, ona zorla müdaxilə edə bilməzlər.

**Şeyx qeyd edib ki, fətvasında zəncir vurmanın düzgün olmamasını insanlara tövsiyə ilə çatdırıb, etməmələrini məsləhət görüb:** "Bizim borcumuz bununla bağlı maarifləndirmə işi aparmaq, zəncir vurmanın dini baxımdan məqbul olmadığını izah etməkdir. Amma biz bunu yalnız tövsiyə edə bilərik. Onu da başa düşürük ki, belə halı birdəfəlik yığışdırmaq mümkün deyil. Yəqin ki, zaman keçdikcə bu istiqamətdə də müsbət nəticələrə nail olacağıq".

Azərbaycanda son illərdə məscidlərdə başyarma, zəncir vurma halları olmasa da, yalnız bir neçə məsciddə zəncir vurma halları qeydə alınır.

Qeyd edək ki, uzun illər yaşadılan ənənəyə uyğun olaraq bu il də Aşura günü səhər saatlarından başlayaraq insanlar yaşadıqları ərazilərdəki məscidlərə, ziyarətgahlara üz tutublar. Əməkdaşımızın verdiyi məlumata görə, "Təzəpir" məscidinə gedən yollarda səhər saatlarından başlayaraq nəqliyyatın hərəkəti qismən məhdudlaşdırılıb, yollarda polis keşik çəkib. Məscidə gedən yol polislər tərəfindən avtomobillər üçün qapadılıb. Yalnız piyadalar bu yoldan istifadə edə bilib.

Eyni vəziyyət digər məscidlərdə də olub. Əhali sıxlığı səbəbindən məscidlərə gedən yollar qapadılıb. Ənənəvi olaraq məscidlərdə əzadarlıq məclisləri təşkil olunub. Çoxlu sayda insan isə qanvermə aksiyasına qatılıb. Bundan başqa, şəhərin bir sıra küçələrində, metro stansiyalarının qarşısında, məscidlərin ətrafında ehsan süfrələri açılıb, gəlib gedənlərə şirniyyat, çay ehsan edilib. Yağış yağmasına və havanın soyuqluğuna baxmayaraq məscidlərin həyətində, hətta yollarda böyük izdiham toplanıb.

**Əməkdaşımızın yazdığı qeydlərdən belə məlum olur ki, "Təzəpir" məscidinin içində yer az olduğu üçün növbələr yaranıb. Məscidin içinə daxil olmaq üçün ayaqqabılar xüsusi sellofanlara qoyulub. İçəridə olan hər kəs əyləşərək əzadarlıq edir, moizəni və mərsiyəni dinləyib, sinə döyüb. "Təzəpir" məscidində zəncir vuran gənclərdən biri əməkdaşımıza bu hərəkəti adət kimi təqdim edib:** "Aşura günü Allah bütün müsəlmanlara qüvvət və güc verir. Acılara dözürük. Bu bizim dini adətimizdir. Kiməsə zəncir vurmayın deyə bilmərik. Bizim acımız bir neçə saatlıqdır. Ən çoxu bir az kürəyimiz ağrıyacaq, qızaracaq. Sonra da keçib gedəcək. Bu, imam Hüseynin əzabları yanında nədir ki?"

Ötən gün paytaxt Bakı ilə yanaşı, bölgələrdə, o cümlədən Sumqayıt şəhər "Cümə" məscidində, "Corat", "Katej" qəsəbəsində yerləşən "İmam Sadiq", "İslam" və "Köhnə Corat" məscidlərinin hər birində izdihamlı Aşura tədbirləri keçirilib.

Ölkənin ikinci şəhəri Gəncədə də bir gün əvvəl "Şah Abbas" məscidində dindarlarla polis arasında qarşıdurma olsa da, Aşura günü sakit keçib. Faktxəbər saytının məlumatına görə, İmamzadə dini-memarlıq kompleksində ziyarətgahın ətrafında Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən 34 ehsan çadırları qurulub. İmamzadəyə gedən yollarda tıxacların yaranmaması üçün şəxsi avtomobil vasitələrinin hərəkəti məhdudlaşdırılıb. DYP əməkdaşları tərəfindən yollarda sürücülər bu haqda məlumatlandırılıb. Şəhərin Üzeyir Hacıbəyov, Keçid küçələri, İmamzadə Kompleksi istiqamətində piyadaların təhlükəsizliyi üçün şəxsi avtomobillərə məhdudiyyətlər tətbiq olunub.

❑ **Kənan RÖVŞƏNOĞLU, Məhəmməd TÜRKMƏN**
**Fotolar M.Türkmənindir**

# DİN-dən Aşura ilə bağlı təxribat xəbərlərinə reaksiya

## Ehsan Zahidov: "İnsanlar tam sərbəst və təhlükəsizlik şəraitində öz dini ayinlərinin icrası ilə məşğul olurlar..."



Ehsan Zahidov

**Noyabrın 4-də keçirilən Aşura günündə qarşıdurmalara yol aça biləcək xəbərlər aldıq. Məlumdur ki, bu tarix İslam peyğəmbərinin (s) sevimli nəvəsinin Kərbəla çölündə qətlə yetirilməsinin növbəti ildönümü günü olmaqla şiə məzhəbinə tapınan insanlar tərəfindən dünyanın, eləcə də ölkəmizin hər guşəsində faciəvi gün kimi qeyd edilir.**

Belə bir həssas gündə sosial şəbəkələrdə "Əbubəkr" məscidinin imamı Hacı Qamət Süleymanovla sual-cavabın skrinşotu yayıldı. Həmin sual cavabdan belə aydın olurdu ki, Q.Süleymanov Yezidi haqlı sayır.

Həmin xəbər belə idi: "Abubakr-mescidi.com saytının forumunda bir istifadəçi "Qamət qardaş Hüseyn (r.a) yezidin davasında haqlı kim idi sizin fikrinizcə" sualını verib. Cavabda isə bildirilib ki, "Haqlı Yezid idi, çünki o artıq xəlifə idi və ümmətin əksər hissəsi, hətta böyük səhabələr ona biət eləmişdilər".

Digər xəbərdə isə bildirilirdi ki, Sabirabad rayonunun Minbaşı kəndində dini zəmində təxribat hadisəsi törədilib. Bir dəstə vəhhabi (sələfi) təriqətindən olan şəxs kənddəki məscidə hücum edərək Aşura mərasimini pozublar və məscidin avadanlıqlarını dağıdıblar. Təxribatçılara müqavimət göstərənlərlə onların arasında qarşıdurma, dava-dalaş olub. Hadisə yerinə hüquq-mühafizə orqanlarının işçiləri cəlb edilib. Xəbərdə o da deyilirdi ki, sözügedən məscidə vəhhabilər 1 ay əvvəl də hücum çəkiblər və yerli dini icmanı oradan çıxarmağa cəhd göstəriblər.

**"Yeni Müsavat" əməkdaşı Sabirabadın Minbaşı kəndində belə bir olayın baş verib-vermədiyini öyrənmək üçün Daxili İşlər Nazirliyinin mətbuat xidməti ilə əlaqə saxlayıb. Xidmətin rəis müavini Ehsan Zahidov sorğumuza belə cavab verib:** "Birmənalı olaraq bildirirəm ki, Sabirabadda, eləcə də digər şəhər və rayonlarda kriminogen duruma təsir edə biləcək kobud qayda pozuntusu qeydə alınmayıb. İnsanlar tam sərbəst və təhlükəsizlik şəraitində öz dini ayinlərinin icrası ilə məşğul olurlar. Məscidlər və ziyarətgahların yerləşdiyi ərazilərdə polis əməkdaşları gücləndirilmiş iş rejimində ictimai təhlükəsizliyi təmin edir".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 272 (5981) 5 noyabr 2014

# Keçmiş vergi müfəttişinin viran qoyduğu rayon

**1 iyul 2014-cü ildən etibarən Binəqədi rayonu ərazisində mərhələli şəkildə “Təmiz Binəqədi” layihəsinin həyata keçirilməsinə başlanılıb. Layihənin həyata keçirilməsi ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə Tədbirlər Planı təsdiq edilib və Tədbirlər Planının icrasını təmin etmək məqsədilə müvafiq komissiya yaradılıb.**




# Xələddin İsgəndərovun yalanı və talanı necə ifşa olundu

İcra başçısının “Təmiz Binəqədi” layihəsini və bu layihənin altında gizlədilən biabırçılığı təbiət asanlıqla üzə çıxardı; paytaxta yağan bir neçə saatlıq yağış Binəqədinin “novator” rəhbərini “islatdı” və onun yol verdiyi korrupsiyanı küçələrdə göllləndirdi; dövlətdən oğurlanan milyonlar qazon əkilməsinə, hasar tikilməsinə və rəngsazlıq işlərinə həsr olunubmuş

Bunun ardınca sözügedən rayonun ərazisində vizual olaraq xeyli tədbir keçirilib. Yeni asfaltlar, zibil yeşiklərinin rənglənməsi, yaşıllıqların artırılması... Rayon icra hakimiyyətinin rəsmi saytında da bu tədbirlər 2015-ci ildə Birinci Avropa Olimpiya Oyunlarının Bakıda keçirilməsinə hazırlıq işi kimi qələmə verilib. Layihənin təbliğatı isə demək olar ki, 5 aydır milli telekanallarda, rəsmi saytlarda gen-bol yer alır...

Və... noyabrın 2-dən etibarən başlayan leysan yağışlar bu layihəni də suya batırdı. Hazırda Binəqədinin əksər küçələri yağışa təslim olub, sosial şəbəkələrdə bununla bağlı yüzlərlə foto yer alıb. Bu isə “Təmiz Binəqədi”nin yarıtmaz kanalizasiya sistemi, bərbad asfaltının... olması barədə fikirləri möhkəmləndirdi. Yaxşı, bəs bu cür ciddi paraların dövr etdiyi layihənin fiaskoya uğramasının səbəbi nədir? Harda, hansı yeyintilər baş verib?

**İqtisadçı ekspert Rövşən Ağayev mövzunu “Yeni Müsavat”a şərh edərkən bildirdi ki, əslinə qalanda, bu, indiyə qədər Azərbaycanda rast gəlinən ənənəvi halların tərkib hissəsidir:** “Siz bilirsiniz ki, hökumət səviyyəsində aparılan bir çox layihələr uğursuz olur. Səbəb odur ki, birincisi, ciddi nəzarət mexanizmləri olmur. Hər hansı layihə uğursuz olanda media, vətəndaş cəmiyyəti bunun hesabatını soruşur, ictimailəşdirir. Azərbaycanda isə ictimai nəzarətsizlik mühitidir. Belə bir məsuliyyətsiz şəraitdə həyata keçirilən layihələrdən uğur əmsalı gözləmək mümkün deyil”.

**Müsahibimizin sözlərinə görə, bir başqa problem də bu sayaq layihələrə ciddi dövlət nəzarətinin olmamasıdır. R.Ağayev dedi ki, hər hansı qurum belə layihə həyata keçirəndə qarşısına vəzifələr qoyur. Bunlar həmin rayonda su, kanalizasiya xətlərinin təmiri, tıxacın aradan qaldırılması, yaşıllığın artırılacağı ilə bağlı ola bilir:** “Və son nəticədə bunların heç biri həyata keçmirsə, dövlət nəzarətinin nəticəsi özünü göstərməlidir. Məsələn, hüquq-mühafizə orqanları bundan nəticə çıxarıb, yeyintiyə yol verən qurumun səlahiyyətli şəxslərini cəzalandırmalıdır. Hesablama Palatası, Vergilər Nazirliyi də həmçinin üzərinə düşəni etməlidir. Amma Azərbaycanda bu cür adamlar siyasi hakimiyyət tərəfindən himayə olunur. Ayrılan vəsaitlər qapalı şəraitdə xərclənir. Məsələn, kanalizasiya xətləri çəkirlər. Məlum olur ki, doğru çəkilməyib. Bir yağışdan sonra bu xətlər suyu qəbul etmir”.

**R.Ağayev dedi ki, konkret “Təmiz Binəqədi” layihəsinə ayrılan vəsaitlə bağlı məlumatlar şəffaf deyil. Onun sözlərinə görə, Avropa Oyunlara ayrılan vəsaitlər göz qabağındadır:** “2013-2014-cü illərdə olimpiya oyunlarına 2.3 milyard, 2015-ci il üçünsə 1.3 milyard manat ayrılıb. Ümumilikdə isə Avropa Oyunlarına 3.6 milyard manat nəzərdə tutulub. Hökumətin investisiya xərcləri mənbələrində göstərilmir ki, "Təmiz Binəqədi" layihəsinə nə qədər vəsait ayrılıb. O ölkələrdə ki, hökumət bu cür tədbirlərə öncədən hazırlaşır, hazırlıqları olur, onlar uğur qazanır. Xüsusi strateji maraqları olmayanda uğursuz olur. Nə “Eurovision” zamanı, nə də indi hökumətin xüsusi strateji planı yoxdur. Məsələn, 1992-ci ildəki olimpiya oyunları tədbirində Barselonanın konkret hədəfi var idi ki, ölkəyə gələn turistlərin sayını artırsın və planlaşdırdığı kimi də oldu. Amma Azərbaycanın belə hədəfi yoxdur. Korrupsiya maraqları olan yerdə qərarlar da qapalı verilir".

Xatırladaq ki, Binəqədi rayonunun icra başçısı Xaləddin İgəndərov bu posta Vergilər Nazirliyindən gətirilib. O, Vergilər Nazirliyində müxtəlif rəhbər postlar tutub. Sözügedən nazirlik Azərbaycanda ən çox korrupsiyaya uğrayan dövlət qurumlarındandır. Həmçinin sahibkarlığın məhv edilməsi istiqamətində VN-in qeyri-rəsmi xüsusi planı var. Bu qurum kiçik, orta və iri sahibkarları sözün əsl mənasında maliyyə terroruna məruz qoyur. İlk gündən deyilirdi ki, belə bir sistemdən çıxmış adamın Binəqədi kimi böyük sənaye rayonuna başçı gətirilməsi özünü doğrultmayacaq.

X.İsgəndərov 2012-ci ilin aprel ayından Binəqədi İH başçısı təyin olunub. Ötən iki il yarım müddətində Binəqədidə elə ciddi dəyişiklik baş verməyib. Düzdür, o, bu vəzifəyə təyin olunandan yolların kənarında yaşıllıq salınır, hasarlar tikilir, divarlar ağardılır, rənglənir və s. Amma rayonun infrastrukturunda, əhalinin güzəranının yaxşılaşmasında ciddi irəliləyiş yoxdur. “Yeni Müsavat” qəzetinin bir neçə əməkdaşı Binəqədi sakinləridir. Onlar daim rayon ərazisində suyun, elektrik enerjisinin və təbii qazın verilişində əvvəlki illərdə olduğu kimi problemlərin qaldığını vurğulayır. Demək, divarlara rəng vurmaqla, yol kənarına qazon əkməklə rayonun vəziyyətini düzəltmək olmurmuş. Belə çıxır ki, “Təmiz Binəqədi” layihəsinə sərf olunan dövlət vəsaiti əslində bir neçə məmurun cibinə axıb. O qədər axıb ki, həmin pulların yaratdığı korrupsiya hazırda Binəqədinin küçə və prospektlərində az qala adam boyu qədər olan gölməçələr yaradıb... Xaləddin İsgəndərov bu gölməçədə korrupsiya əməllərini yuya biləcəkmi, yoxsa o, elə həmin gölməçələrdə batıb qalacaqmı? Bunu yaxın zamanda görəcəyik.

❑ **Sevinc TELMANQIZI**

# Vasif Talıbovun həbsdəki qohumu prezidentdən kömək istədi

## Nicat Quliyevin vəkili sabiq nazirin günahsız olduğunu deyir

**2013-cü ilin avqust ayının 7-də həbs edilən Azərbaycanın sabiq xarici iqtisadi əlaqələr naziri əvəzi işləmiş Nicat Quliyevin vəkili Əfqan Məmmədov prezident İlham Əliyevə müraciət edib. Vəkil müraciətində yazır ki, N.Quliyevi yaşadığı evin yaxınlığındakı mağazada saxlayıb qollarına qandal vuraraq aparıblar. Sonra isə idarə etdiyi avtomobildən guya tapança tapıldığını iddia ediblər: “Bununla kifayətlənməyərək gecə saatlarında yaşadığı evdə iki balaca qızının və həyat yoldaşının tək olduqlarını bilə-bilə 30-a yaxın silahlı və maskalı şəxslər hasardan aşaraq evə basqın ediblər. Hətta onu da nəzərə almayıblar ki, bu həyətdə Azərbaycanın dövlətçiliyinin simvollarından biri olan Əhməd Cavadın nəvələri yaşayır”.**



Vəkil yazır ki, evdəkilərin həyətə nəzarət imkanının olmadığından sui-istifadə edərək ora bir silah atıblar:

“Nicat Quliyevin həbsinin əsl səbəbləri açıqlanmır. Lakin bunun əslində heç bir əhəmiyyəti də yoxdur. Biz, onun vəkilləri, hüquq müstəvisində Nicat Quliyevin həbsinin süni ittiham sübutları yaratmaqla davam etdirildiyini sübuta yetirmişik. Buna baxmayaraq, o, elan edilən ittihama görə nəzərdə tutulan cəzanın maksimum həddində 3 il azadlıqdan məhrum edilib.

Məsələnin ən dəhşətli tərəfi isə ondan ibarətdir ki, bu işin qurama olması heç kim üçün sirr deyil - nə ittiham tərəfinə, nə Nicat Quliyevin barəsində həbs qərarı vermiş hakimlərə, nə ictimaiyyət nümayəndələrinə, nə də ki işlə maraqlanan müstəqil hüquqşunaslara. Belə bir vəziyyətdə onun həbsinin davam etdirilməsi, özü də günahsız ola-ola davam etdirilməsi böyük haqsızlıqdır. Sizə müraciətimin səbəbi də hüquqi fəzada Nicat Quliyevin təqsirsizliyini təsdiq etməyin mümkünsüzlüyüdür. Yaranmış situasiyanın həlli yalnız sizdən asılıdır. Yalnız sizin müdaxilənizlə ədalətə nail olmaq mümkündür. Sizdən xahiş edirəm, Nicat Quliyevin azadlığa çıxması ilə qanunun aliliyinin, ədalətin, hüququn bərqərar olmasına yardım edin".

Xatırladaq ki, N.Quliyev Cinayət Məcəlləsinin 228.1-ci maddəsi qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı *(yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla),* partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə maddəsi ilə ittiham olunaraq 3 il müddətinə azadlıqdan məhrum edilib. N.Quliyev MTN-in keçirdiyi əməliyyat nəticəsində həbs edilib.

N. Quliyevin həbsi ötənilki prezident seçkiləri ərəfəsində onun Milli Şuranın bəzi rəhbərləri və qurumun o vaxtkı vahid namizədi Rüstəm İbrahimbəyovla əlaqələrinin, konkret olaraq telefon danışıqlarının təsbit olunması ilə izah edilirdi. R.İbrahimbəyov da çoxdan tanıdığı N. Quliyevlə bir-iki dəfə telefonla danışdığını təsdiq edib və bu həbsin siyasi motivli olduğunu deyib.

Qeyd edək ki, 1993-1995-ci illərdə xarici iqtisadi əlaqələr naziri vəzifəsini müvəqqəti icra edən N.Quliyev 2004-cü ilədək Acarıstan prezidenti Aslan Abaşidzenin müşaviri postunda da çalışıb. Onun xanımı isə himnimizin müəllifi Əhməd Cavadın nəvəsidir.

Türkiyə və Azərbaycanda bizneslə məşğul olan N.Quliyev 2005-ci il oktyabrın 19-da da müəmmalı şəkildə həbs edilmişdi. Onun dövlət çevrilişinə cəhddə iştirakı araşdırılıb. Amma sonda ona rəsmi olaraq yalnız polisə müqavimət ittihamı verilib. Az sonra da azadlığa buraxılıb.

Onun Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Vasif Talıbovla qohum olması barədə ziddiyyətli xəbərlər var. Bəzi mənbələr N.Quliyevin V.Talıbovla xalaoğlu olduğunu iddia edir. V.Talıbova yaxın KİV-lər isə bu xəbəri qismən təsdiqləyir. Həmin mənbələrin məlumatlarda deyilir ki, hər iki şəxs doğrudan da Şərur rayonunun Aralıq kəndindəndi. Nicat Quliyevin atası Əmir Quliyev Yevlaxda işləyib, ancaq o iddia edildiyi kimi heç vaxt DTK-da çalışmayıb. Əmir Quliyev həmin rayonda pambıq zavodunun direktoru olub. Vasif Talıbovla qohumluğa gəlincə, “Naxçıvan xanı” nın dayısı oğlunun Nicat Quliyevin qohumu ilə ailə həyatı qurduğu iddia olunur.

❑ **Xəbər xidməti**

YENİ MÜSAVAT
N 272 (5981) 5 noyabr 2014



Nəsib Nəsibli

# Professor Nəsib Nəsibli Müsavatdan niyə getdi - rəylər

**Sabiq millət vəkili, professor Nəsib Nəsibli Müsavat Partiyası sıralarından istefa verib. O, iki gün öncə partiya sıralarından çıxması ilə bağlı Müsavatın Xətai Rayon Təşkilatına ərizə ilə müraciət edib.**

Bu məlumatı Müsavatın digər keçmiş üzvü Xaləddin İbrahimli sosial şəbəkə vasitəsilə yayıb.

N.Nəsibli özü istefası barədə partiya rəhbərliyinə məlumat verdiyini bildirsə də, qərarının səbəblərini açıqlamayıb.

Müsavat Partiyasının Azərbaycanda bərpasında önəmli rolu olan, müsavatçılıq, Məhəmməd Əmin Rəsulzadə irsinin araşdırmaçılarından biri kimi tanınan N.Nəsibli 1991-1992-də AMDP "Yeni Müsavat" adlı təşkilata rəhbərlik edib. *(Bu təşkilat 1989-cu ilin oktyabrında 5 nəfər tərəfindən qurulub. Onlardan biri də Rauf Arifoğludur - E.P.)* Onun istefasına səbəb kimi partiyada cərəyan edən son proseslər göstərilir.

O, həmçinin Müsavat Partiyası Bərpa Mərkəzinin birinci katibi olub və AXC hakimiyyəti dövründə Azərbaycanın İran İslam Respublikasında səfiri olaraq çalışıb.

**N.Nəsiblinin istefasına partiyadan fərqli reaksiyalar gəlib. Müsavat başqanının müavini Gülağa Aslanlı APA-ya açıqlamasında N. Nəsiblinin istefasına münasibət bildirib. Onun sözlərinə görə, N. Nəsiblinin xeyli müddətdir partiya ilə heç bir əlaqəsi yoxdur:** "O, xeyli müddət idi ki, partiya ilə bağlı bütün məsələlərdə susurdu".

**"Nəsib Nəsibli indi istefa verir? Mən elə bilirəm 2010-da da istefa verib". Bunu aznews.az-a açıqlamasında Müsavat Partiyasının Divan üzvü, başqan müavini Səxavət Soltanlı deyib. O vurğulayıb ki, son 10 ildə Nəsib Nəsiblini bir dəfə də olsun Müsavat Partiyasında görməyib:** "Hətta mən onun çoxdan siyasətdən getdiyini bilirdim. Son 10 ildə mən Nəsib bəylə rastlaşmamışam".

**Müsavat başqanının müavini Nüşabə Sadıqlı "Qafqazinfo"ya açıqlamasında bildirib ki, Nəsib Nəsibli istefa verməsinin səbəbi barədə açıqlama verməyib:** "Mən insanları obyektiv qəbul etməyin tərəfdarıyam. İnsan var ki, uzun illərdir ki, bu yolu gedir, yorulur, əziyyət çəkir, nədənsə usanır. İstefa vermək hər kəsin haqqıdır. O cümlədən Nəsib müəllimin də istefa vermək haqqı var".

**Müsavat Qadınlar Təşkilatının sədri Ellada Məmmədli APA-ya açıqlamasında N. Nəsiblinin istefa verəcəyi barədə əvvəlcədən məlumatlı olduğunu, onun istefasına qurultay və başqanlıq seçkilərinin təsir etdiyini bildirib. E. Məmmədli qeyd edib ki, N. Nəsibli Müsavat Partiyasına Arif Hacılının başqan seçilməsini qəbul etməyib:** "Bizim aramızda qurultaydan sonra danışıq oldu. O bilirdi ki, partiyanın başına gələn şəxs Müsavatı məhv edəcək. Onun istefasının əsas səbəbi budur. O mənə dedi ki, qurultaydan sonra iki gün özünə gələ bilməyib. Mənə bildirdi ki, belə olan təqdirdə yəqin ki, partiyada qalmayacaq. Bir müddətdən sonra mənə yenə zəng vurdu. Xətai rayon təşkilatına istefa müraciəti göndərmək üçün məndən məsləhət istədi. Mən də gözləməsini xahiş etdim. Çalışdım ki, bir həftə gözlədim onu. O da buna əməl etdi. Ancaq bir həftədən sonra yenidən aramızda söhbət oldu və mən onu gözlətdiyim üçün üzr istədim. Mərkəzi Nəzarət-Təftiş Komissiyasının məlum rəyindən sonra o, dəyişən bir hadisənin baş vermədiyini görərək istefa verdi".

Nəsib Nəsibli özü isə "Yeni Müsavat"ın suallarının cavabında istefa qərarı verdiyini, ancaq bunun səbəbləri barədə hələlik mətbuatda hər hansı açıqlama ilə çıxış etmək niyyətində olmadığını bildirdi.

**Günün sonunda Müsavat Partiyasının başqanı Arif Hacılı da N.Nəsiblinin partiya üzvlüyündən istefa verməsinə münasibətini açıqlayıb. A.Hacılı APA-ya açıqlamasında N.Nəsiblinin partiyadan çıxmaq haqqında qərarına təəssüfləndiyini deyib:** "Nəsib Nəsiblinin partiya üzvlüyündən çıxması haqqında Xətai rayon təşkilatına ərizə göndərdiyi barədə mənə məlumat verilib. Nəsib Nəsibli Müsavat Partiyasının bərpa olunmasında və sonrakı fəaliyyətində xidmətləri olan şəxslərdən biridir. Onun partiyadan çıxmaq barədə qərar qəbul etməsinə görə təəssüf edirəm. Partiya üzvü olmasa da, Müsavat irsinə, milli ideologiyaya sadiq qalacağı qənaətindəyəm. Nəsib Nəsibliyə şəxsi həyatında və elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayıram".

"Nəsib bəyin təşkilatdan getməsinə mən çox üzülürəm, təəssüf edirəm. Eyni zamanda bildirirəm ki, Nəsib Nəsibli Müsavatın soyunda dayanan fiqurlardan biridir".

**Bu fikirlər isə "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğluna məxsusdur. Professorun istefası ilə bağlı mövqeyini bölüşən baş redaktor xatırlatdı ki, N.Nəsibli AMDP "Yeni Müsavat"ın, daha sonra isə Milli Müsavatın bərpayaqədərki dövründə rəhbər posta gətirilmiş Azərbaycanın dəyərli ziyalısıdır:** "O, istəsəydi həmin dövrdə Müsavat Partiyasına rəhbərliyi davam etdirərdi. Lakin Nəsib Nəsibli 1991-ci ildə bir şüar ortaya atdı : "Zəif Müsavatın rəhbəri olmaqdansa, güclü Müsavatın sıra nəfəri olmaq faydalı və şərəflidir". Onun bütün həyatı Müsavat adına həsr olunub. O baxımdan da indiyə qədər gördüyü bütün işlərə, o cümlədən Müsavatın Azərbaycanda yenidən bərpa prosesində göstərdiyi çox üstün və tarixi xidmətinə görə, Nəsib bəyə təşəkkür etmək lazımdır. Ümid edirəm ki, harda olsa, Azərbaycan və Müsavat üçün faydalı işlərlə məşğul olacaq". **R.Arifoğlu şübhə etmir ki, N.Nəsiblini bu addımına görə qınayanlar da olacaq:** "Nəsib Nəsibli kimi ziyalıların dəyəri hansı partiyada olması ilə ölçülmür. O, hara getməsindən asılı olmayaraq, əminəm ki, müsavatçı olaraq qalacaq". **Rauf bəy bir ilginc fakta da diqqət çəkdi:** "Müsavat Partiyasının Azərbaycanda bərpası prosesinə rəhbərlik edən heyət, AXC rəhbərliyi və "Yeni Müsavat" olaraq, 5+5 proporsiyası ilə müəyyənləşmişdi. AMDP "Yeni Müsavat"dan gələn "beşlik"dən indiki Müsavatda ikimiz qalmışdıq. Nəsib bəy də gedəndən sonra tək qaldım". R. Arifoğlu deyir ki, o da bundan belə harada olmasından asılı olmayaraq, özünü daim müsavatçı hesab edəcək.



**Rauf Arifoğlu:** "Müsavatın Azərbaycanda yenidən bərpa prosesində göstərdiyi çox üstün və tarixi fəaliyyətinə görə Nəsib bəyə təşəkkür etmək lazımdır"



**Arif Hacılı:** "Onun partiyadan çıxmaq barədə qərar qəbul etməsinə görə təəssüf edirəm"



**Ellada Məmmədli:** "O bilirdi ki, partiyanın başına gələn şəxs Müsavatı məhv edəcək"

❑ **Elşad PAŞASOY**

# Müsavatın rayon təşkilatlarının üzvləri birgə bəyanat yaydılar

## "Qurultaydan sonra bəzi partiya üzvlərinin seçkilərin nəticələrini şübhə altına alma cəhdlərini əsassız və partiya maraqlarına zərbə kimi qiymətləndiririk"

**Cəlilabad şəhərində Müsavat Partiyasının Biləsuvar, Masallı, Cəlilabad rayon təşkilatlarının iştirakı ilə keçirilən zona müşavirəsində iştirak edənlərin adından bəyanat qəbul edilib. Müsavat Partiyasından daxil olan bəyanatda bildirilir ki, müşavirə iştirakçıları bələdiyyə seçkilərinə rəsmi start verildiyini və partiya Məclisinin bələdiyyə seçkilərində iştirakının məqsədəuyğunluğu haqda qərarını əsas götürərək bu seçkilərdə partiya üzvlərini fəal iştirak etməyə çağırır. Eyni zamanda təəssüflə qeyd edilir ki, növbəti bələdiyyə seçkiləri də hakimiyyətin təyin etdiyi və indiyədək keçirilən seçkiləri saxtalaşdıran seçki komissiyaları tərəfindən həyata keçirilir.**

Bəyanatda müşavirə iştirakçıları Müsavat Partiyasının VIII Qurultayının yüksək səviyyədə baş tutduğunu, alternativ əsaslarla azad, ədalətli və demokratik seçkilərlə partiya başqanı, sərbəst Məclis üzvləri və MNTK üzvlərinin seçilməsini müsbət hal kimi qiymətləndiriblər: "Eyni zamanda partiya nizamnaməsində nəzərdə tutulan bir nəfərin ardıcıl iki dəfədən artıq partiya başqanı seçilməsini yasaqlayan müddəanı tətbiq etməklə, ölkədə fəaliyyət göstərən partiyalara *(o cümlədən hakimiyyətə)* örnək ola biləcək mütərəqqi ideya verib. Seçki Komissiyası başqanlığa namizədlərin irəli sürdükləri nümayəndələrdən paritet əsaslarla təşkil olunması, qurultayadək bütün namizədlərə təbliğatlarını qurmaq, partiya üzvləri ilə görüşmək üçün bərabər şərait yaradılması, xüsusilə qurultay günü səsvermənin keçirilməsi və səslərin sayılmasını aşkar şəkildə, media nümayəndələrinin müşahidəsi altında aparılması partiyanın uğuru və demokratik prinsiplərə sədaqətinin nümayişi kimi qiymətləndirilməlidir. Seçkilərin nəticələrini Seçki Komissiyası yekdilliklə təsdiq etmiş, yekun protokol komissiyanın bütün üzvləri tərəfindən imzalanıb. Bütün bunlara rəğmən qurultaydan sonra bəzi qurultay nümayəndələrinin və partiya üzvlərinin seçkilərin nəticələrini şübhə altına alma cəhdlərini əsassız və partiya maraqlarına ciddi zərbə kimi qiymətləndiririk. Biz hesab edirik ki, partiyadaxili demokratiyanın inkişaf etdirilməsi baxımından fikir plüralizminin olması təbii və çox vacibdir. Lakin bu imkanlardan qərəzli formada istifadə edib, guya partiyada ciddi problemlər olduğu görüntüsü yaratmaq cəhdlərinin yolverilməz olduğu və bu kimi cəhdlərin Müsavat Partiyasını, bütövlükdə demokratik düşərgənin maraqlarına deyil, daha çox hakimiyyətin maraqlarına uyğun olduğu qənaətindəyik".

Bəyanat müəllifləri sonda qeyd ediblər ki, partiyanın gücləndirilməsi, onun qarşıya qoyduğu əsas hədəflərə çatmasına yardımçı olmaq arzusunda olanların partiya strukturlarında təmsil olunması daha effektli və məqbul yoldur. Rayon təşkilatlarının üzvləri hamını bu söz-söhbətlərə son qoyub, Müsavat Partiyasının öz hədəflərinə çatması uğrunda mübarizəyə səfərbər olmağa çağırıblar.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 272 (5981) 5 noyabr 2014

# AXCP-nin sökülən qərargahının sahibindən Əli Kərimliyə heyrətamiz ittihamlar- satqınsan!

## Azər Əsgərov: "Mülkümlə bağlı mənə təklif olunan məbləği sənin aldığına əminəm"; mülkdə baş verən partlayışdan 9 ay ötür; partiya üzvləri isə hələ də Azər Əsgərovu sosial şəbəkələrdə təhqir edirlər

**AXCP-nin məlum qərargahının partlayışdan sonra sökülməsindən 9 ay ötür. Bu müddət ərzində mülk sahibinə dəyən ziyan ödənilməyib. Bundan əlavə, AXCP rəhbərliyi mülk sahibi Azər Əsgərovu hüquqları uğrunda mübarizədə tək qoyub.**

Üstəlik, Əli **Kərimli və partiyanı sərt tənqid etdiyinə görə Azər Əsgərov** sosial şəbəkələrdə AXCP üzvləri tərəfindən təhqir olunur. Bu barədə musavat.com-a müsahibə verən mülk sahibi Əli Kərimlinin ünvanına sərt ittihamlar səsləndirib. O bildirib ki, mülkünün sökülməsindən keçən 9 ay ərzində AXCP susqun mövqe nümayiş etdirir: "Bu gün mülkümün dağıdılmasının 9 ayı tamam olur. Bu müddət ərzində nə təzminat verdilər, nə də əşyalarımı qaytardılar. Məhkəmə prosesi yubadılır. Mənə acıq gələn odur ki, bu barədə nə "Azadlıq" qəzeti, nə də AXCP rəhbərliyi maraqlanmır. Belə görünür ki, mülkümün dağıdılmasında bunların hökumətlə bərabər əlləri olub. "Yeni Müsavat"a müsahibə verdiyimə görə qəzeti və məni hakimiyyətə satılmaqda ittiham edirlər. Mən daim "Yeni Müsavat"ı müxalifət qəzeti saymışam. Haqlı olduğuma əminəm. Mənə mesaj yazırlar ki, səni biz müdafiə etmişik, "Yeni Müsavat" heç zaman müdafiə etməyib. Hətta deyirlər ki, sizin qəzet guya məndən istifadə edir. "Yeni Müsavat" kollektivinə və rəhbərliyinə böyük hörmətim var. Olmasaydı, sizə müsahibə verməzdim. 4 aya yaxındır ki, AXCP, ümumiyyətlə, mənimlə maraqlanmayıb. Əvvəllər Gözəl Bayramlı zəng vururdu. İndi isə o da zəng vurmur. Hətta deyirlər ki, kirayə pulumuzu vermişik. Əli Kərimli, sənə 1 milyona da yer verməzdilər. Sən bu partiyanı nə ilə saxlayırsan? Hökumətdən pul alıb, partiya saxlayırsansa, səndən nə müxalifət lideri olar? Xarici dövlətlərdən pul alırsansa, demək, o dövlətlərə satılmısan. Məhz buna görə ətrafında olanlar günbəgün azalır. Əli Kərimli, sən meydanda tək qalacaqsan. Sizlər vəhşi insanlarsınız. Ağıllı adamlar AXCP-dən gedir. Mülkümü onlara verəndə gənclərdən Əbülfəz Qurbanlı adlı birisi var idi. Mənə deyirdi ki, mülkü qoruyacağıq. Nə bilim mühafizə təşkil edəcəyik. Amma partlayış olandan bir dəfə də üzünü görməmişəm. Partlayış nəticəsində mülkümə ciddi zərbə dəyməmişdi. Sadəcə, mən Türkiyədən gələnə kimi əlbir olub dağıtdılar. Öz əşyalarını apardılar. Mən isə heç nə götürə bilmədim. Mirzə Sakit düz deyir, bunlar qaniçən quldurlardır. Əsl cəbhəçilər tezliklə bunların sifətini görüb gedəcəklər".

**Mülk sahibi cəbhəçilər tərəfindən sosial şəbəkələrdə təhqir olunduğunu bildirib:** " İndiyə qədər çox nazirliyi tənqid etmişəm. Heç biri məni təhqir etməyib. Amma Əli Kərimlinin başında olan 5-10 nəfər xuliqan onun göstərişi ilə məni təhqir edir. Hətta yazırlar ki, bir də Əli Kərimlinin əleyhinə danışsan, səni öldürərik. Sən böyük partiyanın rəhbərisən. Sabah necə hakimiyyətə gələcəksən? Sizlər qorxmuş müxalifətsiniz. Sənə mülkümü vermişəm. Partlayış olanda sən harada idin? Niyə gəlmədin? Demək, sənin bu işdə barmağın var. Hakimiyyətlə əlbir olmusan. Mənə məlumatlar gəlir ki, maşınlarda mülkümü qorumaq üçün çoxlu sayda cəbhəçi gəlib. Hamısını geri qaytarıblar. Əli Kərimli, sən nə lidersən? Gəncləri ətrafına yığıb həyatlarını məhv etdirirsən. Mənə veriləcək təzminat barədə hansı beynəlxalq təşkilat qarşısında məsələ qaldırmısan? Hökumətə söz vermisən?"

**Azər Əsgərov mülkünün üzərindən Əli Kərimlinin özünə imic qazanmaq istədiyini də qeyd etdi:** "Əli bəy, sən beynəlxalq təşkilatlar qarşısında mülküm hesabına özünə imic yaratmaq istəyirsən. Buna nail olmayacaqsan. Başqa bir təşkilata versəm, indi sona qədər müdafiə olunmuşdum. Sizə verdiyim müsahibə çıxan kimi, AXCP üzvləri yenə məni söyməyə başlayacaqlar. O adamlara baxsaq görərik ki, 20-30 nəfərdilər. Hamısı Əli Kərimliyə yaxındılar. Həyat yoldaşım Türkiyədən yazmışdı ki, Əli Kərimli övladını xaricdə hansı pulla oxutdurur. Cəbhəçilər yoldaşıma qarşı da hücuma keçdilər. Kəmalə Bənəniyarlı məsələyə qarışandan sonra söyüşləri sildilər. Demək, bunlar bir mərkəzdən idarə olunur. Sizlər bir qrup adamsınız. Əli Kərimlinin uzaqbaşı ətrafında 50 nəfər qaragüruhçu adam var. Bununla neynəyəcəklər? Sən çürümüş, qoxumuş müxalifət rəhbərisən. 11 ay hakimiyyət rəhbərliyində olmusan. Bu ay ərzində nə qədər pul yığmısan ki, 22 ildir yeyib, qurtara bilmirsən. Hələ partiya da saxlayırsan. Bu dövlətə satılan sənsən. Xaricə işləyən agentsən. Əlimin zəhməti ilə ev tikmişəm. Səhv etdim ki, sənin kimi insana yer verdim. 9 aya bir qadın uşaq dünyaya gətirir. Sənin mülkümün söküntüsündə barmağın olub. Dövlətdən götürdüyün kreditləri yazırlar. Bunlara niyə cavab vermirsən? Yer kürəsində yeganə mülküm idi. Dövlət katibi olanda Azərbaycanda adına çoxlu sayda mülk keçirmisən. Vaxt gələcək ortaya çıxacaq. O mülklərdən birini partiyana ver. Niyə vermirsən? Səni xalq yaxşı tanıyır. 10-da mitinq təyin etmisən. Görək nə qədər adam gələcək. Keçirdiyin mitinqləri görürük. Sənin arxanca heç kim gəlməz. Müşavirlərin, rayon təşkilatların istefa verir. Yaxın adamlarına, cangüdənlərinə maaş verirsən. Bu pulları haradan alırsan? Özün bizə satqın deyirsən. Satqının ən yekəsi sənsən. Sabah hakimiyyətə gəlsən xalqa yox, qrant aldığın adamlara işləyəcəksən. Avqustun 6-da facebookumu bağlatmaq istədin. Mülkümlə bağlı mənə təklif olunan məbləği sənin aldığına əminəm".

Xatırladaq ki, uzun illərdir Türkiyədə yaşayan və sahibkarlıq fəaliyyəti ilə məşğul olan A.Əsgərov mülkünü AXCP-yə qərargah kimi icarəyə vermişdi. Partiya orada yerləşəndən bir neçə ay sonra binada partlayış baş verdi və bunun ardınca həmin mülk söküldü. Mülkiyyətinin sökülməsi ilə bağlı Türkiyədən Bakıya gələn Əsgərov uzun müddətdir ona dəyən ziyanın ödənilməsini tələb edir, ancaq indiyədək mülkünün sökülməsinə




**"Özün bizə satqın deyirsən; satqının ən yekəsi sənsən... Sabah hakimiyyətə gəlsən, xalqa yox, qrant aldığın adamlara işləyəcəksən"**

**"Əli Kərimli, sənə 1 milyona da yer verməzdilər. Sən bu partiyanı nə ilə saxlayırsan? Hökumətdən pul alıb, partiya saxlayırsansa, səndən nə müxalifət lideri olar? Xarici dövlətlərdən pul alırsansa, demək, o dövlətlərə satılmısan"**

**" İndiyə qədər çox nazirliyi tənqid etmişəm. Heç biri məni təhqir etməyib. Amma Əli Kərimlinin başında olan 5-10 nəfər xuliqan onun göstərişi ilə məni təhqir edir. Hətta yazırlar ki, birdə Əli Kərimlinin əleyhinə danışsan, səni öldürərik"**

# Bədbəxtlər arasında daha az bədbəxt



Samir SARI

**Yenə xoşbəxt və bədbəxt ölkələrin reytinq cədvəlini tərtib ediblər. İsveçrə bu dəfə də ən xoşbəxt ölkə seçilib. "Seçilib" deyəndə sorğular, analizlər, müxtəlif göstəricilər nəticəsində bu saatlar, şokoladlar, banklar ölkəsi birinci yerə çıxıb.**

Əslində çox təbiidir. Oxumuş adamlar deyirlər ki, insanın özünü xoşbəxt hesab eləməsi üçün zamanını dəqiq bilməsi, çoxlu şokolad yeməsi və əlinin pulla oynaması şərtdir. İsveçrədə isə bunların üçü də var və təkcə bunlar deyil.

Bir dəfə başqa bir beynəlxalq məşhur analitik mərkəz də elan etmişdi ki, dünyada 10 ən yaxşı, havası, suyu təmiz, sakit, yaşıllıqlı, təhlükəsiz şəhərdən dördü (Lozanna, Sürix, Cenevrə, Bern) İsveçrədədir. Orda yaşayan dostlar da deyirlər ki, İsveçrə gerçəkdən də yaxşı, yaşamalı ölkədir.

Düzdür, yazıçı Əli Əkbər arada bu ölkənin, sovet təbliğatçılarının təbirincə desək, sayrışan süni gözəlliklərinin arxasındakı mənfur kapitalizmin eybəcərliklərini də bir neçə abzasda göstərir, amma ümumilikdə götürsək, həmin o eybəcərliklər bu ölkənin xalqının özünü xoşbəxt hiss etməsinə mane olmur.

Açıqlanan reytinq cədvəlinə görə, İsveçrəylə yanaşı, ən xoşbəxt ölkələrin sırasında Yaponiya, Çin, Tayvan, Cənubi Koreya, Sinqapur, Malayziya və Tailand yer alır.

Çin və Tayvanın işi məlumdur, onların xoşbəxtliyi "kitayski" xoşbəxtlikdir. Çinlilər əmindirlər ki, partiya və hökumət onları xoşbəxt edib, cənnət görmək istəyən Çinə gəlsin, dünyanın xoşbəxti bizik dünyada və s. Amma nəyə görəsə hər il on-on beş milyon çinli xoşbəxtlik dalınca dünyanın dörd bir yanına səpələnir. Hətta gəlib Hacıqabula da çıxıblar, elə bilirlər ki, Pirsaatda, Rəncbərdə xoşbəxtlik aşıb-daşır.

Cənubi Koreyanı da anladıq. Bu ölkədə buraxılan əla və ucuz kondisionerin altında sərinləyən, qızınan, mükəmməl avtomobillərdə gəzən koreyalı özünü bədbəxt saymayacaq ki.

Sinqapur və Malayziya da eləcə. O ölkələri görüb, gəzib gələnlər ağır seyidlərin cəddinə and içirlər ki, kişilər Asiyada cənnət yaradıblar.

Bəs Tailand hardan gəlib xoşbəxt ölkələrin ilk onluğuna düşüb, bu, çox maraqlıdır. Ölkənin siz deyən sərvəti yoxdur, kasıb yerdir, siyasi durumu qeyri-qənaətbəxşdir, imici, reputasiyası nəinki regionda, hətta dünyada beşbetər gündədir. Məsələ ondadır ki, bu ölkəni bütün dünyada beynəlxalq statuslu fahişəxana kimi tanıyırlar və dünyanın hər yanından yanıqlar Tailanda axışır. Prinsipcə, bu ölkə bədbəxtlərin ilk onluğuna düşməliydi...

Bədbəxt ölkələrin reytinq cədvəlində isə aşağıdakı ölkələr ön yerdədirlər: Suriya, Venesuela, Sudan, İran, Ermənistan (10-cu).

Suriya heç, onun necə bədbəxt olduğunu dünya-aləm bilir. Sudan da eləcə. Bu ölkə adicə sudan da qıtlıq çəkir. Amma Venesuela o siyahıya necə düşüb? Benzinin litri bizim pulla 10 qəpik olan ölkədir və camaat öz güzəranından narazı deyil. Arada yığışıb karnaval-zad da təşkil edirlər. İran da onun kimi. Biz guya ki, daha xoşbəxt ölkənin vətəndaşlarıyıq, amma müalicə olunmağa "bədbəxt İran"a gedirik.

Ermənistanın hansı gündə olduğu barədə politoloq Mübariz Əhmədoğlu başda olmaqla danışanlar o qədər çoxdur ki, başqa sözə ehtiyac yoxdur. Bilirik ki, acından qırılırlar, Yerevan Gəncənin Kirovabad vaxtına oxşayır, iqtisadiyyatları çökür, vətəndaşlar kütləvi mühacirət edir, işsizlik tüğyan edir, heç liftləri də işləmir. Bir sözlə, bədbəxtçilik onları basıb.

İndi gələk öz xoşbəxt ölkəmizə. Biz 38-ci yerdəyik. Əgər siyahının 55-dən yuxarı hissəsində yer alan ölkələri xoşbəxt ölkələr saysaq, bu, o deməkdir ki, biz bədbəxtlərin cərgəsindəyik. İntəhası, Gürcüstandan yuxarıda, Rusiyadan aşağıdayıq.

Yəni biz çox yox, bir qədər az bədbəxt ölkəyik. Özümüzü yaxşı aparsaq, öz üzərimizdə işləsək, xoşbəxt ola bilərik.

Doğrusu, xoşbəxt ölkə olmağın reseptini bu tərəflərdə heç kəs bilmir. Saatımız çox dala qalır, şokolad buraxa bilmirik, pul-paramız da İsveçrə bankındadır. Arada bir karnaval ("Eurovision") keçirdik, onda bədbəxt qonşular üstümüzə tökülüb peşman elədilər.

YENİ MÜSAVAT
N 272 (5981) 5 noyabr 2014



# Astara bulvarı

Zamin HACI
zaminhaci@gmail.com

"Zümzümənlə şirin-şirin dillən, yağış.
Küçələrdə uşaq kimi vellən, yağış!
Bunlar keçər, çarpın, səma, köksüm kimi,
Ey ildırım, səs ver mənə, səsim kimi!
Yağ, ey yağış, fikrim kimi, hissim kimi"
**(Mikayıl Müşfiq, "Yağış yağarkən" şeirindən)**

**Son bir-iki gündə yağışlar Binəqədi rayonunda xüsusilə dözülməz vəziyyət yaratdı. Mən sosial şəbəkələrdə, internetdə fikir verdim: camaat rayonun bərbad yollarını, su basan məhəllələri əsasən "Təmiz Binəqədi" deyə lağa qoyurdu. Bu da onu göstərir ki, xalq yapistlərin boşboğaz layihələrinə inanmır, faydasız olduğunu yaxşı dərk edir. Doğrudan da, axı Binəqədi rayon icra hakimi Xaləddin müəllimin yol qırağına süni təpə, çəmənlik qayırması həmin yolun özünü düzəltməkdən vacib deyil. Bunu anlamaq üçün mütləq Siyavuş Novruzov qədər intellektual olmalısan?**

Eyni qayda ilə bu il prezidentin sərəncamı olmuşdu, Gürgan qəsəbəsinin adı dəyişilib nədənsə Gürgən edilmişdi. Nə oldu? Gürgən ağ günə çıxdımı? O qədər inkişaf eləmiş yerdir ki, hətta çoxumuz harda olduğunu bilmirik. Yaxşı haldır əslində - zənn edirsən harasa Sürix, Dublin, Oslo kimi yerdir. Adam az qalır Gürgənə mühacirət eləmək haqda əfv ərizəsi yazsın: "Nə olar, məni Gürgənə köçürdün! Söz verirəm, Zabrata çatanda əyiləcəyəm!"

Dünən internetdə bir foto da gördüm, açığı, çox əsəbləşdim. *(Mən nadir hallarda əsəbləşirəm, amma pis əsəbləşirəm, hörmətli oxucular bilirlər, ona görə çalışırlar yazılarımı sakitcə oxusunlar)*. Yalnız yüksək səviyyədə idiot şəxslər belə iş görə bilərdi. Təsəvvür edin, Astara şəhərinin Xəzər sahili çox gözəl, poetik dildə desək, kəhrəba qumlu bir zolaqdır. İndi yapistlər o qumlu sahilə kənardan yüz tonlarla daş, kəsək, beton daşıyıb qumların üstünü örtürlər. Bu səfeh fəaliyyətin mənası da o imiş ki, Astaraya Bakıdakı kimi bulvar düzəldirlər! Yaxşı, Bakını anladıq - dəniz neft, mazut, nəcis kimi zibillə doludur, bunu hasarlamasan, daşla örtməsən bulvara adam gəlməz, bəs Astaranın o cür təmiz sahilini betonlamaq nə anlam verir? Bəyəm dəniz hamamdır ki, onu kafel-metlaxla örtürsünüz?

Əlbəttə, yeganə təsəlli odur ki, bu idiotizm orda uzun müddət qalmayacaq, onsuz bir gün ana təbiət oyanacaq, Xəzərin suları o bulvarı yuyub cəhənnəmə təsvir edəcək, insanlar yenə qumluqda gəzişib dalğaların toxunuşundan həzz alacaqlar. Xaləddin müəllimin "Təmiz Binəqədi" proyekti kimi, Astara bulvarı da o zaman karikatura mövzularından biri olacaq.

Yaxşısı budur gülməli şeylərdən danışaq. Təzəlikcə hökumət saytlarından birində görürəm yazılıbdır: "Azərbaycanda yük avtomobilləri istehsalı 2108-ci ildə indikindən 33 faiz çox olacaqdır".

Bah. Adam lap fors eləmək istəyir, sanırsan yapistlər ölkəmizdə "Man", "KAMAZ", "Ford" zavodu-zad qurublar. Amma xəbərin içini oxuyanda görürsən söhbət təxminən eşşək arabasından gedir. Təsəvvür edin, burdakı 33 faiz artım nəyi nəzərdə tuturmuş: 2014-cü ildə Azərbaycanda 230 ədəd yük avtomobili istehsalı planlaşdırılıb, 2018-də isə maşın sayını 305-ə qaldıracaqlar!

Müqayisə üçün yalnız bir rəqəm yazacağam, oxucular da anekdotun mahiyyəti aydın olsun: Belarus dövlətinin təkcə "MAZ" zavodu il ərzində 21 mindən çox avtomobil, 4-5 min qoşqu, 1000-dən çox avtobus buraxır.

Yenə yapistyosunlu kimsə deyər ki, bizi Belarusla müqayisə etməyin, orda istehsal ənənəsi var. Məsələ ondadır ki, bizdə yük avtomobilləri də elə həmin "MAZ"-ın bazasında, Gəncədə yığılır, bu 200-300 maşın da mahiyyətcə bizlik deyil, bütün hissələri ordan-burdan gəlir. Hissələrini alıb yığdıqları avtomobil sayını artıra bilmirlər, 3-5 traktoru xalqın gözünə soxurlar, gəl gör bunlar özü maşın buraxsa neyləyər? Şübhəsiz, xalqı o maşınla ayaqlayarlar.

Sözümün canı odur ki, "Təmiz Binəqədi", "33 faiz artım", nə bilim, "Astara bulvarı" kimi anekdotlarla iş düzəlmir. Göydən yağış yağır - bunu unutmayın!

# Avropa Şurasının baş katibindən hakimiyyətə sərt tənqid

## Rəsmi Bakıdan cavab gəldi...

**Britaniyanın "The Guardian" qəzetində Avropa Şurasının baş katibi Torbyorn Yaqlandın Azərbaycanda insan haqlarının vəziyyətinə dair məqaləsi dərc olunub. "Azərbaycanda insan haqları: Bıçaq sümüyə dirənib. Birləşmiş Krallıq biganə qalmamalıdır" adlı məqalədə deyilir ki, Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsindəki 6 aylıq sədrliyi bu ay başa çatır və bundan sonra Azərbaycan sədrliyi Belçikaya ötürəcək.**

Müəllif yazır ki, 2012-ci ildə Azərbaycan paytaxtında "Eurovision" mahnı yarışmasının keçirildiyi vaxt olduğu kimi, ölkənin Nazirlər Komitəsindəki sədrliyi dövründə də QHT-lərə və fəallara Azərbaycanda insan haqları pozuntuları ilə bağlı çoxsaylı problemləri gündəmə gətirmək imkanı verib. "Bununla belə, Avropa Şurasının özünün bu pozuntulara müqaviməti barədə daha az məlumat verilib" - yazır cənab Jagland.

**AŞ baş katibinin sözlərinə görə, bu ayın əvvəllərində Avropa İnsan Haqları Məhkəməsi tanınmış müxalifət siyasətçisi və şərhçisi İlqar Məmmədovun həbsi ilə Avropa İnsan Haqları Konvensiyasının pozulduğu təsdiq olunub. Məqalədə deyilir ki, Azərbaycan hökumətinin bu işin məhkəmənin böyük palatasına keçirilməsi barədə ricası rədd edilib. Torbyorn Yaqland məqalədə həmçinin, xatırladır ki, AŞ-nin 47 üzvü üçün məhkəmənin qərarlarının icrası məcburidir və o şəxsən Azərbaycan hakimiyyətini Məmmədovuləngitmədən azad etməyə çağırıb:** "Belə kardinal məhkəmə qərarı Azərbaycan ədliyyəsində dərin kök salmış sistematik problemləri bir daha diqqət mərkəzinə gətirib".

Baş katib daha sonra qeyd edir ki, o, Azərbaycanda insan haqları müdafiəçilərinə qarşı bir neçə məhkəmə işini də nəzarətdə saxlayır və qurumun Bakıda böyük səfirlikləri olan üzv ölkələrindən bu məhkəmələri müşahidə etmələrini istəyib. Baş katibin yazdığına görə, Birləşmiş Krallıq bu ricaya artıq müsbət cavab verib. Cənab Torbyorn Yaqland bir daha xatırladıb ki, komissiyanın hüquqi tövsiyələri qlobal miqyasda tanınır: "Biz Azərbaycana ölkədə insan haqlarının bərbad vəziyyəti barədə dəfələrlə xəbərdarlıq etmişik".

**"Lakin ümid işığı da var" - yazır Yaqland:** "Üç həftə əvvəl Azərbaycan prezidenti İlham Əliyevin əfv etdiyi 80 məhbusun arasında 4 insan haqları fəalı var. Bu addım ABŞ və Avropa İttifaqı tərəfindən alqışlanıb". O qeyd edir ki, bu yaxınlarda prezident İlham Əliyevlə təmasda ola bilib. Bu, AŞ ekspertləri ilə Azərbaycan rəsmilərinin 2008-ci ildən bəri ilk görüşündə baş verib. Onun sözlərinə görə, bu qrup vətəndaş cəmiyyəti fəalı ilə Azərbaycan hakimiyyəti arasında yeni danışıqlar barədə təşəbbüslərdə bulunacaq və baş katib ümid edir ki, bu təmaslar daha çox fəalın azadlığa çıxmasına kömək edəcək.



**Torbyorn Yaqland:**
"Bıçaq sümüyə dirənib, Britaniya Azərbaycanda insan haqlarının durumuna biganə qalmamalıdır..."



**Əli Həsənov:**
"Avropadakı durumun səbəblərini ciddi araşdırmaq əvəzinə günahı gənc demokratiyaların üzərinə atmağa çalışmaq çox bəsit yanaşmadır..."

***

Rəsmi Bakı AŞ baş katibinin tənqidlərinə reaksiya verib. "Azərbaycan demokratik cəmiyyət quruculuğu sahəsində böyük inkişaf yolu keçib və bunu heç kim inkar edə bilməz. İstər demokratik cəmiyyət quruculuğu, insan hüquq və azadlıqlarının təmin edilməsi, istərsə də məhkəmə-hüquq sistemində demokratik islahatların həyata keçirilməsi baxımından Azərbaycan Avropa Şurasına üzv dövlətlərin heç birindən geri qalmır". Bunu "AzərTAc"a müsahibəsində **Prezidenti Administrasiyası İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov** deyib.

**"The Guardian"dakı məqalədə Azərbaycanda insan hüquqlarının vəziyyəti və məhkəmə sistemi haqda tənqidə münasibət bildirən Ə. Həsənov deyib ki, beynəlxalq standartlara uyğunlaşdırılmış Azərbaycan qanunvericiliyi vətəndaş cəmiyyətinin davamlı inkişafına, söz və məlumat, sərbəst toplaşmaq azadlığına, insan hüquqlarının səmərəli müdafiəsinə tam təminat verir:** "Bildiyiniz kimi, Azərbaycanda üç pilləli məhkəmə sistemi mövcuddur, ölkəmiz Avropa Şurasının üzvü kimi İnsan Haqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasına daxildir. Dünya təcrübəsinə nəzər salsaq, aydın görə bilərik ki, indiki zamanda bu, insan hüquqlarının müdafiəsini təmin edən ən mükəmməl mexanizmdir. Azərbaycan üzv olduğu bütün beynəlxalq təşkilatlarda, o cümlədən Avropa Şurasında aktiv fəaliyyəti, təşəbbüskarlığı, prinsipial mövqeyi ilə seçilir, qarşısında duran bütün vəzifələri, öhdəlikləri yerinə yetirir. Biz Avropa Şurasını xarici əlaqələrimizi inkişaf etdirmək, üzv dövlətlərlə səmərəli əməkdaşlıq yolu ilə mövcud potensialımızı daha da gücləndirmək, formalaşmış beynəlxalq münasibətlər sisteminin möhkəmlənməsinə töhfəmizi vermək, ümumavropa proseslərinin fəal iştirakçısı olmaq, həmçinin milli maraqlarımızı müdafiə etmək və haqq səsimizi dünya ictimaiyyətinə çatdırmaq istiqamətində platforma, tribuna kimi qiymətləndiririk. Haqlı olaraq həm Avropa Şurasının rəhbərliyindən, həm də üzv dövlətlərdən Azərbaycana qarşı adekvat münasibət gözləyirik".

**Ə.Həsənov daha sonra bildirib:** "Nə qədər məyusedici olsa da, bildirməliyəm ki, bir sıra hallarda Avropa Şurası da daxil olmaqla, bəzi nüfuzlu beynəlxalq qurumlar ayrı-ayrı qüvvələrin üzv ölkələrə təsir və təzyiq mexanizmi funksiyasını yerinə yetirirlər. Qondarma "siyasi məhbus" məsələsinin süni şəkildə qabardılması, əsassız, qeyri-obyektiv iddialarla Azərbaycanı ləkələmək cəhdləri həm Avropa Şurası çərçivəsində əməkdaşlıq mühitinə zərbə vurur, onu öz missiyasının icrasından yayındırır, həm də bu təşkilata olan etimadı sarsıdır. Hesab edirəm ki, Avropa Şurasının baş katibi Tarbyorn Yaqlandın məqaləsində əks olunmuş bəzi iddialar müəyyən anti-Azərbaycan qüvvələrin təsirinin nəticəsidir və heç bir əsası olmayan subyektiv mülahizələrdən başqa bir şey deyil".

**PA rəsmisi ardınca bildirib:** "Görünür, kənar qüvvələrin təzyiqi altında ayrı-ayrı üzvlərə təşkil olunan əsassız hücumlar, bütün çərçivələri aşan ikili standartlar, qərəzli iddialar Böyük Britaniya kimi demokratik ənənəyə malik bir ölkənin də Avropa Şurasına və Avropa Məhkəməsinə etimadını azaldıb ki, o, belə radikal addım atmaq niyyətini ortaya qoyub. Cənab Yaqland haqlı şəkildə bildirir ki, Avropada milli azlıqların hüquqlarının, ifadə azadlığının və məhkəmə sisteminin erroziyası müşahidə olunur. Həqiqətən də, Azərbaycan bir çox Avropa ölkələri ilə müqayisədə milli, dini və insan hüquqlarının müdafiəsi baxımından kifayət qədər tolerant ölkədir və bir növ model rolunda çıxış edə bilər. Hesab edirəm ki, Avropada mövcud durumun səbəblərini ciddi araşdırmaq əvəzinə günahı gənc demokratiyaların üzərinə atmağa çalışmaq çox bəsit və vəziyyəti daha da mürəkkəbləşdirən yanaşmadır. Cənab Yaqlandı bu problem üzərində daha dərindən düşünməyə dəvət edirik".

**❑ E.PAŞASOY**

## Putin Ukraynada Qərbə qarşı son və qəti savaşa başlayır

# Kreml qorxulu "Novorossiya" planını işə salır

### Donbasdakı qanunsuz seçkilər Moskvanın əlinə bölgəyə hərbi müdaxilə üçün "rəsmi" fürsət verib; Rusiya "Krım ssenarisi"ni daha sərt şəkildə təkrarlamaq əzmindədir; bəs Kiyev, ABŞ, Avropa? Çox gözləmək lazım gəlməyəcək...

**Qərbin bütün sərt xəbərdarlıqlarına və Kiyevin aktiv etirazlarına rəğmən, Putin noyabrın 2-də rusiyayönlü bandit dəstələrinin nəzarətindəki Dnetsk və Luqansk vilayətlərində başçıların və deputatların qanunsuz seçkilərini, hər halda, keçirdi. Bununla da Moskva və onun Ukraynanın cənub-şərqindəki silahlı muzdluları Minsk anlaşmasını tamamilə pozdular və situasiyanı təzədən hərbi qarşıdurmaya tərəf yönəltdilər.**



Bu seçkilərin legitimliyini Moskvanın tanımayacağı, yaxud onların yekunundan öz siyasi məqsədləri üçün istifadə etməyəcəyi ilə bağlı Qərbin və rəsmi Kiyevin ümidləri çətin ki, doğrulsun. Putin bütün bu "xörəyi" ona görə bişirməyib, seçkiləri ona görə təşkil etməyib ki, indi qəfildən üzünü çevirsin və kənara çəkilsin.

Rusiyanın XİN başçısı Sergey Lavrov artıq bəyan edib ki, Moskva Ukraynadakı parlament seçkiləri ilə birgə "DXR" və "LXR"dəki seçkilərin nəticələrini də tanımaq niyyətindədir. Və bu zaman nazir aşkar hiyləgərliklə və faktları təhrif edərək Moskvanın bu addımını "Minsk anlaşması"na tam uyğun kimi qiymətləndirib.

Beləcə, Rusiya noyabrın 2-dəki seçkilərinin yekunlarını operativ şəkildə tanıyıb. Bəs sonra?

Bizcə, ən maraqlısı, ziddiyyətlisi və təhlükəlisi də məhz bundan sonra başlayacaq. Məsələ ondadır ki, barışıq haqda Minsk anlaşması ilə Kremlin guya güzəştlərə getdiyini və Ukraynanın parçalanmasına yönəlik planlardan əl çəkdiyini, həmçinin də onun *(Qarabağ problemi kimi)* münaqişənin uzunmüddətli konservasiyasına hazır olduğunu güman edənlər çox tezliklə yanıldıqlarını anlayacaqlar.

İş ondadır ki, "Minsk barışığı" təkcə cəbhədə bir sıra hissediləcək məğlubiyyətlərə uğramış və üstəlik, növbədənkənar parlament seçkilərinə hazırlaşan Kiyevə lazım deyildi; həm də Moskvaya lazım idi ki, özünün əldən düşmüş bandit dəstələrini yeni silahlar və canlı qüvvə ilə möhkəmlətsin, həmçinin, "Novorosiya"da *("Yeni Rusiya")* seçkilər keçirib yeni imperiya planlarının növbəti fazasına ciddi hazırlaşın.

Moskvanın Ukraynaya münasibətdə indi yeni və qorxulu hərbi-siyasi planlar qurduğu və müharibənin təzə mərhələsinə hazırlaşdığını sübut edən bir sıra faktlar var. Məsələn, Rusiya Minsk anlaşmasına sadiqliyin nümayişi kimi və Qərbin sanksiyalarını yumşaltmaqdan ötrü öz qoşunlarını sərhəddən çəkəndən sonra "seçkilər" ərəfəsində "DXR" və "LXR"də yenidən ölkənin cənub-şərqini öz qoşunları tərəfindən sıx mühasirəyə alıb və ora intensiv şəkildə silah və canlı qüvvə atmağa başlayıb. Təsadüfi deyil ki, ABŞ-ın çox yaxşı məlumatlı mənbələri bugünlərdə Kremli sərt şəkildə xəbərdar edirlər ki, psevdoseçkilərdən o, bölgəyə qoşun yeritmək və gərginliyi daha da artırmaq üçün bəhanə qismində yararlanmasın. Analoji xəbərdarlıqlar Rusiyanın hərbi ritorikasından və davam edən hərbi təlimlərindən əndişə keçirən Avropadan səslənməkdədir.

Yeni təhlükəli müharibənin mümkünlüyünə bugünlərdə Nemtsov da işarə vurur. Siyasətçi hesab edir ki, Putin yarı yolda dayanmayacaq. O, bununla bağlı öz qənaətini Rusiyanın yeni, 800 milyardlıq hərbi büdcəsinin mövcudluğu ilə əsaslandırıb. Belədə məntiqli sual yaranır: Putin niyə məhz indi, Donbasdakı "seçkilər"dən sonra "Novorossiyanın anşlyüsü" kimi hansısa yeni ssenarini reallaşdırmaq istəyir?





**"Əgər situasiya Qərblə Rusiya arasında böyük müharibəyə gətirməsə, o zaman Putini Krımdan və "Novorossiya"dan yalnız hədələr və sanksiyalarla "vurub" çıxarmaq çətin ki, mümkün olsun..."**

Güman eləmək olar ki, bu "seçkilər"in əsas missiyası terrorçuların işğal elədiyi və nəzarətdə saxladığı həmin ərazilərə formal da olsa əhalisi tərəfindən seçilmiş rəhbərləri, hakimiyyət strukturları və deputatları olan hüquqi və legitim respublika görüntüsü verməkdir. O səbəbdən bu qanunsuz seçkilərə çoxlu vəsait xərclənib, müxtəlif ölkələrdən olan və haqqı ödənilmiş beynəlxalq müşahidəçilər dəvət edilib.

Yeni mərhələdə "Krım ssenarisi"ni reallaşdırmaqdan ötrü Kreml üçün çox vacib idi ki, öncə "DXR" və "LXR"i Krım statusuna qədər dartıb gətirsin - o Krım ki, orada, hər halda, adından referendum təşkil edilən və Rusiyaya birləşmək üçün müraciət qəbul olunan icra və qanunverici strukturlar mövcud idi. Donetsk və Luqanskda isə müharibə xaosu hakimiyyətin tam xaosuna gətirmişdi. Üstəlik, vilayətlərin əraziləri iki hissəyə - Kiyevin nəzarətinə qaytarılanlara və bandit dəstələrinin kontrolunda qalanlara bölünmüşdü.

Belə vəziyyətdə "Krım ssenarisi"nin baş tutması real görünmürdü və əraziyə hansısa formada qoşun yeridilməsini də hətta formal şəkildə belə yerli əhali və hakimiyyət orqanlarının iradəsi ilə əsaslandırmaq mümkün deyildi. Amma 2 noyabr "seçkiləri"ndən sonra Moskva "DXR" və "LXR"in seçilmiş başçıları və deputatlarının xahişlərinə "hay vermək" və Ukraynanın cənub-şərqində "Krım ssenarisi"nin hansısa sərt variantını həyata keçirmək üçün əlverişli fürsət əldə eləmiş olur.

Əslində Kremlin məkrli planı bayağılıq dərəcəsində sadədir və müxtəlif variasiyalarda dəfələrlə sınaqdan çıxarılıb *(Abxaziya, Cənubi Osetiya, Krım)*: "seçkilər"dən dərhal sonra haqqı qabaqcadan verilmiş beynəlxalq müşahidəçilərə istinadən bu seçkilərin demokratik və legitim olması barədə qulaqbatırıcı təbliğat gedəcək. Ardınca Moskva rəsmən nəticələri tanıyacaq və Kiyevi və bütün dünyanı da onları tanımağa çağıracaq. Daha sonra "DXR" və "LXR"in yeni seçilmiş "hakimiyyətləri" Rusiyaya onsuz da geniş açılmış qapılarını *(sərhədlərini)* bir az da geniş açacaq və Moskvadan rəsmən hərbi və başqa kömək istəyəcək. Yolüstü onlar Ukrayna qüvvələrini tutduqları ərazilərdən çıxarmağa aktiv cəhdlər edəcəklər və bununla da Kiyevi hər vəchlə müharibə təxribatına çəkməyə çalışacaqlar.

Nəzərə alanda ki, Ukrayna bu təxribatlara adekvat cavab verməyə məhkumdur, o zaman hərbi əməliyyatların bərpası yəqin ki, qaçılmaz olacaq. Və çox gözləmək lazım gəlməyəcək. Kiyev tərəfindən antiterror əməliyyatının başlanacağı təqdirdə "DXR" və "LXR" hakimiyyətləri rəsmən kömək üçün Moskvaya müraciət edəcəklər. Bu dəfə "oyuna" açıq şəkildə və bütün gücü ilə Rusiya qoşulacaq - öz qoşunlarını yetirməklə və "yeni rusiyalı qardaşları"nı "benderlər"dən qorumaq üçün. Yada salaq, bütün bunlar artıq Gürcüstanda sınaqdan keçirilib.

Ardınca təxminən belə olacaq: Rusiya qoşunları Ukrayna qüvvələrini geri oturdur və "Novorossiya" adlandırılan ərazi üzrə maksimum irəli gedib orada əsaslı şəkildə möhkəmlənir. Bundan sonra gündəliyə "Novorossiya"nın müstəqilliyi və ya Rusiyaya birləşdirilməsi haqda mümkün referendum ssenarisi gəlir. Eyni vaxtda Kreml Kiyevlə Qərbi sülhdən imtina edəcəkləri təqdirdə daha təhlükəli hərbi nəticələrə tuş gələcəkləri ilə şantaj edərək təzədən danışıqların təşəbbüskarı kimi çıxış edir. Görünür, Putin və Kreml qırğılarının "Novorossiya" anşlyüsü ilə bağlı qəsdi bundan ibarətdir.

Bəs Kiyev, ABŞ, Avropa? Onlar Moskvanın yeni ekspansiya faktı ilə barışacaqmı?

Aydındır ki - yox. Kiyev qeyri-bərabər mübarizəyə bütün resurslarını cəlb eləməklə inadla müqavimət göstərəcək. Qərb *(ABŞ, Avropa Birliyi və NATO)* özünün bütün hərbi gücünü döyüş hazırlığı vəziyyətinə gətirib yeni, qat-qat sərt sanksiyalar elan edəcək. Əgər situasiya Qərblə Rusiya arasında böyük müharibəyə gətirməsə, o zaman Putini Krımdan və "Novorossiya"dan yalnız hədələr və sanksiyalarla "vurub" çıxarmaq çətin ki, mümkün olsun. Daha dəqiqi, bu, yalnız Rusiyanın özündə Putin rejimi çökəndən və kütləvi velikoderjav yanğını baş qaldırandan sonra reallaşacaq. Bu isə çox tezliklə olmaya da bilər.

❑ **Ziyad QARAXANLI**

# Rus millətçiliyi...



**Hüseynbala SƏLİMOV**

**Rusiya mətbuatı tatarları millətçilikdə ittiham edir. Maraqlıdır, görən tatarlar buna nə ilə rəvac veriblər? Məlum olur ki, Kazanda tatarlar rus millətçilərinə "Rus marşı" keçirməyə icazə verməyiblər....**

Noyabrın 4-ü Rusiyada milli birlik günü idi. Ona görə də bir az əvvəldə yazdıqlarımız bu konteksdə bizə maraqlı göründü. Ümumiyyətlə isə Rusiya mövzusu bir neçə səbəbdən indi çox aktual görünür...

Məhz bu ölkənin təhriki ilə Ukraynanın Şərqində "seçkilər" keçirildi. Təbii ki, bu seçkiləri dünyanın heç bir sivil dövləti tanımayacaq...

Amma məsələ bunda deyil. Əgər bu gün rus müğənnisi, özü də sovetlər dövründə də yaşamış bir insan durub "Mənim ölkəm dəli olub!" deyirsə, bunu ciddi qəbul etmək lazımdır.

Əgər tanınmış siyasətçini Krımın ilhaqını pislədiyinə görə cinayət məsuliyyəti ilə hədələyirlərsə, bunu da ciddi qəbul etmək lazımdır...

Bu ölkənin tarixində çox şey olub ki, onlar müəyyən mənada ölkə əhalisinin indiki davranışını izah edir.

Tarixdə "rus milli ideyası" kimi konsepsiya olub və yenidənqurma illərində qartalın ikibaşlı olmasını zarafatla şəkil çəkilərkən onun başını tərpətməsi ilə izah etsələr də bu, məsələyə səthi yanaşma idi - qartal həqiqətən də ikibaşlı idi, biri Qərbə, digəri isə Şərqə baxırdı...

Alman siyasətçisi Konrad Adenauer haqqındakı kitabda maraqlı detala rast gəlmişdim. Bu mübariz alman öz millətinin beynindən onların əlahiddə millət olması haqda söylənilənləri silmək, əvəzində almanların da dünyadakı bütün millətlər kimi yaxşı və yaman keyfiyyətlərə malik olması haqdakı fikirləri öz həmvətənlilərinə aşılamaq istəyirdi...

Bu çox düzgün sosial diaqnoz idi. Faşist təbliğatı insanların beyinlərini korlamışdı, onları xəstə millətə çevirmişdi. Lider lazım idi ki, bunu görsün və öz millətini yenidən normal həyata, normal düşüncə tərzinə qaytarsın...

Elə orta statistik rusiyalı da müəyyən mənada təbliğatın qurbanı olub. Onların arasında bəlkə də elələri vardı ki, bir şüşə araq üçün hər şeyə hazır idilər. Amma bu adamların adını "böyük qardaş" qoymuş və onlara illərlə "rusların milli-etnik missiyası" kimi sosial cəfəngiyat aşılamışdılar.

Bəs onlar nə edirdi? Həmin bir şüşə arağı içir və bütün digər millətləri söyür, axırda da elə yolun qırağında yıxılıb yatırdılar...

Bir dəfə bir alman siyasətçisi də demişdi ki, onun ölkəsinin heç bir missiyası və ideyası yoxdur, biz yaxşıca işləmək və yaxşıca da istirahət etmək istəyirik...

Bu, çox düzgün yanaşma idi. Normal insan üçün həyat nə vaxt maraqlı olur? O vaxt ki, o, səhər işə tələsir, axşam da evə...

Yazının əvvəlində tatarlara hiddətlənən Rusiya mətbuatı haqqında yazdıq. Bəs bu adamlar özləri kimdir? Özləri də rus millətçiləridir. Bunun elə bir fərqi varmı? Təbii ki, yoxdur!

Dünyanın bütün millətçilərinin dedikləri və yazdıqları o qədər oxşar olur ki, siz, məsələn, Burkina-Faso millətçisinin dediyi şeylərə, çəkdiyi adlara dərhal Rusiya adları qoysanız təxminən rus millətçisinin manifesti alınar!

Onlar, dünyanın bütün millətçiləri eyni şeyləri deyirlər, eyni vurğuları edirlər.

Onların birinci "ideyası" özlərinin əlahiddə, seçilmiş millət olmaları haqqında deyilən sosial mifdir. İkinci "ideya"ları qüdrətli dövlət yaratmaq ideyasıdır və nəhayət, üçüncü "ideya"ları bütün dünyanı idarə etmək istəyidir...

Bütün millətçilər üçün sanki əvvəldən bir mətn yazılıb. Onlar sadəcə, bu mətni fərqli dillərdə oxuyurlar. Hətta auditoriyaları da eynidir. Millətçilərin toruna kimlər düşür? O, insanlar ki, həyatda özlərini reallaşdıra bilməyiblər, o insanlar ki, bu dünyada özlərini bir fərd kimi hiss edə bilmirlər, o insanlar ki, özlərini kütlə içində daha rahat hiss edirlər...

Təbii ki, milli haqlar olamılıdır. İnsan millətini sevməlidir. Ona görə ki, bu, müəyyən mənada özünü sevməkdir. Dərindən düşünəndə görürsən ki, millətçi adlananlar əksər hallarda öz millətlərini sevmirlər, onun haqqında təsəvvürlərində yaratdıqları obrazı sevirlər... Elə Rusiyanın öz tarixində də adamlar vardı ki, ona imperiyanı sevmək üçün Qafqaz dağlarının zirvəsindən aşağıya baxmaq kifayət idi...

Elə insanlar da vardı ki, bir rus şəhərindən digərinə səyahət edir, imperiyanın nə gündə olmasını və insanların necə ağır həyat yaşadıqlarını göstərirdi...

Qəsdən ad çəkmədik və iki rus yazıçı tipini göstərdik. Onlardan hansı millətini daha çox sevirdi?

200 il keçsə də orta statistik rusiyalı hələ də bu suala cavab verməyib...

YENİ MÜSAVAT
N 272 (5981) 5 noyabr 2014



# Rüşvətin gözəlliyi...

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Ölkəmizdə əmin-amanlıqdır, necə deyərlər, qurd quzu ilə bir yerdə sakit-səssiz, tam sülh şəraitində yaşayır... Amma qurdun quzunu parçalamadan necə yaşadığı, nədən acından ölmədiyi böyük sirr olaraq qalır...**

Əslində heç kim Azərbaycansayağı belə həyatdan baş çıxara bilməz. Nədən ki, bu ölkədə çox rüşvət alan adama heç kim dodaq büzmür, qarasıycan danışıb, söyüş söymür. Əksinə, "haqqını" alıb iş aşıran adamı toyda-yasda başa çəkirlər. Bax beləcə, oğrusu başda, doğrusu ayaqda əyləşən ölkədə qəmsiz-qayğısız yaşamağın da öz düsturu var. Məsələn, cəmi məmləkətin gözü önündə filan nazir milyonlarla pulu dədədən qalma miras kimi qatlayıb cibinə qoyur. O biri nazirimiz də bunu görüb ruhlanır, daha çox alır və daha böyük hörmət, izzət, nüfuz sahibi olur...

Bir də görürsən ki, filan rayonda, filan məmur birinə təqaüd təyin edəndə yaxalanıb, aldığı min manat da sübut-dəlil kimi götürülüb. Yazığımız gəlir, halına acıyırıq. Az aldığına görə yaxalandığına heyfsilənirik. Amma yeraltı sərvətlər nazirimizlə, yerüstü nemətlər nazirimiz bunu eşidəndə bir zərrə də narahatlıq hissi keçirmirlər: nədən ki, onlar açıq-aşkar taladıqlarını bütün məmləkətin gözü önündə daha böyük hökm sahibi ilə bölüşürlər. Odur ki, indi uşaq da bilir ki, təhlükəsiz dövran sürməyin bircə yolu var, çox al, özündən böyüyün haqqını vaxtlı-vaxtında ödə və şad-xürrəm yaşa...

Bizim sərhədlərimizdən o yana cəmi müsəlmanların başı bir-biri ilə savaşa qatışıb. Hər gün davadı, hər yerdə qan tökülür. Min şükürlər olsun ki, biz bu qovğalardan, qandan-xətadan uzağıq. Bu o demək deyil ki, bizim heç bir qəmimiz-qayğımız yoxdur. Var, cəmi müsəlmanlar kimi biz də yaxşıya sevilir, pisliklərin aradan götürülməyi üçün allaha dua edirik...

Ən böyük qayğımız da ondan ibarətdir ki, ölkəmizdə çox ciddi kadr çatışmazlığı yaşanır. Əlbəttə, elə nazirlərimiz var ki, vəzifəyə təyin olanda qara telli, cavan oğlan idi. İndi vəzifə başında qocalıb, beli bükülüb, dişi tökülüb, şəkəri artıb, üz-dörd dəfə infarkt, insult keçirib. Gərəkdir ki, elə onun kimi almağı, verməyi, bölməyi bacaran başqa birisi yerinə təyin edilsin. Əşi insanın da pisini yaxşısından ayırmaq olmur - baxırsan, ağıllı, savadlı oğlandır... Di gəl ki, almağı bacarır, amma yuxarı ötürməyin üsul və qaydalarından xəbərsizdir... İndi belə adama olduqca strateji bir vəzifəni necə etibar edəsən... Əslində günah onda da deyil, qocalan, əldən düşən nazir öz zəngin təcrübəsini heç kimə öyrətmədi, heç kimi də alıb-ötürəndə özünə şərik eləmədi... Odur ki, ölkədə çox ciddi kadr ehtiyacı yaranıb...

Bizim ölkədə gənc kadrlara necə sonsuz qayğı bəsləndiyinə dair bir nümunə gətirmək istəyirəm. Mənim bir tanışım var, orduda xidmət edib, qanlı-qadalı günlər yaşayıb, indi təqaüddə olan zabitdir. Yeganə oğlu da ağıllı, savadlı, fərasətli uşaqdır. Yəni bu gəncin tərcümeyi-halı tər-təmizdir. Bu ölkənin yaddan çıxan müxalifəti ilə də heç bir bağlılığı yoxdur... BDU-nun hüquq fakültəsini öz ağlı, fərasəti ilə bitirib. Düz 11 dəfə dövlət qulluğuna qəbul olunmaq üçün test imtahanlarından keçib. Bütün növ qəbul komissiyalarına üzv olanlar ona baxanda acı-acı gülümsəyirlər. Hətta canı yananlar, testdən sonrakı söhbətdən keçməyin yolunu da ona nişan veriblər... O isə inadından dönmür. Bağlı qapının nə vaxtsa aça biləcəyinə ümid edir...

Bir ay əvvəl dedilər ki, daha toyda-yasda israfçılıq olmayacaq, adamlar toyda 50-100 manat yazdıranda ürəklərində söyüb məclisi tərk etməyəcəklər. Dedilər ki, indən sonra toyla yas ciddi şəkildə fərqlənəcək. Yuxarıdan aşağıya göstəriş verildi. İcra başçısının adamları, polis, bələdiyyə qolunu çırmayıb ortalığa düşdü. Müdrik xalqımız bundan da çıxış yolu tapdı - indi bəri başdan 200 manat ödəyib, ölüyə ehsan verirlər.

Heç kim qolunu çırmayıb toydan-yasdan da qazanc götürənlərə mane ola bilmədi. Nədən ki, elə nazirimiz, elə iri çinli dövlət məmurumuz var ki, 30-40 şadlıq sarayına, elə o qədər də yas yerinə sahib dururlar. İndi də yenə camaat günahkar olur. Məmurlar yaxasını "toya-yasa heç bir qadağa yoxdur" deyə qırağa çəkirlər... Əvəzində isə yenə də ağırlıq qazandığını toya-yasa xərcləyən binəva insanların üstünə düşür...

Bir sözlə bizim məmləkətdəki oturuşmuş qaydaları dəyişməyə heç kəsin gücü çatmır... Dua edirik ki, "İlahi bizi bəd nəzərdən qoru! Avrasiya Birliyinə, Gömrük İttifaqına, Putinin tamahına yem eləmə! Elə beləcə rüşvət ödəyə-ödəyə başımızı girləyək!"

# Əli Nağıyevdən təhsilin vəziyyəti haqda şok açıqlamalar

## "Nazirdən tələbəyə qədər bütün sistem saxtakarlıqla məşğuldur"

**YAP-ın qurucularından biri, keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanın Belarusdakı sabiq səfiri, professor Əli Nağıyev modern.az-a müsahibəsində ölkədə təhsilin vəziyyəti haqqında şok açıqlamalarla çıxış edib. Əli Nağıyev bildirib ki, Azərbaycanda təhsil yarımcan vəziyyətdədir: "Bir var görkəm, bir də var məna... Təbii ki, təhsildə görkəmlə çox şey dəyişib.**

Fikir verin, nə qədər məktəb tikilib, nə qədər məktəbin içi abadlaşdırılıb. Bunlar təhsilə xidmətdir. Mənaca isə daha da pisləşib. Sübut: Əgər 10 il qabaq ali məktəblərə ən aşağı qəbul balı 300 idisə, indi 150-dir. Bu dəhşətdir və prezidenti, milləti aldatmaqdır. Çünki nazirdən başlamış tələbəyə qədər hamı bilir ki, 150 balla daxil olan tələbə ən azı texniki yönümlü fakültələrdə ali təhsil proqramını mənimsəyə bilməz. O fakültələrdəki ali riyaziyyat kursu birinci kursdan keçirilir. Deməli, nazirdən tələbəyə qədər bütün sistem saxtakarlıqla məşğuldur. 10 il bundan qabaq Milli Məclisin kürsüsündən Dağlıq Qarabağ məsələsini Azərbaycanın təhsil sistemi ilə müqayisə edərək dedim ki, ay qardaşlar, təhsil yaman gündədir. Dağlıq Qarabağ Azərbaycan üçün nə dərəcədə ağır problemdirsə, bu gün Azərbaycanın təhsili də elə bir vəziyyətdədir. Sonra əlavə etmişdim ki, Zəngəzur, Dərbənd, Borçalı və Dərələyəz getdi nə olduqsa, Dağlıq Qarabağ da gedəndə ondan olacağıq. Ancaq təhsil gedəndə millət naxır, sürü olur".



Əli Nağıyev

**Ə.Nağıyev deyib:** "Təhsil millətin keyfiyyəti deməkdir. Təhsil keyfiyyətsiz olanda mədəniyyət də, ədəbiyyat da, musiqi də, elm də, eyni zamanda insanlar arasında normal ünsiyyət də olmur. Təhsil varsa, bunlar ucadır, yoxdursa, alçaqdır. Görün nə zamandır, bacı bacının başını kəsir, qardaş qardaşı güllələyir, oğul anasını boğur, ata körpələrini boğur, o birisi də bomba atıb bütün nəsli qırır. Başqa birisi də avtobusu yolun əks istiqamətinə çıxararaq insanları ağuşuna alır. Daha nələr, nələr... Bəs bunlar cahillik deyilsə, nədir?!... Bu gün Azərbaycanda baş verən yol qəzaları, intihar halları, cinayət faktları - millətin təhsili yuxarı olsaydı, ən azı 50 faiz aşağı olardı. Bu cür halların baş verməsi birbaşa təhsillə bağlıdır. Yeni-yeni məktəblərin tikilməsində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva çox işlər görür. Amma gərək təhsil sahəsində çalışanlar da bu işləri davam etdirsinlər. Yəni təhsil bəzəkli siniflərlə, kompüterlə, yaxşı stollarla əmələ gəlmir. Ən yaxın təcrübə: Azərbaycanda hamının tanıdığı və yaxın keçmişdə yaşamış elm, ədəbiyyat və mədəniyyətimizin ən görkəmli simaları şam işığında, dizlərinin üstündə yazıb- oxuyublar. Ermənıyə qalib gəlmək üçün hansı ordu konsepsiyası varsa, təhsili təhsil etmək üçün ən azı o cür konsepsiya olmalıdır. Təhsil nazirinin bu gün "onu çıxarıb bunu qoyduq" deməsi ilə, nə qədər saxta diplom satılıb aşkar etməsi ilə-guya ki, qanuni verilən diplomların keyfiyyəti çoxmu yüksəkdir? Təhsilə elə-belə baxmaq olmaz".

**Sabiq nazir təhsilin ağır durumdan çıxması üçün təklif də irəli sürüb:** "Mehriban xanımın 2015-ci ildə Bakıda keçiriləcək 1-ci Avropa Oyunlarına hazırlıq üzrə Təşkilat Komitəsinin rəhbəri təyin olunmasını çox bəyendim. Əla! Bu iş nöqtə-vergülünə qədər düz gedəcək və heç yerdə pozuntu olmayacaq. Mehriban xanıma prezidentdən başqa kimin haqqı çatar ki, nəsə bir tapşırıq versin. Deməli, təhsildə də birbaşa prezident başçılıq etməlidir. Ona görə də təhsil naziri birinci proqram qurmalıdır. Sonra gedib prezidentə təhsili yarımcan vəziyyətdən qurtarmaq üçün 1, 3, 5, hətta 10-cu tədbirin nədən ibarət olacağını da məruzə etməlidir. Bu işlər görülsə, 3 ildən sonra nə baş verəcək, 5 ildən sonra hansı nəticəni əldə edəcəyik? O zaman təhsili yarımcan vəziyyətdən normal Avropa təhsili səviyyəsinə yüksəltmək olar. Ən əsası prezidentdən razılıq almalıdır ki, prezidentdən başqa heç kim təhsil işinə müdaxilə edə bilməz. Bunun üçün ən azı 10 il vaxt lazım gələcək. Təbii ki, əgər təhsilə dediyim münasibət olarsa".

❑ Hazırladı E.SEYİDAĞA

# Banklarda problemli kreditlər artır, kredit qoyuluşu isə azalır...

## Samir Əliyev: "Mərkəzi Bankın ilin əvvəlində atdığı addımlar maliyyə bazarına ciddi təsir etdi"

**Mərkəzi Bank sentyabr ayı üzrə statistik məlumatları açıqlayıb. Yanvar-sentyabr aylarında bank sektoru üçün maraqlı tendensiyalar müşahidə edilib. Ekspert Samir Əliyevin sözlərinə görə, ciddi məqam problemli kreditlərin artmasıdır: "Problemli kreditlərin payı və həcmi artmaqda davam edib. Oktyabrın 1-i tarixinə vaxtı keçmiş kreditlərin həcmi rekord həddə - 973,2 milyon manata çatıb. Cari ilin 9 ayında belə kreditlərin həcmi 180,4 milyon manat və ya 22,8 faiz artıb. Problemli kreditlərin 79 faizi manatın payına düşüb. Uzunmüddətli kreditlərin xüsusi çəkisi isə 56 faizə yaxın olub. Ümumi kreditlərdə problemli kreditlərin payı 5,5 faiz təşkil edib".**

İkinci məqam isə kredit qoyuluşunun artım tempinin azalmasıdır. Belə ki, 2013-cü ilin 9 ayında kredit qoyuluşu 14 faiz artıb. Halbuki artım 2013-cü ilin 9 ayında 20,8 faiz, 2012-ci ilin müvafiq dövründə isə 15,5 faiz olub. S.Əliyevin sözlərinə görə, istehlak kreditləşməsi artmaqda davam edib: "İstehlak kreditlərinin payı ən yüksək həddə- 41,1 faizə yüksəlib. Belə kreditlər 9 ayda 16,7 faiz artıb. Həmçinin bankların aktivləri də azalıb. Oktyabrın 1-i tarixinə ölkə banklarının aktivləri əvvəlki ayla müqayisədə 41 milyon manat azalaraq 23,6 milyard manata düşüb. Azalmağa səbəb müxbir hesablardakı vəsaitlərin və investisiyaların azalmasıdır. Maliyyə sektoruna verilmiş kreditlər və depozitlərin azalması da aktivlərin azalmasını şərtləndirib".

**Ekspertin sözlərinə görə, doqquz ayda əmanət qoyuluşu azalıb:** "Artıq üçüncü aydır ki, əmanət qoyuluşunda azalma müşahidə edilir. Sentyabrda əmanət qoyuluşu 33 milyon manat azalaraq 6959,7 milyon manata düşüb. Azalma həm milli, həm də xarici valyuta üzrə baş verib. Uzunmüddətli əmanətlər 4,7 milyon manat artdığı halda qısamüddətli əmanətlər 37,9 milyon manat azalıb. Həmçinin, mənfəətlə işləyən bankların sayı artıb. Sentyabr ayında daha 2 bank mənfəət əldə edib və bununla onların sayı 38-ə yüksəlib. Zərərlə işləyən bankların sayı müvafiq olaraq 6-ya düşüb. Bankların xarici öhdəlikləri də getdikcə artır. Hazırda 4,6 milyard manata çatıb. REPO əməliyyatları cəlbediciliyini itirib. Mərkəzi Bankın 1 günlük REPO əməliyyatlarının faiz dərəcəsinin 1 faizdən 0,1 faizə azaldılması kommersiya banklarının bu alətə marağını azaldıb. Son 5 ayda REPO üzrə hansısa əməliyyat aparılmayıb. Halbuki faiz dərəcəsi 1 faiz olanda əməliyyatın həcmi 1-1,5 milyard manat təşkil edirdi. Bankların aktivləri və kapitalları üzrə gəlirliliyi də azalıb. Aktivlər üzrə gəlirlilik (ROA) 2,04 faizdən 1,92 faizə, kapital üzrə gəlirlilik (ROE) 14,15 faizdən 13,29 faizə düşüb.



Samir Əliyev

**S.Əliyev qeyd edib ki, 2014-cü il ölkə bankları üçün heç də uğurlu olmadı:** "Mərkəzi Bankın ilin əvvəlində atdığı addımlar, o cümlədən və Əmanətlərin Sığortalanması Fondunun sığortalanan əmanətlər üzrə faiz dərəcəsini azaltması maliyyə bazarına təsirsiz ötüşmədi. İstehlak kreditləşməsinin artımını məhdudlaşdırmağa yönəlik tədbirlər ciddi nəticələr vermədi. İstehlak kreditlərinin payı artmaqda davam etdi. Əksinə, ölkə üzrə kredit qoyuluşu zəifləməyə başladı. Problemli kreditlərin payı isə getdikcə artmağa başladı. Əmanətlərin faiz dərəcəsinin azalması əmanət bazarının cəlbediciliyi azaltdı və əmanət qoyuluşu azalmağa başladı. Bu prosesə "Bank of Azerbaijan" ASC-nin düşdüyü böhran daha da stimul verdi. Əmanətlərin faiz dərəcəsinin azalması kredit faizlərinə ciddi təsir göstərmədi. Əksinə, bankların qazanclarını artırdı. Təsadüfi deyil ki, bu qazanc ilin əvvəli 3,75 faiz idisə, hazırda 5,32 faizə qalxıb.

İlin bitməsinə 2 ay qalıb. Ona qədər bank bazarda qalmaq üçün çarpışırlar. Onların təxminən yarısı gələn ili bazarı tərk etmək məcburiyyətində qalacaq. Yenə də hər şey zamandan və aparılan danışıqların nəticəsindən asılı olacaq".

❑ RÖYA

YENİ MÜSAVAT
N 272 (5981) 5 noyabr 2014

**Qəzet yayımı firmalarından daha birinin iflas olması bu sahədə durumu acınacaqlı vəziyyətə salıb. Bir neçə gün əvvəl "Qasid" firmasının da müflis olduğunu elan etməsi qəzet satışı bazarının sıradan çıxması kimi qiymətləndirilir. Qeyd edək ki, "Qasid"in fəaliyyətini dayandırmasına səbəb kimi firmanın müflis olması və redaksiyalara satılan qəzet nüsxələrinə görə pul ödəyə bilməməsi göstərilir. Bu isə qəzetlər üçün növbəti tiraj və maliyyə itkisidir. Daha pis durumda olan müxalifət qəzetləri durumdan narahatçılıq keçirir. Mətbuat Şurası isə məsələyə münasibət bildirməyə tələsmir.**

# "Qasid" redaksiyaların borcunu necə qaytaracaq...

## Qəzet satışı bazarı sıradan çıxır, durum olduqca ciddidir, aidiyyəti qurumlar isə hələ gözləyir...

**"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanov** bildirir ki, "Qasid"in redaksiyalara borcu məsələsi açıq qalıb, yəni firma borcu necə ödəyəcəyi barədə qəzetlərə heç bir məlumat vermir: "Bu dəqiqəyə aydın olan odur ki, "Qasid" fəaliyyətini dayandırıb, artıq satmağa qəzet götürmür. Amma ilin axırına qədər abunələrin verilməsi ilə bağlı xahiş ediblər. Biz də hələ ki ilin axırına qədər verəcəyik. Baxmayaraq ki, onlar abunə pullarını da ödəməyiblər. Ancaq bildiriblər ki, borclarımız ödəniləcək. Bu, hansı yolla olacaq, bilinmir. Bizim üçün müəyyən qaranlıq məqamlar var və bilmirik ki, borclarımızın qaytarılması istiqamətində iş gedirmi? Firmanın əmlakının qiymətləndirilməsi, hərraca çıxarılması, redaksiyalara olan borclarıdır, bu kimi bölgüləri kim aparacaq? "Qasid"in rəhbərliyi gərək açıqlama versin, bundan sonra atılacaq addımlar barədə ictimaiyyəti və qəzetləri məlumatlandırsın, biz də işimizi bilək. Açıqlama verilməlidir ki, "Qasid"in əmlakında nələr var. Bizdə olan məlumata görə, firmanın binası və maşınlarından başqa, balansında geri qayıdan qəzetlərin anbarı yerləşən torpaq sahəsi var. Bu torpaq sahəsi "Gənclik" metro stansiyasının yaxınlığında yerləşir, kifayət qədər qiyməti var. Elə həmin yerin satılması kifayət edir ki, qəzetlərə olan borclar tam ödənilsin. Bizə bildirilməlidir ki, nələrin hesabına qəzetlərin borcları ödəniləcək". **O, həmçinin qeyd edib ki, qəzet redaktorları toplaşıb bu məsələni müzakirə etməlidir:** "Yaxşı olar ki, qəzet redaktorları bu durumu müzakirə etsinlər, ancaq hələ bir təşəbbüs yoxdur. Anlaşılmaz bir durumdayıq".

**"Azadlıq" qəzetinin redaktoru Sücəddin Şərifov da qeyd edib ki, yaxın günlərdə vəziyyətdə hər hansı irəliləyiş olmasa, redaktorların müzakirəsinə zərurət yaranacaq:** "Biz durumu, firmanın müflis olmasını hüquqşünaslarla da məsləhətləşmişik, bir qədər də fikirləşib müəyyən addımlar atılmalıdır".

**Onun sözlərinə görə, "Qasid"in ziyanla işləməsi də bir qədər şübhəli məsələdir:** "Müəssisə doğrudanmı ziyanla işləyirdi? Axı qəzetlərin satışının böyük faizi firmaya gedirdi. Qəzetlər satışa görə "Qasid"ə böyük faiz verirdi. Necə olur ki, həmin faiz "Qasid"ə yetmir, ancaq redaksiyalar dolana bilir? Elə redaksiyalar var ki, əməkdaşlarının sayı heç də "Qasid"in işçilərinin sayından az deyil. Ancaq həmin qəzet satışından gələn faizlə həmin redaksiyalar ayaqda qala, yaşaya, mövcudluğunu saxlaya bilir. Ancaq "Qasid" qəzet satışından əldə etdiyi eyni, hətta daha yüksək faizlə müflis olur. Dövlət qurumları araşdırmalıdır ki, "Qasid"də mənimsəmə var, ya yoxdur. "Qasid" bu illər ərzində müntəzəm şəkildə qəzet satıb və faizlər əldə edib, bu, az məbləğ deyil. Şirkət necə iflas edə bilər? Qəzetlərə çatan gəlirdən az olmayan hissə ona çatıb. "Qasid"in sadəcə əmək haqqı verməklə iflas olması inandırıcı deyil. Bəlkə pullar mənimsənilib?"



Ələsgər Süleymanov



Sücəddin Şərifov



Rəhim Hüseynov

**Mətbuat Şurası isə məsələyə münasibət bildirməyə tələsmir. Qurumun təmsilçisi Rəhim Hüseynov bildirir ki, o, bu məsələ ilə maraqlanmayıb. Onun sözlərinə görə, MŞ-nin qəzet yayımı ilə bağlı yaradılan komissiyası var və həmin komissiyanın üzvləri "Qasid"in redaksiyalara yaratdığı problem barədə danışa bilərlər. MŞ-nin həmin komissiyada təmsil olunan üzvü Umud Rəhimoğlu isə qeyd edib ki, son gün bir qədər kənarda olduğundan, mətbuatla bağlı baş verən hadisələrdən məlumatı yoxdur:** "Amma bildiyim qədər, "Qasid" iflasa uğrayıb. Firma özünü doğrultmadığı üçün ləğv olunub. Burada ciddi bir qəbahət görmürəm".

❑ **Röya RƏFİYEVA**

# Xətaidəki "yaşıl soyqırım"ın arxasındakı məmurların adları çəkildi - özəl mənbə



Razim Məmmədov

## Prosesin əsas baş rol aktyoru icra başçısı Razim Məmmədovdur; o, indiyədək xeyli yaşıllığı məhv etdirib yerini iş adamlarına satıb; İnqilab İsmayılov küçəsində 60 sot ərazinin 4.5 milyona satıldığı, bu məbləğdən daha üç yüksək mənsəbli məmurun pay götürdüyü haqda iddialar var

**Artıq bir neçə gündür Xətai rayonu, İnqilab İsmayılov küçəsində ağacların kəsilməsi haqda məlumat gedir. Bu mövzuya "Yeni Müsavat" qəzeti də öz səhifələrində geniş yer ayırır. Sözügedən ünvanda gecəyarısı baş tutan "yaşıl soyqırım" barədə artıq aidiyyəti dövlət qurumları da xəbərdardırlar. Bu insanlıqdan kənar əmələ Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov, həmin ərazidən deputat seçilmiş İqbal Ağazadə, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyi reaksiya bildirib. Ağac kəsintisi dayandırılıb, ərazidə BŞİH tərəfindən abadlıq işləri aparılır.**

Xatırladaq ki, İnqilab İsmayılov küçəsi 3, 4 və 5-ci binaların yaxınlığında 20-30 illik şam və küknar ağacları gecəyarısı kəsilirdi. Ağacları kəsib yerində çoxmərtəbəli yaşayış binalarının tikintisi nəzərdə tutulurdu. Həmin ərazidə tikinti aparmaq üçün ağacları kəsdirən naxçıvanlı iş adamı İman Quliyevdir. Bu haqda virtualaz.org xəbər verib. Sayta məlum olub ki, İman Quliyev Naxçıvanın məşhur Qarabağlar kəndindəndir, hakim elitaya yaxın adamdır. O, iki nüfuzlu nazirlə qohumluq əlaqələrinə malikdir: "Mötəbər mənbələrin bildirdiyinə görə, İman Quliyev böyük kapitala malikdir və özünü nüfuzlu biznesmen kimi tanıdıb. Onun qardaşı Telman Quliyev isə Qax Rayon İcra Hakimiyyətinin başçısı işləyib".

Xətai rayonu ərazisində tez-tez yaşıllıqların məhv ediləcək yerlərinin satıldığı haqda mətbuatda xəbərlər dərc olunur. Bu işin arxasında rayonun rəhbəri Razim Məmmədovun dayandığı deyilir. İndiyədək R.Məmmədovun adı "yaşıl soyqırım" hadisəsində çox çəkilib. Bir qədər əvvəl M.Hadi küçəsində çoxillik şam və küknar ağacları da məhv edilərək yerləri ayrı-ayrı iş adamlarına satılmışdı. Deyilənə görə, R.Məmmədov Xətaidə torpağı sotla yox, kvadratmetrlə satır. Rayonda yerindən asılı olaraq bir kvadrat sahə 3-5 min manatadır.

"Yeni Müsavat"a daxil olan məlumata görə, İnqilab İsmayılov küçəsindəki həmin 60 sotluq ərazi 4,5 milyon manata satılıb. Mənbə bildirir ki, bu alverdən əldə olunan vəsaitdən təkcə Razim Məmmədov yox, BŞİH başçısı Hacıbala Abutalıbov, Əmlak Məsələləri Dövlət Komitəsinin rəhbəri Kərəm Həsənov, Torpaq və Xəritəçəkmə Komitəsinin sədri Qərib Məmmədov da paylarını götürüblər. Çünki bu cür alqı-satqı işlərində, alınan və satılan ərazilərin sənədləşdirilməsində əsasən bu dörd qurumun və məmurun imzası, möhürü lazım olur.



Razim Məmmədovun rəhbərlik etdiyi rayonun sakinləri axşam yatıb səhər oyananda görürlər ki, həyətlərindəki yaşıllıq məhv edilib. Necə ki, İnqilab İsmayılov küçəsində bu cür olay yaşanmışdı. Ərazidə yaşayan sakinlər bu "yaşıl soyqırım"dan vaxtında xəbər tutaraq bu işi dayandırmağa müvəffəq oldular. Sakinlər yaşıllıq terrorçularının bəd əməllərinin qarşısını almaq üçün hətta gecələr yatmayıb ərazidə keşik çəkirdilər. İşi, vəzifəsi xalqa xidmət etmək olan məmurlar, əksinə, xalqa problem yaradırlar. Onların normal həyatını öz tamahkar əməlləri ilə pozurlar.

Yada salaq ki, bəşəbələ icra başçısı 2013-cü ilin may və oktyabr aylarında da oxşar qanunsuzluğa yol verib.

"Yeni Müsavat" qəzetinin 05.04.2013-cü il tarixli sayında "Qəddar ağac kəsənlər və onların qoçusu. Ukrayna dairəsində 40 ilin yaşıllığı məhv edilir" başlıqlı yazı dərc olunub. Həmin yazıda qeyd edilir ki, Məhəmməd Hadi küçəsində olan ağaclar qırılır, ərazilər isə satılır.

Sakinlər deyirdilər ki, əslində tikinti aparılan ərazilər rayonun icra başçısı Razim Məmmədova məxsusdur. Amma icra başçısı başqa ad-soyadın arxasında gizlənir.

**Həmin yazıdan sitat:** "Xətainin icra başçısı Razim Məmmədov rəhbərlik etdiyi rayonda torpaq sahələrini sotla deyil, kvadrat metrlə satır. 1 kvadrat metr 3 min manatadır. İcra başçısı orada obyekt tikib kvadratını 7-8 min manata satacaq".

Xatırladaq ki, İnzibati Xətalar Məcəlləsinin 92.2 maddəsinə görə meşə fonduna aid olmayan ağac və kol əkimlərinin zədələnməsinə, kəsilməsinə və ya məhvinə görə fiziki şəxslər 2200 manatdan 2500 manatadək, vəzifəli şəxslər 9 min manatdan 10 min manatadək, hüquqi şəxslər 40 min manatdan 50 min manata qədər cərimə olunurlar. İXM-in 92.3.1 maddəsinə görə şəhərlərdə və digər yaşayış məntəqələrində yerləşən yaşıllıq sahələrində tikinti işləri aparılarkən lazımi icazə olmadan yaşıllıqlar məhv edildikdə hər bir ağac və kolun zədələnməsinə, məhvinə görə fiziki şəxslər 1200 manatdan 1500 manata kimi, vəzifəli şəxslər 3500 manatdan 4400 manata kimi, hüquqi şəxslər 20 min manatdan 25 min manatadək cərimələnirlər.

İnqilab İsmayılov küçəsindəki "yaşıl soyqırım"la bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi araşdırma aparıb. Nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova bildirib ki, məsələni araşdırıblar və sözügedən ünvanda ağacları kəsdiyinə görə Quliyev Araz İman oğlunu 19 min 200 manat məbləğində cərimə ediblər.

Bu cəriməni Razim Məmmədova təsir edəcəyini düşünmək belə sadəcə gülməlidir. 4,5 milyon manat qarşılığında bu rəqəm hansısa "semiçka" pulu kimi görünür.

**Mövzunu davam etdirəcəyik.**

**Yazıda adları hallanan şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

❑ **E.HÜSEYNOV**



# Xoşbəxt ölkənin düsturu

Zahid SƏFƏROĞLU
zahid.safaroglu@box.az

**ABŞ-ın "Cato Institute" Tədqiqat Mərkəzi ən bədbəxt ölkələrin reytinqini açıqlayıb. Suriya, Venesuela, Sudan və İran superbədbəxtlər kimi ilk pillələrdə yer alıb. Bildirilir ki, bədbəxtlik indeksi inflyasiya və işsizlik dərəcəsinə, bir də ki, ümumi daxili məhsulun (ÜDM) əhalinin hər nəfərinə düşən həcminə əsasən müəyyən edilib.**

Siyahıda Azərbaycan 38-ci pillədə qərar tutub. Qonşu Ermənistan 10-cu, Gürcüstan 24-cü, Rusiya isə 47-ci yerləri tutub. Ən xoşbəxt ölkələr isə İsveçrə, Yaponiya, Çin, Tayvan, Cənubi Koreya, Sinqapur, Malayziya və Tailand hesab edilib.

Nə deyək? Siyahıya inansaq, Ermənistan və Gürcüstan bizdən bədbəxt, Rusiya isə daha xoşbəxtdir. Əlbəttə ki, nəticələri subyetktiv hesab edib mübahisə predmetinə çevirmək də olar. Ancaq hədəfimiz bu deyil. Məsələ ondadır ki, sonuncu yerlər (xoşbəxtlər) istisna olmaqla Azərbaycan da kifayət qədər bədbəxt məmləkət hesab edilib.

Azərbaycan isə həqiqətən xoşbəxt ölkə deyil. Sadəcə, "xoşbəxtlərin hamısı bir cür xoşbəxt olduğu halda, bədbəxtlərin hərəsi bir cür bədbəxtdir". O cümlədən Azərbaycan özəl xüsusiyyətləri ilə bədbəxtlər sırasında fərqlənir. Hərgah, bir təsəllimiz var ki, ABŞ kimi dünya nəhəngi və həqiqi rifah içində olan dövlət də bizim kimi ən xoşbəxt ölkələrin onluğuna düşməyib.

Sarkazm o yana dursun, Azərbaycan doğrudan da xoşbəxt məmləkət sayıla bilməz. Hətta insanları rifahda yaşasaydı belə, yenə sayılmazdı. Zira, Qarabağ dərdimiz var. Dərdli ölkə, dərdli insan isə pulu, malı başından aşsa da, xoşbəxt ola bilməz.

Doğrudur, şəxsi xoşbəxtliyin konkret düsturu, resepti tapılmayıb. Hərgah, klassik bir deyim var ki, "İnsan əgər evdən işə, işdən də evə tələsirsə, xoşbəxtdir". Yaxud məsumlarımızdan birinin olduqca qiymətli kəlamını azca dəyişsək, belə də yazmaq olar ki, "Xoşbəxt insan hər gün günah etməyən insandır".

Sözü ona gətiririk ki, xoşbəxtlik və ya bədbəxtlik məfhumu təkcə maddi amillərlə müəyyənləşməz, insan şüurlu yaradılış olduğundan onun mənəvi-ruhani qidaya, qəlbi rahatlığa da ehtiyacı olur. Bəzən hətta mənəvi qida, tutaq ki, azadlıq yanğısı yemək-içməkdən də üstün dəyərə çevrilir və insan az qala hər şeyini onun yolunda qurban verir.

Bu yerdə yada Liviyadakı "ərəb baharı" düşür. İnqilab zamanı əcnəbi jurnalist nümayişçilərin birinə sual eləmişdi ki, "axı liviyalılar heç də pis yaşamır, hər yerdə ucuzluq, bolluq-filandır, bəs niyə Qəzzafini devirmək istəyirsiniz?" Cavab belə olmuşdu ki, "bəli, hər şeyimiz var, ancaq azadlığımız yoxdur..."

Yəni yenə ruh(an)i qida məsələsi. Liviya örnəyi fərdi bədbəxtliyin günün birində ölkənin bədbəxtliyinə çevriləcəyinin nə dərəcədə real olduğunu ortaya qoydu. Başqa sözlə, ölkənin xoşbəxtliyinin "müstəqil xarici siyasət", "müstəqil dövlətçilik" kimi anlayışlara deyil, müstəsna olaraq fərdin xoşbəxtliyinə bağlı olduğuna, bu kimi amillərin təməlində məhz vətəndaşın xoşbəxtliyinin durduğuna hər hansı şübhə yeri saxlamadı.

Günümüzdə də bənzər nümunələr qədərincədir. Misal üçün, Azərbaycanda onlarla, hətta yüzlərə varlı, imkanlı, yüksək vəzifə tutan şəxsin adını çəkmək olar ki, əslində özlərini bədbəxt sayırlar. Çünki azad deyillər, anormal sistemin girovudurlar, bu üzdən də əksəri şəkərli diabet kimi qorxu-ürküdən qaynaqlanan ağır xəstəliklərin daşıyıcılarıdır...

Bu xüsusda Azərbaycanın yönətimlərinin də ciddiyə alacaqları bəzi para şeylər var. Onların arasında ən önəmlisi, artıq vurğulandığı kimi, fərdlərin zahirdə xoşbəxt, batində isə bədbəxt olması gerçəyidir. Toplum da elə - gerçəkdə o, özünü bədbəxt sana bilər, bunu uzun illər dilə gətirməsə də.

İstənilən ölkənin xoşbəxtlik meyarını öncə bu, amil müəyyən edir - fərdlərin azadlığı. Azad insanların məmləkəti hətta ən yüksək rifaha malik olmasa belə, ən etibarlı və güvənli məmləkətlərdir. Demokratik ABŞ, Avropa ölkələri kimi...

# Müxalifətin 2015 hədəfi - inqilab, yoxsa anlaşma?

**Gələn il ölkə üçün ciddi siyasi əhəmiyyət kəsb edəcək bir dönəmdir. 2015-ci ildə Milli Məclisə növbəti seçkilər keçiriləcək. Ölkə müxalifəti 2014-cü ildəki bələdiyyə seçkilərinə o qədər ciddi maraq göstərməsə də, parlamentdəki yerlər uğrunda mübarizə aparacağı dəqiqdir. Bəs ölkə müxalifəti, siyasi liderlər gələn il üçün nə planlaşdırır və nə proqnozlaşdırırlar? Planlar proqnozlarla üst-üstə düşürmü? Qısası, müxalifətin 2015-ci il üçün hədəfi nədir - inqilab, yoxsa anlaşma? Rəyini soruşduğumuz siyasi liderlər və ekspertlər 125 yer uğrunda başlanacaq mübarizəyə və yekununa fərqli yanaşıblar.**



**Mirmahmud Mirəlioğlu:** "Azərbaycanda inqilabçı olmadığı üçün inqilab baş tutmur"



**İqbal Ağazadə:** "Demokratiyaya keçiddə iqtidar-müxalifət anlaşmasının tərəfdarıyam"



**Sərdar Cəlaloğlu:** "İnqilab edib Suriyanın vəziyyətinə düşməkdənsə..."



**Ərəstun Oruclu:** "2015-də kimin dəyəri nə olacaqsa, hakimiyyət ona uyğun davranacaq"

**KXCP sədri Mirmahmud Mirəlioğlu bildirir ki, 2015-ci ildə müxalifət inqilab haqqında düşünə bilməz:** "2003-2005-ci illər arası inqilab təcrübədən keçirilib və inqilabçı olmadığına görə inqilab baş tutmayıb. Ona görə də ikinci variant ola bilsin ki, reallaşsın. Amma populizm xatirinə əksəriyyət deyəcək ki, inqilab gözlənilir, proqnozlaşdırılır, edəcəyik, gələcəyik və sair. Azərbaycanda üfüqdə belə inqilab görünmür. Birmənalı şəkildə belədir".

**Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə qeyd edib ki, ölkə üçün yaxın gələcəkdə inqilab gözlənilən və arzuolunan deyil:** "Mən inqilabın tərəfdarı deyiləm. İnqilab olmasını heç arzu etmirəm. Bura o qədər həssas bölgədir ki, istər Rusiya ilə bağlı, istər Yaxın Şərqdə baş verən hadisələrlə bağlı dövlətimizin taleyi sual altında qala bilər. Dövlətimiz, dövlətçiliyimiz çox böyük zərbə görə bilər. Ona görə mən uzlaşmanın tərəfdarıyam. Demokratiyaya keçiddə, açıq cəmiyyət quruculuğunda anlaşılan həmrəylik, iqtidar-müxalifət anlaşmasının tərəfdarıyam. Bu, bizim dövlətçiliyimizin möhkəmlənməsi və demokratikləşməyə ağrısız keçidin əsas göstəricilərdir. Bütün siyasi qüvvələri də, başlıca olaraq isə iqtidarı buna səsləyirəm. Bunun üçün bir sıra addımlar lazımdır. Seçki Məcəlləsinin tələblərinin dəyişdirilməsi, siyasi partiyalara yaxşı imkanların yaradılması, hüququn aliliyinin təminatı və sair kimi ciddi addımlar atmaq lazımdır. Çox təəssüf ki, hazırda iqtidarda da bunu görmürük".

**ADP sədri Sərdar Cəlaloğlu isə vurğulayır ki, hazırda inqilab deyil, anlaşma labüddür:** "İndiki konyukturaya baxsaq, iqtidarla anlaşmadan başqa yol yoxdur. Heç bir inqilabdan söhbət gedə bilməz. Çünki indiki dövrdə görünən budur ki, inqilablar dövlətlərin və xalqların siyasi səhnədən çıxmasına gətirib çıxarır. Anlaşma deyəndə ki, bunu cəmiyyətə düzgün şərh etmək lazımdır. Bir var inqilabi yol seçirsən, seçkilərdən imtina edirsən, heç bir məsələdə güzəştə getmirsən. Ən kiçik məsələni belə ümummilli səviyyəyə qaldırsan. Bir də var ki, dövlətin və millətin ali mənafeləri istisna olmaqla, başqa məsələlərdə bir o qədər də radikal mövqe tutmursunuz. Bu yaxınlarda suriyalı bir müxalifətçinin çıxışına qulaq asdım. O deyirdi: "Ağlımıza gəlməzdi ki, bizim azadlıq uğrunda başladığımız mübarizə axırda Suriyanın bir dövlət kimi yox olmasına gətirib çıxarsın. Mən indi görürəm ki, biz Nigeriya, Somali, Əfqanıstan kimi həm dövlətimizi itirmişik, həm ərazimizi, həm xalqımızı itirmişik. Məhvə məhkum olmuşuq". Mən o suriyalı müxalifətçinin etirafını nəzərə alıb deyirəm ki, indiki şəraitdə Azərbaycanda inqilaba cəhd göstərmək xalqımızın və dövlətimizin məhv olmasına gətirib çıxarar. Əgər inqilabın alternativi hakimiyyətlə anlaşma kimi başa düşülürsə, deyirəm ki, razılaşma olacaq. Əslində heç bir sövdələşmə və razılaşmadan söhbət getmir, sadəcə olaraq radikal mövqedən imtina etmək və mümkün qədər yumşaq, bir siyasi mübarizə ilə işi davam etdirmək lazımdır. Yoxsa hansısa alverdən söhbət getmir".

**Müsavat başqanı Arif Hacılı isə qeyd edib ki, Müsavat Partiyası 2015-ci ildə ölkədə siyasi vəziyyətin əsaslı surətdə dəyişməsi qənaətindədir:** "Biz həm geopolitik vəziyyətin dəyişməsi, eyni zamanda Azərbaycan cəmiyyətində avtoritar idarə üsuluna qarşı olan etirazların pik həddinə çatmasını nəzərə alaraq, hesab edirik ki, 2015-ci ildə ölkədə ciddi siyasi təbəddülatların olması, bunun nəticəsində ölkədə hansısa demokratik islahatların aparılması mümkündür. Biz proporsional seçki sisteminin bərpası, seçki komissiyalarının formalaşması qaydasının dəyişdirilməsi və paritet əsaslarla seçki komissiyalarının formalaşması, təbliğat kampaniyası dövrünün uzadılması, bərabərhüquqlu təbliğat imkanlarının yaradılması və digər istiqamətlərdə islahatların aparılması üçün ciddi fəaliyyət göstərmək və seçki prosesini hakimiyyətin nəzarəti altından çıxartmaq əzmindəyik".

O, həmçinin qeyd edib ki, Müsavat Partiyası bütün fəaliyyəti dövründə heç zaman sövdələşmədə iştirak etməyib və bundan sonra da etməsi qeyri-mümkündür.

Siyasi təhlilçilər isə 2015-ci il üçün ciddi bir dəyişiklik gözləmir; yəni nə inqilab, nə də anlaşma olmayacaq. Söhbət ən yaxşı halda kiçik razılıqlardan gedə bilər.

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclunun sözlərinə görə, gələn il də yaxın keçmişdəki əvvəlki seçki illərindən fərqli olmayacaq:** "Ola bilsin, kimsə anlaşıb 2-3 mandat alacaq, bu da anlaşma yox, artıq alverdir. Mən daha çox bunu gözləyirəm. Mandat sayına gəldikdə isə baxır mandat istəyənlərin dəyəri o dövrdə hansı həddə çatacaq, hər malın öz qiyməti var".

❑ Röya RƏFİYEVA

# Milli Şuranın mitinqinə hazırlıq gedir

## Müsavat üzvlərinə aksiyada iştirak məsələsində sərbəstlik verib; rəhbərliyin qatılacağı isə hələ bəlli deyil

**Milli Şura 10 noyabr mitinqinə hazırlaşır. Mitinqdə yenə də siyasi məhbus məsələsinin, həmçinin insan haqları sahəsindəki pozuntular, insanların sosial durumu ilə bağlı problemlərin gündəmə gətiriləcəyi bildirilir. Bakı Şəhər İcra Hakimiyyətinə göndərilən məktubda aksiyanın metronun "İnşaatçılar" stansiyası yaxınlığındakı stadionda saat 15-dən 17-dək keçiriləcəyi bəyan olunub.**



Milli Şuranın üzvü, AXCP sədrinin müavini Fuad Qəhrəmanlı "Media forum"a deyib ki, mitinq hazırlıqları davam edir. O, MŞ-yə daxil olmayan partiyalara və şəxslərə mitinqdə iştirak üçün xüsusi dəvət göndəriləməyəcəyini deyib: "Repressiyaların əleyhinə olan hər bir şəxs mitinqə gələ bilər".

Qeyd edək ki, siyasi məhbuslara azadlıq tələbi ilə Milli Şuranın oktyabrın 12-də də keçirdiyi mitinqə qurumə üzv olmayan tanınmış müxalifət təşkilatları-Müsavat Partiyası, Azərbaycan Xalq Partiyasının rəhbərliyi və üzvləri də qatılmışdı. Özü də heç bir dəvət olmadan. Müsavatın sabiq başqanı İsa Qəmbərin, Müsavat başqanı Arif Hacılının və AXP sədri Pənah Hüseynin təşkilatçılar tərəfindən tribunaya dəvət edilməməsi, hətta onların mitinqdə iştirak etdiyinin MŞ rəhbərliyi tərəfindən mitinqdə dilə gətirilməməsi ictimai qınaqlara, müzakirələrə səbəb olmuşdu. Belə fikirlər də irəli sürülmüşdü ki, Milli Şura rəhbərliyinin saymazyana davranışı növbəti mitinqlərdə adıçəkilən siyasi partiyaların iştirak etməməsinə səbəb ola bilər.

Müsavat Partiyasının Divanı isə Milli Şuranın noyabr ayının 10-na təyin etdiyi "Siyasi məhbuslara azadlıq!" tələbi ilə keçiriləcək mitinqdə iştirak məsələsini müzakirə edib. Divan mitinqdə iştirak məsələsində partiya üzvlərinə sərbəstlik verilməsini qərara alıb.

Lakin partiyanın rəhbərliyinin iştirak edib-etməyəcəyi barədə konkret informasiya verilmir.

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 272 (5981) 5 noyabr 2014

**Ukraynada bir həftənin içərisində reallaşan iki seçki - ümumölkə parlament seçkiləri (26 oktyabr) və separatçı bölgədə reallaşdırılan qanunsuz səsvermə (2 noyabr) regiondakı böhranın xarakterini əhəmiyyətli dərəcədə dəyişib. Əgər qərbyönlü qüvvələrin qələbəsi ilə yekunlaşan parlament seçkiləri Maydan inqilabını legitimləşdirib Rusiyanın bu ölkəyə "qanuni müdaxilə" imkanlarını sıfıra endirdisə, Donbasdakı "seçkilər" Kremlin separatçı bölgəyə hərbi müdaxiləsi üçün müəyyən legitim bəhanə yaradıb.**

# Azərbaycana şimaldan sürünən işğal təhlükəsi - şərh

Postsovet məkanına nəzarəti bərpa etməyə tələsən Kreml yalnız bircə yolu məqbul sayır - hərbi ekspansiya; Donbasdakı qanunsuz seçkilər Putinin neo-imperiya ambisiyalarını şiddətləndirib; Rusiya ölkəmizə müdaxiləyə hazırlaşır?..




Kremlin saxta seçkiləri tanıması, şübhə yox ki, parlament seçkilərində rusiyayanlı qüvvələrin acınacaqlı şəkildə uduzmasına və Ali Radaya düşməməsinə onun cavabı idi. Ancaq analitiklərə görə, bu cavabın davamı da olacaq. Növbəti mərhələdə "Krım ssenarisi" bütün gücü ilə işə salına bilər, özü də daha aqressiv şəkildə. Çünki Donbas Moskva üçün postsovet məkanı uğrunda mübarizədə uğur əldə eləməkdə Qərbə qarşı son və həlledici savaşın ön cəbhəsi anlamındadır.

Öncələrdə yazdığımız kimi, Azərbaycan da daxil, Güney Qafqazın taleyi məhz Ukraynadakı böyük geosiyasi savaşın nəticəsindən asılı olacaq. Putinə bu savaşı udmaq olduqca vacibdir, çünki neo-imperiya planları, Avrasiya layihələri müstəsna olaraq ondan asılıdır. Bunu indi beynəlxalq sanksiyaların təsiri altında rus rublu ilə birgə Putinin özünün də aydan-aya enən reytinqi diktə edir...

Ukraynada geosiyasi müharibə Moskvanın xeyrinə başa çatsa, onda tarixi zəfərdən ruhlanan Putinin növbəti hədəfi yüzdə yüz Güney Qafqaz, daha doğrusu onun açar ölkəsi olan, "Qafqazın Ukraynası" sayılan Azərbaycan olacaq. Postsovet məkanına nəzarəti bərpa etməyə tələsən Kremlin isə müstəsna olaraq bir "sınanmış" yolu var - hərbi ekspansiya. Artıq şimal qonşumuz Ukraynada qorxulu "Novorossiya" planının sonuncu fazasını işə salmağa hazırlaşır. Bölgəyə "seçkilər"dən sonra altdan-altdan, humanitar yardım adı altında çoxlu sayda silah-sursat və hərbi texnika cəmləşdirilməkdədir.

Demək, Rusiyadan ölkəmizə qarşı da hərbi təhdidin xeyli ciddiləşdiyini söyləmək mümkündür. Bu xüsusda müstəqil təhlilçilər də artıq həyəcan təbili çalmağa başlayıblar.

**"Ukraynadakı seçkilərdə qazanan demokratiya, uduzan isə Rusiya oldu". Belə bir fikri mətbuata açıqlamasında NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov deyib. O, Qafqazın real təhlükə ilə qarşı-qarşıya qaldığını bildirib:** "Biz artıq bir neçə aydır ki, Rusiyanın Qafqazda Ukrayna ssenarisindən istifadə edə biləcəyini açıq şəkildə söyləyirik. Ukraynada xalq öz seçimini etdi. Lakin Putinin Ali Radaya öz istədiyi millət vəkillərini yerləşdirə bilməməsi onu bərk qıcıqlandırıb. O, ikinci ssenarisini işə salır. Bu isə hərbi müdaxilədir. Yəni iki çıxış yolu var: biri NATO və Amerikanın Rusiya ilə açıq savaşa girməsidir. İkinci yol isə Putinin fiziki məhv edilməsidir. Bunlardan heç biri həyata keçirilməzsə, o zaman "Şərq tərəfdaşlığı" Proqramına düşən ölkələrin işğalı qaçılmaz olacaq".

**Məmmədovun fikrincə, Rusiya kəşfiyyat orqanları olan FSB və QRU-nun masasında Cənubi Qafqazın işğal planı hər zaman var:** "Sadəcə, siyasi mühitin formalaşması gözlənilirdi və bu gün Rusiyaya sərf edən həmin siyasi mühit formalaşıb. Heç bir beynəlxalq hüquq normasını tanımayan, bütün konvensiyaları və normativləri rədd edən Rusiya sabahkı addımı üçün bu gün daha artıq hazırlıq görür. NATO Əməkdaşlıq İnstitutunun əldə etdiyi məlumata görə, Gümrüdəki hərbi hissədə xüsusi diversantlar Azərbaycana qarşı hazırlıq görürlər. Yəqin ki, bu barədə Bakıda kifayət qədər məlumat var. Ancaq biz də məlumat verməyi özümüzə borc sayırıq ki, düşmən artıq qapıdadır və o, Azərbaycandan daha güclüdür. Bu təhlükələrdən qurtulmaq üçün Azərbaycanın NATO və BMT-də təcili Cənubi Qafqaz böhran masasının təşkil olunmasına təşəbbüs göstərməsini təklif edirik. Belə addımlar nə qədər tez olarsa, bir o qədər təhlükədən yan keçmək asanlaşar".

Ancaq Rusiyanın Azərbaycana müdaxiləsi sözsüz ki, Qərbin, ələlxüsus Birləşmiş Ştatların ona Ukraynada hansı cavabı verməsindən birbaşa asılı olacaq. Bu cavab yetərli effektdə olmasa, yeni sanksiyalar dişsiz təsir göstərsə, günün birində rus əsgəri həqiqətən öz çəkməsini Bakı sahillərində "yuya" bilər.

İndi bunun üçün maddi zəmin də real görünür. Bəllidir ki, Rusiya lüzum olmadığı halda illərdir şimal sərhədimiz boyu - Dağıstanda böyük sayda hərbi kontingent, canlı qüvvə və müasir hərbi texnika cəmləşdirib. Bundan əlavə, Rusiya bir neçə dəfə Xəzərdəki hərbi donanması ilə Azərbaycana qarşı əzələ nümayiş etdirib.

Beləliklə, ölkəmiz erməni işğalı ilə yanaşı, indi həm də sürünən işğal təhlükəsi ilə üz-üzədir. Azərbaycanda moskvayönlü "5-ci kolon"çuların artdığını da nəzərə alsaq, vəziyyətin rusca olduğuna şübhə qalmaz.

❑ Siyasət şöbəsi

# Azərbaycanın sədrliyi nə verdi?



Azər RƏŞİDOĞLU

**Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsində 6 aylıq sədrliyi bitmək üzrədir. Avropa Şurasının baş katibi Tornborn Yaqland bununla bağlı nüfuzlu "Guardian" qəzetində məqalə ilə çıxış edib. Məqalədə rəsmi Bakının insan hüquqları və qanunun aliliyi sahəsində sistemli problemləri həll etmədiyi kəskin tənqid edilib.**

T.Yaqland bəyan edib ki, Azərbaycanın adıçəkilən sədrliyi QHT-lər və siyasi fəallar üçün imkan yaradırdı ki, 2012-ci ildə Bakıda «Eurovision» mahnı müsabiqəsi zamanı olduğu kimi ölkədə insan hüquqlarının pozulmasına dair məsələləri qaldırsınlar.

T. Yaqland vurğulayır ki, Avropa Şurası Azərbaycanda insan haqları ilə bağlı pozuntulara qarşı çıxmaq üçün kifayət qədər az düşünüb. Baş katib həmçinin Azərbaycan hakimiyyətinin Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına məhəl qoymamasını xatırladıb.

"Bu ay Avropa İnsan Hüquqları Məhkəməsi tanınmış müxalifətçi İlqar Məmmədovun saxlanmasının və həbsinin Avropa İnsan Hüquqları Konvensiyasının pozulması olduğunu təsdiqlədi. Məhkəmə qərarı açıq şəkildə göstərdi ki, "həbsin əsl səbəbi hökuməti tənqid etdiyinə görə Məmmədovu cəzalandırmaqdır", - deyə T.Yaqland vurğulayıb.

"Hakimiyyətin Böyük Palatada bu qərara etiraz cəhdləri rədd edilib və mən dərhal İ.Məmmədovu azad etməyə çağırmışam. Beləliklə, məhkəmə Azərbaycanın məhkəmə sistemində dərin sistemli problemlərin olduğunu göstərdi", - baş katib bildirib.

Daha sonra T. Yaqland bəyan edib ki, "biz Azərbaycanda hüquq müdafiəçilərinin digər məhkəmələrini də izləyirik. Mən Avropa ölkələrini məhkəmələri diqqətlə izləməyə çağırmışam və Böyük Britaniya buna müsbət reaksiya verib".

Vətəndaş cəmiyyətinin vəziyyətinə toxunan T.Yaqland bildirib ki, Venesiya Komissiyasından olan ekspertlərə tapşırıb ki, Azərbaycanın QHT-lər haqqında qanunvericiliyini və onun İnsan Hüquqları Konvensiyasına uyğunluğunu öyrənsinlər.

Komissiyanın hüquqi rəyləri dünyada tanınır və üzv dövlətlər onlara məhəl qoymaya bilməz.

"Biz dəfələrlə Azərbaycanda insan hüquqlarının vəziyyətinin pis olması haqda xəbərdarlıq etmişik. Bu il insan hüquqları üzrə komissar Nils Muyjnieks ölkədə vəziyyətə dair hesabat dərc etdirib və hesabatda jurnalistlərə qarşı təqiblərdən, həbslərdən ciddi narahatlıq ifadə olunub. Muyjnieks bu yaxınlarda tanınmış fəallar Anar Məmmədli və Leyla Yunusa həbsxanada baş çəkib və Azərbaycanı hüquq müdafiəçilərinə qarşı repressiyalara son qoymağa çağırıb", - baş katib bunları da vurğulayıb.

"Azərbaycanın kənar edilməsi 9 milyon vətəndaşın Avropada qanunçuluğun son instansiyasına çıxış imkanlarından və Avropa İnsan Hüquqları Məhkəməsinə fərdi müraciət hüququndan məhrum edilməsi olardı. Azərbaycanla bağlı hal başqa əlaqələrdə də vacibdir.

Böyük Britaniya kimi ölkələrin siyasətçiləri Avropa İnsan Hüquqları Məhkəməsindən çıxmaqla hədələyərsə bu, "gənc demokratiya"ya malik ölkələrdə əsas azadlıqların vəziyyətinə mənfi təsir göstərər", - T. Yaqland yazıb.

***

Baş katibin sözləri Avropa Şurasının Bakıya münasibətinin bariz nümunəsi hesab edilə bilər. Vurğulayaq ki, rəsmi Bakı ona qarşı münasibətin dəyişməsini istəyirsə, bu, onun öz əlindədir, əvvəlcə özü ölkədə siyasi məhbus problemini həll etməlidir. Amma Azərbaycan Avropa Şurası qarşısında götürdüyü bu və digər öhdəlikləri yerinə yetirməyəcəyini açıq bəyan edib.

Baş katibin sözlərindən o hasil olur ki, bu qurumda Azərbaycanın AŞ-dən uzaqlaşdırılmasının demokratiyanın vəziyyətinə mənfi təsir göstərəcəyini düşünürlər.

Azərbaycanda isə düşünürlər ki, artıq beynəlxalq təşkilatlar, qurumlar öz sözlərini deməlidir və rəsmi Bakıya qarşı sanksiyalar tətbiq etməlidir. Bu cür vəziyyətdə bu, yeganə çıxış yolu kimi qəbul edilir.

Hakimiyyət nümayəndələri isə öz açıqlamalarında dəfələrlə bildiriblər ki, Azərbaycan Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin əksəriyyətini uğurla yerinə yetirib. Azərbaycan Avropa Şurasına qəbul olunanda üzərinə 26 öhdəlik, o cümlədən insan hüquqları və azadlıqları, demokratiya ilə bağlı öhdəliklər götürüb. Avropa Şurasının mövqeyi isə belədir ki, Azərbaycan texniki xarakterli öhdəliklərin əksəriyyətini yerinə yetirib, digərləri ilə bağlı narahatlıqlar hələ də qalmaqdadır.

Lakin Avropa Şurası Azərbaycanla gələcək münasibətlərini necə quracağını hələ də müəyyən edə bilməyib. Kökə, yoxsa kötək? Bunlardan hansının seçiləcəyi olduqca önəmlidir...

# Eldar Namazov David Şahnazaryanla birgə bəyanat verdi

**"Azərbaycan Naminə" İctimai Forumun rəhbəri Eldar Namazov Finlandiyada Ermənistanın keçmiş milli təhlükəsizlik naziri David Şahnazaryanla birgə bəyanat yayıb. Onların hər iki ölkə rəhbərliyinə müraciətini Azərbaycan və Ermənistanın bir qrup vətəndaş cəmiyyəti nümayəndələri də imzalayıb.**

Müraciətdə onlar iki ölkənin vətəndaş cəmiyyətlərini, bütün siyasi və ictimai qüvvələri sülh prosesinin fəal iştirakçıları olmağa, zəruri güzəştlərin axtarışına başlamağa, maksimalist tələblərdən imtina etməyə və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsində öz məsuliyyətlərini dərk etməyə çağırırlar.

Sənəd müəllifləri münaqişə tərəflərinun siyasi rəhbərlərinə tənzimlənmə prinsiplərinin ayrı-ayrı müddəalarının müxtəlif şəkildə şərh edilməsinə və bir sıra məsələlər üzrə fikir ayrılıqlarının mövcudluğuna baxmayaraq, təxirəsalmadan Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk Qrupunun həmsədri Ceyms Uorlikin 7 may 2014-cü il tarixli təşəbbüsü və ATƏT-in Minsk Qrupu həmsədrlərinin 12 may 2014-cü il tarixli bəyanatı əsasında Dağlıq Qarabağ nizamlanmasında Sülh Sazişinin işlənib hazırlanmasına başlamağa çağırıblar.

❑ E.SEYİDAĞA



Eldar Namazov



David Şahnazaryan

# İnsanların ən qədim və vəfalı dostları

## İtlərin içərisində də ən vəfalısı var; cins itlərin əsas xüsusiyyətləri və qiymətləri bu yazıda...

**İt insanın vəfalı dostudur deyirlər. Çin Elm Akademiyası tərəfindən aparılan tədqiqata görə, 32 min il əvvəl qurdlardan ayrılan itlərin beyin və həzm sisteminin inkişafında insanlara bənzər dəyişikliklər baş verib.**

Macarıstan alimləri heyvan sahiblərinə itlərlə heyvan kimi deyil, dost kimi davranmağı məsləhət görür. Çünki onlar insan hisslərini açıq-aydın başa düşür. Alimlər belə qənaətə gəliblər ki, Avstraliyada yaşayan vəhşi Dinqo itləri dünyada ən qədim it cinsidir.

Kornoul və Kaliforniya universitetləri alimlərinin apardıqları tədqiqatlara görə, Dinqonun tapılan ən qədim kəllə sümüyünün yaşı 5 500 ildir. Bundan əlavə, digər it cinslərindən fərqli olaraq Dinqo genetik cəhətdən canavarlara daha yaxındır. Digər it cinsləri qarışıq nəticəsində yaranıblar, Dinqolar isə demək olar, heç bir it cinsi ilə qarışmayıb.

"Nature" jurnalı yazır ki, Dinqolar it kimi hürmür, canavar kimi ulayırlar. Lakin alimlər bildirirlər ki, son illərdə dinqoların digər it cinsləri ilə qarışması halları çoxalıb.

Azərbaycanın da qədim it cinsləri olub ki, bunların əksəriyyətinin artıq nəsli tükənib. Hazırda mövcud olan Qafqaz çoban iti regionda yaşayan ən nadir it cinslərindəndir. Bu ad bu it cinsinə ruslar tərəfindən verilib. Ancaq bu cins tək növ deyil. Qafqaz çoban iti Gürcü çoban iti, Azərbaycan çoban iti, Dağıstan çoban iti və başqa alt növlərinə ayrılır.

Qafqaz çoban itləri azsaylı cinslərdəndir ki, mənşəyi antik dövrlərdən gəlir. Onlar iri quruluşlu və kobud görünüşlü heyvandır. Cinsin çəkisi 46-90 kiloqram, hündürlüyü isə 74-88 sm-dir. Soyuğa və istiyə qarşı qoruma təmin edən sıx tükləri var. Qafqaz çoban iti müxtəlif rənglərdə ola bilər, ancaq rəngi boz və boz üzərində ağ ləkələr olan uzun tüklü itlərə daha çox üstünlük verilir. Bu növün əsas xüsusiyyəti heyvanları və ətrafı qorumasıdır. Onlar ətrafı yaxşı öyrənmə, edəcəyi işi yaxşı qavrama və xidmət etmə xüsusiyyətlərinə malikdir.

Bu cins itlərə xas olan xüsusiyyətlər - hər an hazır vəziyyətdə olma, diqqətlilik, güclü qoruma instinktidir. Qafqaz çoban itləri yadlara qarşı təcavüzkar, amma sahibinə və yaxınlarına həddindən artıq bağlı və yumşaqdır. Xüsusilə uşaqlara qarşı yumşaq və qoruyucudur. 90-cı illərin sonundan Qafqaz çoban itinin nəslinin qorunması üçün işlər başlayıb. İkinci Dünya müharibəsindən sonra rusların Qafqaz çoban itlərinin çoxlu sayda Rusiyaya aparılması nəticəsində bu endemik cinsin nəslinin tükənməsi təhlükəsi ortaya çıxmışdı.

Digər cinslərə gəlincə, onların hər biri öz xüsusiyyətinə görə fərqlənir. Məsələn, İngilis Bulldogu ən tənbəl it hesab edilir. Bu, mənzil şəraitində saxlamaq üçün ən ideal olan bir cinsdir. Tənbəl xarakteri ilə tanınan Bulldog iri quruluşu və qorxuducu görkəmi ilə potensial oğruları qorxudacaq qabiliyyətdədir. Uyğun quruluşu isə birlikdə gəzməyi, bir yerlərə getməyi asanlaşdırır.

Böyük itlərdən xoşlananlar və tək qalan zaman qorxanlar üçünsə Boxer ideal cinsdir. Son dərəcə sadiq olan bu itlər sahibləri təhlükədə olmadığı müddətdə olduqca şirindilər, lakin sahibləri təhlükədədirsə, onu qoruyacaq qədər də güclü və qorxucu olurlar.

Kiçik boylu Puglar məktəbə gedənlər üçün idealdırlar. Üstəlik, dəyişik mühitlərə son dərəcə asan adaptasiya olurlar, davamlı hərəkət halında olmaq onları qorxutmaz.

Yaşlı insanlar üçün Schnauzer çox uyğun bir cinsdir. Yaxşı gözətçi və yoldaşdırlar. Çox da böyük deyillər. Uşaqlarla yaxşı anlaşarlar.







Evdə bir işiniz varsa itə baxmaq çətindir. Davamlı diqqət istəmələri işinizə maneə törədə bilər. Danua cinsi isə evdən çalışanlar üçün idealdır çünki ölçülərinə rəğmən, son dərəcə nəzakətli, sakitdirlər və nadir hallarda hürərlər. Lakin hürdükləri zaman səsləri dərindən və qüvvətli gəlir.

Türk iti olan Kanqaların boyunun ölçüsü 70-85 sm, çəkisi isə 45-70 kilodur.

Məşhur Rottveiler cinsli itlərin qiyməti 6 min dollardan, gözəl tüklü Tibet cinsinin qiyməti 7 min dollardan, Akita cinsinin qiyməti 4500 dollardan, Lowchen cinsinin qiyməti 3 min dollardan, Alabay iti isə 4 min dollardan başlayır. Samoyed it cinsinin qiyməti 4- 6 min dollar arasında dəyişir.

❑ **Günel MANAFLI**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

**Elan**

**Azadlıq prospekti, ABŞ səfirliyi və Nəsimi Rayon Polis İdarəsinin yanında, 12 mərtəbəli binanın 4-cü mərtəbəsində, 90kv.m.-lik 3 otaqlı mənzil satılır. Sahibindən.**
**Telefon (050) 3885035**

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

bakcell

## «Bakcell» ikiqat bonus kampaniyasına start verir

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkəti, növbəti dəfə ikiqat bonus kampaniyasına start verir.**

**2014-cü il 1 noyabr tarixindən 31 yanvar 2015-ci il tarixinə kimi keçiriləcək kampaniya CIN abunəçilərinə ikiqat bonuslar qazandıracaq.**

**Kampaniyaya qoşulmaq üçün CIN abunəçiləri "*" yazıb 5522 qısa nömrəsinə pulsuz SMS yollayır. Bundan sonra abunəçiyə bir ay ərzinədə istifadə etdiyi balansa uyğun olaraq bonus təklif olunur. İkiqat bonus əldə etmək üçün abunəçi 1 yazıb 5522 qısa nömrəsinə göndərməlidir.**

**Abunəçilər əldə etdikləri bonusları 7 gün ərzində ölkədaxili zənglər və SMS və MMS-lərə sərf edə bilərlər.**

**Kampaniya haqqında əlavə məlumat almaq üçün 5522 qısa nömrəsinə boş mesaj göndərin və yaxud bu linkdən istifadə edin: http://www.bakcell.com/az/get-doubled-balance**




## Nazirlik Bakıdakı məşhur klinikanı bağladı

**Bakı şəhəri, Nəsimi rayonu, 20 Yanvar küçəsi 1B-də fəaliyyət göstərən "Dobromed" klinikası bağlanıb. Bu barədə virtualaz.org saytına klinikadan məlumat veriblər. Xəbərdə deyilir ki, klinika profilaktika məqsədilə fəaliyyətini bir həftəliyə dayandırıb: "Respublika Gigiyena və Epidemiologiya Mərkəzi cari yoxlama aparıb. Buna görə də noyabrın 5-dən fəaliyyətimizi dayandıracağıq. Yəqin ki, bir həftədən sonra yenidən işləyəcəyik".**

Klinikadan lisenziyanın geri alınması ilə bağlı məlumatları təkzib ediblər.

Səhiyyə Nazirliyi isə klinikada yoxlama aparıldığını və nöqsanlar aşkarlandığını təsdiqləyib.

Nazirliyin mətbuat xidmətinin rəhbəri Anar Qədirli virtualaz.org saytına bildirib ki, klinikanın lisenziyası geri alınıb: "Nöqsanların aradan qaldırılması üçün vaxt verilib, bundan sonra lisenziya üçün təkrar müraciət edəcəklər". Qeyd edək ki, "Dobromed" klinikası 2012-ci ildə yaradılıb. Xəstəxanada ambulator və stasionar xidmət göstərilib.

## Bakı sakini dəm qazından boğuldu

**Bakıda bir nəfər dəm qazından boğulub. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, noyabrın 4-də Qaradağ rayonunun Lökbatan qəsəbə sakini Ceyhun Mahmudov dəm qazından boğulub.**

## Ağstafada yaşlıların pensiyasını mənimsəyən şəxs saxlanıldı

**Ağstafa rayonunda bankomatların qarşısında yaşlı insanlara kömək etmək adı ilə onların pensiya kartlarından pulları çıxarıb qaçan şəxs saxlanılıb. ANS TV-nin məlumatına görə, Qazax Rayon Polis Şöbəsinin əməkdaşı tərəfindən keçirilən əməliyyat zamanı Yevlax rayon sakini Asim Həsənov saxlanılıb. Qazax polisi onu sonuncu əməli zamanı elə iş başında yaxalayıb.**

Məlum olub ki, Ağstafa rayonundan əvvəl 10 rayonda da analoji əməl törədən 30 yaşlı Asim məhkumluq həyatı yaşayıb. Dələduzluq yolu 45 nəfəri aldadan Asim Həsənov iki ay öncə həbsdən çıxıb. Saxlanılan şəxsin Ağstafa rayonunda üç təqaüdçünün hesablarından 900 manatdan çox pul oğurladığı müəyyən edilib.

Qazax Rayon Polis Şöbəsinin İstintaq bölməsinin rəisi Kazım Poladov Polislər tərfindən saxlanılan Asim Həsənovun üzərindən 2200 ABŞ dolları nəğd pul və bir neçə vətəndaşa məxsus pensiya kartı da aşkar ediliyini bildirdi.

Hazırda onun digər cinayətlərinin olub- olmamasını rayon polis şöbəsi araşdırır.

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 272 (5981) 5 noyabr 2014

**Oktyabrın 1-də Goranboyun Səfikürd kəndində baş verən kütləvi qətl iki nəslin məhvi ilə nəticələndi. Kənd sakini Rafiq Hüseynovun törətdiyi cinayət bədbəxtlik dalınca bədbəxtlik gətirdi. Onun həyat yoldaşı Südabə Məmmədovanı və daha altı nəfəri yer üzündən silməsi öz ailəsində də dəhşətli faciəyə səbəb oldu.**

# "Goranboy qatili"nin ailəsində dəhşətli faciənin təfərrüatları

## Faiq Hüseynov: "Bu hadisədən sonra ailə üzvlərimizin hərəsi bir qohum evində qalırdı, o da bu cür vəziyyətə dözmədi, intihar etdi"

Belə ki, noyabrın 3-də "Goranboy qatili"nin qardaşı, 1984-cü il təvəllüdlü Afiq Hüseynov baş verənlərə dözməyərək özünü asaraq öldürüb. Bu zaman həyətə girən atası Müzəffər Hüseynov oğlunun asılmış meyitini görərək halı pisləşib və beş dəqiqə sonra onun da ürəyi dayanıb.

Cinayət işi üzrə istintaqı aparan müstəntiq Elnur Rüstəmov bildirib ki, intiharın qətl hadisəsi ilə heç bir əlaqəsi yoxdur və iş üzrə istintaq hərəkətləri aparılır. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov isə ANS-ə bildirib ki, hər iki şəxsin meyiti ekspertizaya götürülüb. Son məlumata görə, noyabrın 4-də Hüseynovlar dəfn olunublar.

Ancaq müstəntiqin dediklərindən fərqli olaraq, intihar məhz 7 nəfərin öldürməsi ilə əlaqədar olub. Axar.az-ın yazdığına görə, A.Hüseynov ailəli olub, iki övladı var. Kənd camaatı Hüseynovlar ailəsində Afiqi tərbiyəli, sakit bir insan kimi xarakterizə edir. Məlumatda bildirilir ki, məlum hadisələrdən sonra polis hər hansı insident baş verməsin deyə Hüseynovları Səfikürdə buraxmırdı. Bu ailə bir aydan çoxdur ki, müxtəlif yerlərdə yaşayırdı. Arabir Müzəffər Hüseynova gizlicə evinə baş çəkməyə polisin müşayiəti ilə icazə verilirdi. Lakin noyabrın 3-ü günorta saatlarında Afiq Hüseynov kəndə gəlməyə qərar verib. O, atasının yaşadığı evin həyətinə girib və özünü burada asıb. İntihar edən gəncin ailəsində hər hansı problemi olmadığı bildirilir. Onun intiharına qardaşının törətdiyi cinayət və kənd yerində ailənin gözdən düşməsi səbəb olub.

O, bu ağır faciəni qəbul edə bilməyib, nəslin adına ləkə gətirildiyini düşünərək intiharı seçib. Bildirilir ki, Asif ailənin bu hala düşməsində həm də atasını günahlandırıb və buna artıq dözmədiyini söyləyib.

Hüseynovlar ailəsində bu, ikinci belə intihar hadisəsidir. Yeddi nəfərin qətlindən daha əvvəl Müzəffərin Şaiq Hüseynov adlı oğlu da özünü asıb. Buna səbəb kimi onun ailədaxili problemlərinin olması göstərilir.

Baş verən dəhşətli faciə haqda isə Faiq Hüseynov danışıb. O, qardaşı Afiqin intiharını və atasının qəfil ölümünü baş verən kütləvi qətllə əlaqələndirib.

F.Hüseynov ATV-yə deyib ki, Afiq qatil qardaşının hərəkətinə tab gətirməyib:







**"Bu hadisədən sonra ailə üzvlərimizin hərəsi bir qohum evində qalırdı. Atam, anam, bacım, qardaşım - hərə bir yerə getmişdi. O da bu cür vəziyyətə dözmədi, intihar etdi. İnsandır da, ürəyi götürməyib, dözməyib. Atamla onun ölümü arasında 5 dəqiqə fərq oldu".**

Amma bu olaydan qabaq Rafiq Hüseynovun 7 nəfəri öldürməsinin arası heç beş dəqiqə də çəkməmişdi. Qumbaranı evə ataraq hamını partlatmışdı. Əslində bu adamları da baş verən ailə terrorunun ictimai qınağı, xəcaləti öldürdü. Çünki kəndin əksər sakinləri Hüseynovlar ailəsinin Səfikürddən çıxarılmasını tələb edirdi. Goranboyun prokuror əvəzi Əmirxan müəllim də ANS-ə deyib ki, onlar bu müddətdə kənddən kənarda yaşayıblar.

Qeyd edək ki, hər şey R.Hüseynovun həyat yoldaşı Südabənin əmisi oğlu ilə öpüşüb-görüşdüyünə görə onu vəhşicəsinə döyməsindən başlayıb. Atası evinə gedən gəlin geri qayıtmayıb. Buna qəzəblənən əri qayınanası evinə gələrək hamını öldürüb.

Bu şəxslər - 1958-ci il təvəllüdlü Diləzbər Alı qızı Məmmədova, 1983-cü il təvəllüdlü Fərqanə Allahyar qızı Məmmədova, 1951-ci il təvəllüdlü Ofelya İsa qızı Məmmədova, 1963-cü il təvəllüdlü Həvayət Xanlar qızı Məmmədova, 1984-cü il təvəllüdlü Südabə Allahyar qızı Hüseynova, 1989-cu il təvəllüdlü Namiq Allahyar oğlu Məmmədov və 2011-ci il təvəllüdlü İsa Elvin oğlu Məmmədov və Günel Məmmədovadır.

❑ **E.SALAMOĞLU**

# Qış gəldi, "dəm qazı terroru" başladı

## Ekspertlər bunun səbəbini keyfiyyətsiz qaz sobalarında, bacaların təmizlənməməsində görür

**Havalar soyumağa başlayandan dəm qazından zəhərlənərək ölənlərin sayı artmaqdadır. Son iki ayda mətbuatda 6 nəfərin dəm qazından dünyasını dəyişdiyi xəbəri yayılıb. Bir neçə gün öncə Bakıda 1 gündə 9 nəfər dəm qazından zəhərlənib və onların əksəriyyəti xəstəxanaya yerləşdirilib. Azərbaycan Səhiyyə Nazirliyi Klinik Tibbi Mərkəzin (KTM) Toksikologiya şöbəsindən "Yeni Müsavat"a bildirildi ki, müraciətlərin sayı günbəgün artmaqdadır. Bəs dəm qazı adlı "səssiz ölümdən" necə xilas olaq? Təhlükəsizlik üçün hansı tədbirlər görülməlidir? "Yeni Müsavat" bu mövzunu araşdırıb.**



**Azəriqaz"ın İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Kərbəlayev** sualımıza cavabında bildirdi ki, bu qurum yalnız qazın keyfiyyətli şəkildə verilməsini təmin edir: "Bu il istehlakçıların mənzillərində keyfiyyətə texniki baxış keçirilməsi üçün Bakı şəhəri və Abşeron rayonu ərazisində 153 ştat vahidi olan qaz kəmərlərinə texniki baxış qrupu yaradılıb. Onların vəzifəsi qaz kəmərlərinə qanunsuz müdaxilələrin, qoşulmaların, mənzildaxili qaz cihazlarının, qurğularının yerinin və sayının dəyişdirilməsinin qarşısını almaq və istehlakçıları təbii qazdan istifadə qaydaları ilə bağlı maarifləndirməkdən ibarətdir. Bizdə bu kimi texniki baxışlar keçirilir, istehlakçılar təlimatlandırılır. Qazdan qeyri-qanuni istifadə, havalandırma sisteminin olmaması, təhlükəsizlik qaydalarına riayət etməyən mənzillərə gedən qaz xətti dayandırılır. Tüstü borularının təmizlənməsi isə abonentlərdən asılıdır. Bu ən azı ildə iki dəfə təmizlənməlidir. Əks halda, qəza ehtimalı böyükdür".

**Azərbaycan Səhiyyə Nazirliyi Klinik Tibbi Mərkəzin (KTM) Toksikologiya şöbəsinin müdiri Azər Maqsudov "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, bu il 14 nəfər dəm qazından zəhərlənmə diaqnozu ilə müraciət edib:** "Müraciət edənlərdən heç birinin vəziyyəti ağır olmayıb, sağalıb evə buraxılıblar. Bu il mərkəzimizdə ölüm halı qeydə alınmayıb. Ancaq müraciətlər getdikcə artmaqdadır".

**Azər Maqsudov bildirdi ki, dəm qazından zəhərlənmələr zamanı xəstəyə ilkin yardım göstərilməsi çox önəmlidir:** "İlkin yardım olaraq, həmin şəxsi qapalı mühitdən təmiz havaya çıxartmaq lazımdır. Xəstəyə isti içkilər vermək və isti geyim lazımdır. Çünki bu zaman bədənin hərarəti düşür. Xəstənin huşu üstündədirsə onun müalicəsi daha asandır, ev şəraitində də mümkündür. Ancaq huşsuz vəziyyətdədirsə, onu təcili olaraq xəstəxanaya çatdırmaq lazımdır".

**Dəm qazından zəhərlənmə hallarının ən çox hansı səbəbdən baş verdiyinə gəlincə, Azər Maqsudov bildirdi ki, zəhərlənmə halları daha çox hamamda qazla ehtiyatsız davranarkən baş verir:** "Adətən hamam otaqlarının ölçüləri kiçik olur, ancaq oraya çox iri qaz sobaları qoyurlar. Ona görə də havanın həcmi dəm qazını udmağa çatmır. Zəhərlənmələrin əksəriyyəti bu səbəbdən baş verir".

**Azad İstehlakçılar Birliyinin kommunal məsələlər üzrə eksperti Nüsrət Qasımov isə abonentləri diqqətli olmağa çağırdı:** "Dəm qazından zəhərlənmələrin əsas səbəbi tüstü bacalarının düzgün qurulmaması və vaxtaşırı təmizlənməməsidir. Qazdan təhlükəsiz istifadə qaydalarına görə, tüstü bacası düz axınlı olmalı, 3 aydan bir yoxlanmalıdır, tüstü bacası təmizlənməlidir. Qaz sobaları və sair ən azı ildə bir dəfə qış mövsümü ərəfəsində yoxlanmalı və təmizlənməlidir. Əvvəllər bu işlə mənzil istismar sahələri məşğul olurdu. İndi isə demək olar ki, bu işi heç bir qurum öz üzərinə götürmür. Mən dəfələrlə mətbuatda çıxış etmişəm ki, belə olmaz. Hər gün biz bu cür xoşagəlməz hallarla rastlaşırıq. İndi sakinlər özləri mənzillərinin təhlükəsizliyinin qayğısına qalmalıdır. Ölkədə sanki qaz soyqırımı gedir. Mənzillərdə ən azı vintelyasiya boruları olmalıdır, hava gün ərzində bir neçə dəfə dəyişilməlidir. Ancaq bu hava boruları da vaxtında təmizlənmir. İnsanlar öz talelərinə laqeyddirlər. Bu məsələyə yaşayış binalarına MİS, korporativ binalara MKT-lar, şəxsi evlərdə isə ev sahibi özü nəzarət etməlidir".

**Ekspertin sözlərinə görə, daha təhlükəli məqam ayrı-ayrı iş adamlarının xaricdən qeyri-standart qaz cihazları gətirməsi və bunun "Azəriqaz"ın icazəsi olmadan satılmasıdır:** "Xaricdən qeyri-standart qaz cihazları gətirirlər, ancaq bunu "Azəriqaz"la razılaşdırmırlar. Bu isə sözügedən halların artmasına gətirib çıxarır. Qazdan hər kəsin öz bildiyi kimi istifadə etməsi düzgün deyil. Qazın istehlakına nəzarət edən qurum "Azəriqaz"dır və mənzildə təbii qazdan istifadə ilə bağlı aparılan hər bir yenilik bu qurumla razılaşdırılmalıdır. Qaz çox böyük təhlükə mənbəyidir. Vətəndaşlar qazdan istifadə ilə bağlı çox diqqətli olmalıdırlar".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
Son səhifə
N 272 (5981) 5 noyabr 2014

# Kök cütlük boşandı, arıqlayan kimi evləndi

Türkiyənin Bursa şəhərində artıq çəki ucbatından yola getməyən cütlük boşanıb. Bir-birindən xəbərsiz dietaya girən və mədə əməliyyatı olan 31 yaşlı Bihter Cihayla 32 yaşlı Vahdet Altun ümumilikdə 125 kilodan qurtularaq yenidən evləniblər. Xəstəxanada keçirilən mərasim zamanı cütlük üçün tort kəsilib. Qadın müsahibəsində aşağıdakıları deyib: "Köklük ucbatından evliliyimiz kabusa çevrilmişdi. Yola getmədiyimiz üçün boşandıq. Amma bir-birimizdən xəbərsiz müalicə olunduq. Bir müddət sonra yenidən qarşılaşdıq və evlənməyə qərar verdik".





## Kişilər kompüter oyunlarına daha çox meyl edir, çünki...

ABŞ-ın Stenford Universitetinin alimləri funksional maqnit rezonans tomoqrafiyasının köməkliyi ilə kişilərin kompüter oyunlarına maraq göstərmələrinin səbəbini ayırd etmək qərarına gəliblər. Onlar bu nəticəyə gəliblər ki, kişilər qadınlara nisbətən kompüter oyunlarına 2-3 dəfə daha artıq aludə olurlar. Oyun zamanı qadınlardan fərqli olaraq kişilər daha çox ərazi qazanmağa müvəffəq olublar. Belə ki, kişilər hansı kürəciklərin ilk növbədə vurulmasını müəyyənləşdirib onları zərərləşdiriblər. Məlum olub ki, oyun zamanı hər iki cinsdən olan oyunçuların beyinlərində həzz alma refleksinə cavab verən mezokortikolimbik sahə aktivləşməyə başlayıb. Lakin qadınlardan fərqli olaraq kişilərdə bu sahə daha aktiv olub. Aimlərin fikrincə, ərazi zəbt etməklə kişilər daha çox həzz alırlar. Onların sözlərinə görə, tarixi faktlar da bu nəzəriyyənin həqiqiliyini sübut edir. Məhz bu xüsusiyyətə görə kişilər ərazi zəbt etmək imkanı verən oyunlara daha bağlı olurlar. Bundan əlavə, kişilər oyunun daha çox davam etməsində də maraqlı olurlar. Bu səbəbdən də kişilər aqressiya və işğalçılıq motivləri olan oyunlara daha çox maraq göstərirlər.

# Analıq intuisiyası... əfsanə imiş...

Analıq intuisiyası deyilən şey, sən demə, əfsanə imiş. Saint-Etienne Universitetinin araşdırmaçılarına görə, ağlayan bir körpənin problemini anlamaq üçün valideynin cinsiyyəti heç bir önəm daşımır. Bu məsələdə əsas məqam onun körpəsi ilə nə qədər vaxt keçirməsidir. Araşdırmanı həyata keçirən professor Nikolas Mathevon 58-153 günlük arasında olan 29 körpənin ağlamasını qeydə alıb. Uşaqların 15-i Fransadan, 14-ü isə Demokratik Konqo Cümhuriyyətindən olub. Uşaqların Afrika və Fransadan seçilməsinin səbəbi isə mədəniyyətlərarası fərqlərin bu durum üzərində nə dərəcədə təsirli olub-olmadığını anlamaq olub. Ailələrə uşaqların ağlama səsini dinlədəndən sonra onlardan hansı uşağın onlarınkı olduğunu müəyyənləşdirmələri istənilib. Maraqlıdır ki, nəticə etibarilə qadınların 98 faizi ağlama səsindən öz uşaqlarını müəyyənləşdirə biliblər. Amma uşaqları ilə çox vaxt keçirən ataların 90 faizi də bu məsələdə uğur qazanıb. Uşaqları ilə gündə 4 saatdan az vaxt keçirən ataların 75 faizi onların səsini tanıya bilib.





## Sevdiyi qızı hər gün görmək üçün marketdə işə girdi

Türkiyənin İzmir şəhərində sevdiyi qızın ürəyinə yol tapmaq və onu hər gün görə bilmək üçün 24 yaşlı Arif Tamsun adlı gənc marketdə işə girib. Ali təhsilli kompüter mühəndisi olan oğlanın bu addımı atmasına səbəb isə sevdiyi qızın gün ərzində iki-üç dəfə marketə alış-verişə gəlməsidir. Marketdə satıcı işləyən oğlan deyir ki, o, buradakı işini dünyanın ən gəlirli işlərindən də üstün tutur: "Onu görə biləcəyim yer ancaq marketdir. Ağır ailələri var, bayıra gəzməyə çıxmır. Nə edim? Mən də onu görmək üçün marketdə işə girdim".

Marketin işçiləri isə deyir ki, gənc qız alış-verişə gələndə bütün işçilər aşiq oğlana güzəşt edir. Qız hansı şöbəyə yaxınlaşırsa, oğlan da orada satıcı kimi dayanmaq üçün iş yoldaşlarına yalvarır. Bunun sayəsində isə gün ərzində onlar bir neçə kəlmə kəsə bilir.




**QOÇ** - Olduqca uğurlu gündür. İdeyalarınıza doğru ilkin addımlar atmaqdasınız. Tərəfdaşlarınızla səmimi olsanız, bu prosesi sürətləndirə bilərsiniz. Nahardan sonra müqəddəs ocaqlara baş çəkin.

**BUĞA** - Göy qübbəsi təzadlar ümmanına düşməyinizdən xəbər verir. Bu səbəbdən hər addımda ağıllı və tədbirli davranmalısınız. Fəaliyyətlə bağlı problemləriniz tədricən qaydasına düşəcək.

**ƏKİZLƏR** - Ümumi məziyyətlərinə görə bəxtinizə gərgin bir təqvim çıxa bilər. Odur ki, hər addımda tədbirli və ayıq-sayıq olmalısınız. Haqqınızı zorakı üsullarla tələb etməyə çalışmayın.

**XƏRÇƏNG** - İş yerində xırda qanqaraçılığı gözlənilir. Özünüzü ehtiyatlı aparın. Sizi başa düşməyənlərə nəyisə anlatmağa çalışmayın. Əsas diqqətinizi cari iş problemlərinin həllinə yönəldin.

**ŞİR** - Yeni əlaqələr yaratmaqla mövcud problemlərinizi həll etmək imkanı qazanacaqsınız. Müzakirələr zamanı mövzudan kənara çıxmayın. Axşama doğru ürəyinizə yaxın adamlara baş çəkin.

**QIZ** - Perspektivli sövdələşmələr üçün uğurlu vaxtdır. Amma danışıqları yalnız ikili vəziyyətdə aparmalısınız. Bu gün mühüm planlarınızı kiməsə desəniz, onlar reallığını itirə bilər.

**TƏRƏZİ** - Saat 11-13 arası azacıq gərginliklə üzləşsəniz də, günün əsas qayəsi zövqünüzə uyğun tərzdə cərəyan edəcək. Nahardan sonra gözlənilməz və sevindirici hadisələrlə rastlaşacaqsınız.

**ƏQRƏB** - Hansısa narahatçılığa əsas yoxdur. İştirakçısı olduğunuz proseslər müsbət istiqamətdədir. Hətta maddi durumunuzun da yaxşılaşacağı mümkündür. Məsuliyyətinizi dərk edin.

**OXATAN** - Oturaq işlərə müəyyən qədər ara verin. Yoxsa gərginlikdən qurtula bilməyəcəksiniz. Ulduzlar müxtəlif ünvanlardan maraqlı təklif alacağınızı bildirir. Axşam sevinəcəksiniz.

**OĞLAQ** - Baş verən situasiyaları reallığın gözü ilə qiymətləndirsəniz, uğurlarınız çox olacaq. Bu gün sizə qarşı rəğbət artacaq. Bunu nəzərə alıb hərəkətlərinizə diqqət yetirin.

**SUTÖKƏN** - Üzərinizə düşən başlıca vəzifə səhhətinizi qorumaqdan ibarətdir. Hətta bunun naminə işdən yayınmaq da olar. Saat 18-dən sonra sevgi romantikliyinə qapılmağınız məsləhətdir.

**BALIQLAR** - Göy qübbəsi ovqatınızın yüksələcəyinə işarə edir. Mənəvi rahatlığa qovuşmaq üçün imkanlarınız var. Buna baxmayaraq, təkbaşına fəaliyyət göstərməkdən çəkinin. Qazanc barədə düşünün.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Hoteldə uşaq doğdu, işdən çıxarıldı



ABŞ-ın Nyu York şəhərindəki ən məşhur hotellərdən birinə rəhbərlik edən Tara Tan adlı qadının başına ilginc hadisə gəlib. Belə ki, doğuş sancıları başlayan kimi xəstəxanaya getmək istəyən, amma bunu çatdırmayacağını anlayan qadın elə hotel otağında da övladını dünyaya gətirib. "Şirkət mədəniyyətinə" uyğun olmadığı üçün işdən çıxarılan qadın hoteldən məhkəməyə şikayət verərək, 10 milyon dollar tələb edib.

"New York Post" qəzetinə müsahibə verən Tan deyib ki, doğuşun gerçəkləşməsinə həyat yoldaşı kömək edib. O, həkimlə telefonla danışaraq doğuşun baş tutmasını təmin edib. 40 yaşındakı Tanın sözlərinə görə, hotel rəhbərliyi bu yaşlarda olan və analıq arzusuna düşən qadınlara müsbət yanaşmır, onları hər cür bəhanə ilə işdən çıxarır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600